Hər kəs ədalətli olacaq

ƏDALƏT

## Süleyman Soylu Azərbaycana təşəkkür etdi



**Can Azərbaycana burdan salamlar. Allah onlardan razı olsun.**

Adalet.az xəbər verir ki, bu sözləri Türkiyənin daxili işlər naziri Süleyman Soylu Türkiyədə seçkilərin nəticələri ilə bağlı yerli mediaya açıqlamasında deyib.

O, Türkiyə Cümhuriyyətinin 100-cü il dönümünün bütün türk dünyasının bayramı olduğunu bildirib: ”Başda Cənab İlham Əliyev olmaqla, bütün Azərbaycana, hörmətli dövlət başçısına, ordakı bütün dostlarımıza - hər kəsə burdan sevgilərimizi çatdırırıq. Qardaşlıq nəyi gərəkdirirdisə, bu günə qədər onu etdilər. Bu gündən sonra yeni bir yolçuluq başlayır.

Dünyaya birlikdə deyə biləcəyimiz sözlərimiz var: Nəyi bacardığımızı bilirik! Allah millətimizin, hamımızın yardımçısı olsun!

Türkiyənin 100 illiyi sadəcə Anadoluya aid yüzillik deyil. Türkiyə yüzilliyi Azərbaycana, türk dövlətlərinə aid yüzillikdir. Müsəlman dünyasının, qurbanların və məzlumların, nəfəs gözləyən insanlığın yüz ilidir”.

Qeyd edək ki, Türkiyədə ötən gün baş tutan prezident seçkilərinin ikinci turunda Rəcəb Tayyib Ərdoğan qalib gəlib.

## Vilayət Eyvazov polkovniki təqaüdə göndərdi



**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov xidmətdə olmanın son yaş həddi ilə bağlı DİN-in İdman Cəmiyyətinin rəisi, polis polkovniki Zemfira Meftahətdinovanı qəbul edib.**

Daxili İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, yolasalma mərasimində general-polkovnik Vilayət Eyvazov onun dövlətçiliyə, peşə borcuna sədaqətini, insani keyfiyyətlərini xüsusi vurğulayıb, İdman Cəmiyyətinin rəisi kimi qüsursuz fəaliyyətini yüksək qiymətləndirib. Sonda nazir Vilayət Eyvazov uzun illər qüsursuz xidmətlərinə görə təltif olunduğu DİN-in ”Fəxri fərman”ını Z.Meftahətdinovaya təqdim edib.

Qeyd edək ki, bundan sonra Z.Meftahətdinova fəaliyyətini Azərbaycan Atıcılıq Federasiyasında davam etdirəcək.

## Hikmət Hacıyev Armen Qriqoryanla müzakirə apardı

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ”GLOBSEC 2023 Bratislava Forum”u beynəlxalq tədbiri çərçivəsində panel müzakirələrində diskussiya aparıblar.**

Adalet.az xəbər verir ki, bu barədə erməni mediası məlumat yayıb. Bildirilib ki, sərhədlərin delimitasiyası və təhlükəsizliyi, regional kommunikasiyaları bərpası və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *İradə Tuncay:* Uşaqlarla böyük şəxsiyyət kimi danışmaq lazımdır

**Mən uşaqla uşaq kimi rəftar etməyi xoşlamıram, həmişə onlarla böyük bir adam kimi danışıram. Onların dünyaya baxışını öyrənmək istəyirəm ki, görüm bu balacaların içində nələr var. Nəvələrim ağıllı qızlardır, lakin toplum onları hara itələyəcək, necə olacaq, onu mən deyə bilmərəm. Çünki bizim dövrümüzlə indiki dövr bir az fərqlidir. Uşaqlarla böyük şəxsiyyət kimi danışmaq lazımdır ki, böyük şəxsiyyət kimi də formalaşsınlar. Onların düşüncələrinə də hörmətlə yanaşmaq lazımdır, çünki onlar safdırlar, korlanmayıblar, çirkaba batmayıblar, məqsədləri, təmənnaları yoxdur.**

## Təbrik etmək mədəniyyəti



**Mayın 28-də qardaş Türkiyədə prezident seçkiləri keçirilidi. TÜrk xalqı ölkənin toxunulmazlığına, millətin asayişinə və gələcəyinə səs verdi. Sayın Ərdoğan müxalifətin vahid namizədi sayın Kılıçdaroğluna 5 faiz fərqlə qalib gəldi.**

Sayın Ərdoğanın yenidən prezident seçilmək münasibətilə ilk təbrik edən möhtərəm prezidentimiz İlham Əliyev oldu. Daha sonra dünyanın bütün dövlət başçıları, Bayden və Makron başda olmaqla, telefon açıb sayın Ərdoğanı təbrik etdilər. Və münasibətlərin daha da sıxlaşdırılacağına və inkişaf etdiriləcəyinə inandıqlarını bildirdilər. Eləcə də prezidentliyə namizəd Muharrem İnce və İYİ partiyanın başqanı Meral Akşener də sayın Ərdoğanı təbrik etdi və uğurlar dilədi.

Amma özünü demokrat sayan və uduzmağını həzm edə bilməyən Kemal Kılıçdaroğlu sayın Ərdoğanı təbrik etmədi.

Və bu məğlubiyyət Kemal Kılıçdaroğlunun siyasi həyatının sonu deməkdir.

## SAYIN RƏCƏB TAYYİB ƏRDOĞANA TƏBRİK MƏKTUBU



**Sayın Cümhurbaşkanı!**

Sizi yenidən qardaş dövlətin cümhurbaşkanı seçilməyiniz münasibətilə ürəkdən təbrik edir, sizə uzun ömür, can sağlığı və Türkiyənin gələcəyi uğrunda apardığınız mübarizədə uğurlar arzulayıram.

Siz təkcə müxalifətə, sayın Kılıçdaroğluna deyil, müxalifəti həm maddi, həm də mənəvi tərəfdən dəstəkləyən ABŞ və Fransa başda olmaqla, bütün Qərb dövlətlərinə, SOROS-çulara, FETÖ-çulara, Kandilə və Türkiyəni bölmək istəyən bütün terrorçu təşkilatlara qalib gəldiniz. Bu Sizin və Türk xalqının qardaş ölkənin ikinci yüzilliyində böyük zəfəridi.

Mən Avrasiya Yazarlar Birliyinin dəvətilə seçimlərin ikinci turu ərəfəsində və 28 mayda oyvermə günü Ankarada səfərdəydim. Aydınlarla görüşdüm, qəzetəçilərlə, yazarlarla, siyasətçilərlə görüşdüm. 28 mayda da seçimləri izlədim və seçimlərdə demokratiyanın və şəffaflığın canlı şahidi oldum. Siz dünyaya demokratiya dərsi verdiniz.

Sizin və türk xalqının bu möhtəşəm zəfəri Azərbaycanda da böyük coşğu ilə qarşılandı. Sizi və Türkiyəni həmişə yanımızda hiss etdiyimiz kimi, Siz və Türk xalqı da sayın Cümhurbaşkanımız İlham Əliyevi və millətimizi yanınızda hiss edin.

Və inanıram ki, Sizin bu qələbəniz həm də Türk dövlətlərinin qələbəsidi və Böyük Turana gedən yolun açılışıdı.

**Tanrı Türkü qorusun!**

**Tanrı Sizi qorusun!**

**Hörmətlə:**
**Aqil ABBAS,**
**Millət vəkili, yazar**


Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 21 (6014) 2 iyun 2023-cü il | Qiymətı 40 qəpik


## FHN-dən əhaliyə hava xəbərdarlığı



**Fövqəladə Hallar Nazirliyi gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib.**

FHN-dən Adalet.az-a verilən xəbərə görə, müraciətdə deyilir:

”Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, yaxın günlər ərzində ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, yağıntılı olacağı, yağıntıların bir sıra ərazilərdə intensiv olacağı, çaylarda sululuğun artacağı və bəzi çaylardan qısamüddətli sel və daşqın keçəcəyi, şimşək çaxacağı və güclü külək əsəcəyi proqnozlaşdırılır. Qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, gözlənilən hava şəraiti ilə əlaqədar müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırır. Belə ki, yağıntılarla əlaqədar bəzi çaylarda mümkün sel və daşqından qorunmaq üçün sel və daşqın təhlükəli ərazilərdən uzaq durmaq, bu təhlükə ilə üzləşdikdə dərhal yaxınlıqdakı yüksəkliyə qalxmaq tövsiyə olunur.

Bundan əlavə, güclü külək zamanı yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Həmçinin, güclü küləyin baş verən yanğınların söndürülməsi ilə əlaqədar yaratdığı çətinlikləri nəzərə alaraq, küləkli hava şəraitində yanğın təhlükəsizliyi qaydalarına xüsusilə ciddi riayət edilməlidir.

Həmçinin, ildırımla bağlı təhlükələrdən qorunmaq üçün elektrik cihazlarını şəbəkədən ayırmaq, telefonla (sabit şəbəkə, mobil, taksofon və s.) danışmamaq, açıq havada olarkən elektrik xətti, ildırım ötürücüsü, navalça və antenaya yaxınlaşmamaq, hündür ağacların altında daldalanmamaq, avtomobildə olduqda isə hərəkəti dayandıraraq şüşələri qaldırıb ildırımın bitməsini gözləmək tövsiyə edilir”.

# Moldovada beştərəfli görüş



İyunun 1-də Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında qeyri-rəsmi görüş keçirilib.

## DİN: "Bolt" və "Uber" taksi şirkətləri ilə bağlı daxil olan müraciətlərin sayı çoxalıb




**”Bolt” və ”Uber” taksi şirkətləri ilə bağlı daxil olan müraciətlərin sayı çoxalıb”.**

Adalet.az xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi polis polkovnik-leytenantı Elşad Hacıyev deyib.

Onun sözlərinə görə, 400-dən artıq taksi sürücüsünə neqativ fəaliyyəti ilə bağlı cinayət və inzibati xəta tərkibi yaradan əməllərə bağlı cərimələr tətbiq olunub:

”Bu istiqamətdə müvafiq tədbirlər davam etdirilir. Əsas diqqət ona yönəlib ki, nəqliyyat təsərrüfatında taksilərlə bağlı vətəndaş məmnunluğu təmin edilsin. Aidiyyəti dövlət qurumları ilə birgə kompleks işlər davam etdirilir”.

## «ÖLÜ TƏQAÜDÜ» ALMAQ ÜÇÜN ŞİRƏLİ MÜSLÜMOV QƏDƏR YAŞAMAQ LAZIMDI



**Parlamentin son iclaslarında millət vəkili Musa Urud belə bir məsələyə toxundu ki, pensiya yaşı 70-ə qaldırılsın. İndi baxıram, müzakirələr gedir, yəni gündəmə təzə bir mövzu düşüb, mənə də çox zənglər edirlər. Mənfur Sovet hökuməti vaxtı universitetdə oxuyanda bizə bir mənasız ”Siyasi iqtisad” dərsi keçirdilər. Orda yazmışdılar ki, dünyada ilk pensya İngiltərədə tətbiq olunub, yaş həddi də 65 nəzərdə tutulub. Sovet alimləri İngiltərənin çıxartdığı qanunu qəbul etmir, söyürdülər və onun adını da ”ölü təqaüdü” qoymuşdular. Mənfur sovetlərdə pensiya yaşı 60 idi.**

İndi bizdə 65-ə qaldırılıb. Musa müəllim də deyir ki, 70-ə qaldırılsın.

Azərbaycan uzunömürlülər ölkəsidir. Şirəli Müslümov 167 il yaşadı, Mahmud Eyvazov 156 il. Ona görə də mən də təklif edirəm ki, 70 azdı, bəlkə 80-ə qaldıraq?

Amma dünən ”Report”un əməkdaşı Səbuhi Məmmədov 23 yaşında gözlərini əbədi yumdu.


***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***




## UŞAĞA PUL VERƏRSƏN, SALIB İTİRƏR

*1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günüdür. Əslində ilin 365 günü uşaqların müdafiəsi günü olmalıdır. Bu bir günü kəşf edib uşaqların başını aldadırlar. Əslində elə bu gün də dünyada milyonlarla uşaq aclıqdan əziyyət çəkir, ölür, çiçək kimi vaxtından əvvəl solur, başlarına bombalar tökülür, yurd-yuvaları dağıdılır.*

*O gün bir video paylaşmışdılar. Bir hacıleylək yuvası yanırdı. Hacıleylək yuvada qalmış balalarını xilas etmək üçün özünü oda vururdu, özünü öldürürdü. Mən bunu Birinci Qarabağ savaşında öz gözlərimlə görmüşəm. Necə başlarına bomba tökülən valideynlər dəhşət içində acizcəsinə övladlarına baxırdılar. Və bunu "Dolu" romanında da təsvir etmişəm. İkinci Qarabağ savaşında da bunun şahidi olduq, Allah bir də bizə bunları yaşatmasın, çox ağır səhnədir. Bu barədə şair Hidayət Elvüsal da bir yazı yazıb, onu da bugünki sayımızda dərc edirik.*

*Uşaqlar təkcə bizim yox, bu millətin, bu Vətənin, bu dövlətin gələcəyidir. Millətimizin gələcəyini qoruya bilirikmi? Təəssüf ki, ürəyimiz istədiyi kimi yox.*

*Çox fikirləşmişəm ki, uşaq pulu niyə vermirlər? Nəhayət, bu qənaətə gəlmişəm ki, Dövlət baba uşaq pulunu ona görə vermir ki, verər, uşaqdırlar da, salıb itirərlər.*

## QONŞULAR QOYUR Kİ, UŞAQLAR BİR-BİRİNƏ OXŞAYA?



**Bir zarafatcıl dostum vardı. Danışırdı ki, bir gün əmimgildəyəm, evdə beş uşaq var, heç biri də bir-birinə oxşamır. Dedim ki, əmi, bu uşaqlar niyə bir-birinə oxşamır? Əmisi də özündən zarafatcılıymış, qayıdıb deyir:**

**- Qardaş oğlu, qonşular qoyur ki, uşaqlar bir-birinə oxşaya?**

İndi məşhur kinoaktyor Al Paçinonun 83 yaşında övladı olub.

## Kemal Kılıçdaroğlu təyyarədən necə atlandı?!

**Türkiyədə prezidentliyə namizədlər sayın Ərdoğan, sayın Kılıçdaroğlu, sayın Sinan Oğan və sayın Muharrem İnce və bir məkktəbli İstanbuldan Şanlı Urfaya uçurlar, bu vaxt pilot gəlir ki, təyyarənin mühərriki xarab olub və cəmi dörd paraşüt var, bölüşüb atılın.**



Sayın Ərdoğan deyir:

***- Sinan Oğan gəncdir, götürüb atılsın.***

Sinan Oğan paraşütün birini geyinib atılır.

Sayın Ərdoğan:

***- Muharrem İncə müxalifətdir, həm də dostumuzdur, sonra deyərlər ki, paraşütü iqtidar götürdü, götürsün atılsın.***

Muharreem İnce də paraşütü geyinib atılır.

Sayın Kamal Kılıçdaroğlu heç nə gözləmədən əlini atır paraşütün birini götürür və atlanır.

Bunu görən sayın Ərdoğan başını bulayır və üzünü məktəbliyə tutub deyir:

***- Götür, yavrum, bir paraşüt götür atlan, Türkiyənin gələcəyi sizsiniz, sizi qorumaq boynumun borcudur.***

Məktəbli deyir:

***- Sayın cumhurbaşkanım, iki paraşüt qalıb, biri sizin, biri də mənim.***

Sayın Ərdoğan:

***- Bu necə olur?!***

Məktəbli:

***- Kamal amca mənim məktəbli çantamı paraşüt əvəzinə geyinib atlandı.***


***İradə TUNCAY***
***iradetuncay@rambler.ru***


# ANKARA SAVAŞI



**Ankarada dəfələrlə olmuşam, amma bu dəfə niyəsə məndən neçə əsr əvvəl buralara gəlmiş, buraları viran qoymuş Əmir Teymuru xatırladım... Yəqin siyasi durum öylə idi və hər dövrün öz Əmiri var... Və özünü xatırladır. Seçkilər də savaş kimi bir şeydi və müşahidə etdikcə çox da dəyişməyən bir tarixi izləyirsən...**

**Və mayın 29-da mən yenə yeni tarix izlədim...**

**1299 və 1922 - rəqəmlərə fikir verin, bir-birini təkrarlayır. Bu, Osmanlı imperiyasının quruluş və çöküş tarixinin rəqəmləridir. Rəqəmlərin mistik bağlantısını qoyaq bir tərəfə (amma yəqin burda da nəsə var), 623 illik dövrdə dövlətin başına 36 padşah keçdi. Bu hökmdarlar fərqli özəlliklərə sahib idilər. Çox qiymətli dövlət yönəticiləri, qüdrətli sərkərdələr də vardı, qadın, içki, ov düşkünü olanlar da. Ruhi xəstələr də, uşaqkən taxta çıxarılanlar da vardı. Bir həftə, bir ay, bəzən 46 il hakimlik eləyənlər də vardı. Yaxşı-pis, doğru-yanlış, bu, tarixdi. Qüdrətli bir dövləti bu gün asılı duruma gətirmiş tarix. Bəzən 500 il əvvəl verilmiş yanlış bir qərar bu gün topa dönüb məmləkətin tifaqını viran qoyur.**


**Bax:səh-3**


## İMKAN VARSA, BİR İÇƏRİŞƏHƏRƏ DƏYİN

**Burada möhtəşəm Kitab sərgisi neçə gündür davam edir. Keçin on-on beş manatınızdan özünüzə və uşaqlarınıza iki-üç kitab alın. Şair və yazıçılarımızla yaxından tanış olun. Özünüz qıraq, övladlarınız gün gələcək bu şair və yazıçılarla çəkdirdikləri şəkillərlə fəxr edəcəklər.**

O məşhur filmdə deyilir ey: ”Ekzamen dlya menya vseqda prazdnik”. Kitab sərgisi də həmişə bayramdır.

Bu bayramda iştirak etməyə tələsin. Kitablar sizin yolunuzu gözləyir. Onları küsdürməyin. Kitab küsərsə barışmağı uzun çəkər. Və itirənlər də kitabları küsdürənlər olar.

# İlham Əliyev "Avropa siyasi birliyi" toplantısının açılış mərasimində iştirak edib



**İyunun 1-də Moldovanın paytaxtı Kişineuda "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Moldova Respublikasının Prezidenti Maya Sandu Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşılayıb.

Toplantı iştirakçıları birgə foto çəkdiriblər.

Paytaxt Kişineudan 35 kilometr məsafədə yerləşən Bulboaka kəndində keçirilən builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Sammitdə liderlər sülh və təhlükəsizliyin təmin edilməsi, enerji təhlükəsizliyinin və Avropada ölkələrarası əlaqələrin gücləndirilməsi mövzularında müzakirələr aparırlar.

Qeyd edək ki, həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələri müzakirələr zamanı bərabər səslə təmin edən nadir və misilsiz platforma olan "Avropa siyasi birliyi"nin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

"Avropa siyasi birliyi"nin 2-ci Zirvə toplantısı Moldovanın tarixində ən böyük beynəlxalq tədbirdir.

Xatırladaq ki, "Avropa siyasi birliyi"nin birinci Zirvə toplantısı ötən ilin oktyabrında Çex Respublikasının paytaxtı Praqada keçirilib.

# Azərbaycan və Ermənistan liderlərinin növbəti görüşü bu tarixdə keçiriləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında növbəti görüş iyulun 21-də olacaq.**

Adalet.az xəbər verir ki, bu barədə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Kişinyovda keçirilən beştərəfli görüşdən sonra bildirib.

O, görüşün Brüsseldə baş tutacağını qeyd edib.

# Dünya liderləri İlham Əliyevi təbrik edirlər

**Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

Adalet.az-ın məlumatına görə, mətndə deyilir:

"Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı və firavanlıq, Azərbaycan xalqına rifah və tərəqqi arzulayır, ölkələrimiz arasında mövcud səmimi münasibətlərin gələcək illərdə daha da möhkəmlənməsini diləyirik".

***

**Gürcüstan Prezidenti Salome Zurabişvili Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

Adalet.az xəbər verir ki, məktubda deyilir:

"Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Gürcüstan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Xalqlarımız arasındakı güclü dostluq əlaqələri ortaq tariximizə əsaslanır. 105 il bundan əvvəl hər iki ölkə demək olar ki, eyni zamanda öz müstəqilliklərini elan etmişdir. O zamandan etibarən bizim mehriban qonşuluq, qardaşlıq münasibətlərimiz davamlı şəkildə güclənərək, dövlətlərimiz arasında möhkəm strateji tərəfdaşlıq mərhələsinə qədəm qoymuşdur.

Bu gün Gürcüstan Azərbaycan Respublikası ilə strateji tərəfdaşlığı daha da dərinləşdirməyə və möhkəmləndirməyə xüsusi önəm verir.

Zati-aliləri, Sizə dərin hörmətimi bir daha bildirir, fəaliyyətinizdə uğurlar diləyir, dost Azərbaycan xalqına isə sülh, cansağlığı və firavanlıq arzu edirəm".

# *Azərbaycan XİN: "Ermənistanın əsassız bəyanatını rədd edirik"*

**"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Laçın rayonunda 28 may 2023-cü il tarixində səsləndirdiyi fikirlərə və çağırışlara istinadən Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən növbəti dəfə verilmiş qərəz dolu əsassız bəyanatı qətiyyətlə rədd edirik".**

Adalet.az xəbər verir ki, bu, Azərbaycanın Xarici İşlər Nazirliyinin bəyanatında yer alıb.

"Ermənistan tərəfinin bu bəyanatı, Azərbaycan ərazilərini 30 il işğal altında saxlayan, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirən, şəhər və kəndləri viran qoyan Ermənistanın, bu əraziləri işğaldan azad etdikdən sonra yenidənqurma işləri aparan, ərazilərdən kütləvi şəkildə vəhşicəsinə qovulmuş əhalinin geri qayıtması üçün bütün şəraiti yaradan Azərbaycanın qısa müddətdə gördüyü işləri həzm edə bilməməsinin təzahürüdür.

Görünür ki, Ermənistan bununla eyni zamanda, işğalına 2020-ci il 10 noyabr tarixli Üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq son qoyulduğu Laçından öz qüvvələrini çıxararkən bu ərazilərə dinc sakinlərin geri qayıtmasına maneçilik törətmək məqsədilə 2700-dən artıq mina yerləşdirməsi və evlərə mina tələlər qoyması kimi əməllərini də, ört-basdır etmək və beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq məqsədi daşıyır", - Azərbaycanın Xarici İşlər Nazirliyindən bildirilib.

"Azərbaycan Respublikasının Prezidentinin ərazi bütövlüyü və suverenliyə hörmət edilməsinin zəruri olduğuna, Azərbaycanın daxili işlərinə qarışmağın qəbuledilməzliyinə və bölgədə separatçılığın təşviq edilməsinə xidmət edən addımların qarşısının qətiyyətlə alınmasına istiqamətlənən çağırışlarının Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən qəsdən təhrif edilməsi Ermənistan XİN-in tarixdən dərs çıxartmadığını nümayiş etdirir.

BMT Nizamnaməsinə və beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycana qarşı təcavüz aktı törədən, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini heçə sayaraq işğala son qoymayan Ermənistanın Azərbaycanın güc tətbiq etməklə hədə törətdiyini iddia etməsi gülüncdür", - deyə nazirlikdən əlavə edilib.

# Etibarlı əməkdaşlıq əlaqələri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 may tarixində İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycana səfəri ilə əlaqədar mətbuatda bəyanatla çıxış edib.**

"İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycana səfəri ölkələrimiz arasında sıx tərəfdaşlıq əlaqələrini nümayiş etdirir. Səfər ikitərəfli əlaqələrimizi gücləndirəcək. Aramızda çox fəal siyasi dialoq var.

Əməkdaşlıq əlaqələrimizin tarixində əlamətdar hadisə,cari ildə İsraildə Azərbaycan səfirliyinin açılması faktı əlaqələri daha yüksək səviyyəyə qaldıracaq və eyni zamanda, daha sıx qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar yaradacaq.

Ticarət dövriyyəmiz 1,7 milyard ABŞ dollarından çoxdur. Lakin, növbəti illərdə ticarət dövriyyəsini şaxələndirməyə çalışmalıyıq.Həyata keçiriləcəyini planlaşdırdığımız birgə layihələr nəticəsində bizim daha balanslaşdırılmış ticarət dövriyyəmiz olacaq və o, təkcə enerji amilindən asılı olmayacaq".

"Uzun illərdir ki, Azərbaycan İsrailə xam neftin etibarlı təchizatçısı olmaqda davam edir və bu da enerji sahəsində sıx əməkdaşlığı nümayiş etdirir. İnterkonnektorların yaradılması və üçüncü ölkələrdə potensial əməkdaşlıq layihələri üçün böyük imkanlar mövcuddur. İrriqasiya və kənd təsərrüfatı sahələri üzrə birgə layihələr reallaşdırılacaqdır. Azərbaycan İsrailin müsbət təcrübəsindən istifadə etmək və ixrac bazarını şaxələndirmək niyyətindədir.

Yeni əməkdaşlıq sahələrdən biri kibertəhlükəsizlik sahəsidir.



Bu sahədə fəal təmaslarabaşlanılıb. Kibertəhlükəsizlik hər bir ölkənin milli təhlükəsizliyinin mühüm hissəsidir. Gənc nəslin təlimi və tədrisi dəməqsədlərimizə nail olmaq və özümüzü təhlükədən qorumaq üçün mühüm amil olacaq.

Müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlıq əlaqələri mövcuddur.

Azərbaycanın uzun illərdir ki, bu sahədə İsrailin müasir avadanlığına çıxışı var, bu da bizə müdafiə qabiliyyətimizi müasirləşdirməyə kömək edir və dövlətçiliyimizi, əsas dəyərlərimizi, milli maraqlarımızı və ərazi bütövlüyümüzü müdafiə etməyə imkan yaradır.

Qarşılılıqlı turist axınının səviyyəsi artırılacaqdır. Həftədə yalnız dörd reys var və bu, yetərli deyil.

Nümayəndə heyətlərinin üzvlərinə uçuşların sayının artırılması ilə bağlı göstərişlər verilmişdir. İsraildə daha çox təqdimat imkanları yaradılmalıdır.

Yəhudi icması Azərbaycandaəsrlər boyu yaşayıb. Bu, bizim ölkənin böyük dəyəridir, yəhudi icmasının üzvləri - Azərbaycan vətəndaşları ölkəmizin müasir inkişafına çoxlu töhfə vermiş və töhfə verən insanlardır.

Azərbaycanda yaşayan yəhudi qardaşlarımız ölkəmizin ərazi bütövlüyü uğrunda azərbaycanlılar ilə birgə çiyin-çiyinə vuruşublar. Onlar bizim müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda bizimlə və bütün digər azlıqların nümayəndələri ilə birgə vuruşublar.

İsraildə yaşayan azərbaycanlılar ölkələrimiz arasında körpülərin qurulmasında mühüm rol oynayırlar.

Bizim dünya azərbaycanlılarının diaspor təşkilatları var, lakin yalnız bir ölkədə, İsraildə bu təşkilat əsasən yəhudi mənşəli insanlardan ibarətdir. Bu, aramızda heç bir fərqin, heç bir bölgünün olmadığını nümayiş etdirir.

Bizim əsrlər boyu davam edən qarşılıqlı əlaqələr, dostluq və qarşılıqlı dəstək tariximiz var. Müstəqil ölkə olaraq Azərbaycanın sadəcə 31 yaşı var, lakin bizim qədim tariximiz var və Azərbaycandakı yəhudilər həmişə cəmiyyətimizin fəal və mötəbər hissəsi olmuşlar və bu gün də belə olmaqda davam edirlər. Mədəni körpülərin bizim ikitərəfli strateji əməkdaşlığımıza töhfəsi çox vacibdir".

Cari ilin 30 may tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun iştirakı ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı" imzalanıb.

**Hazırladı:**
**Mehriban Cəfərova**

# "Delimitasiya ədalətli şərtlər əsasında olmalıdır"

**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib. Dövlətimizin başçısı görüşdə çıxış edib.**

28 mayı ikiqat bayram adlandıran Prezident bildirib ki, artıq Laçın şəhərinin sakinləri uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıblar: "Bu gün müstəqil Azərbaycan dövləti dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib və istənilən nəticəni əldə etməyə qadirdir".

Cəmi 7-8 ay ərzində Laçının böyük hissəsinin tamamilə yenidən qurulduğunu qeyd edən Azərbaycan Prezidenti bildirib ki, "İlk 20 ailə artıq Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək.

Birinci mərhələdə Laçında 4 minə yaxın insan məskunlasaçaqdır. Laçın şəhərinin Baş planı hazırlanıb. Bütövlükdə Laçında 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır.

Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Laçında bütün lazımi şərait yaradılır.

Hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun. Tibb məntəqəsi hazırlanır. Məktəb yeni dərs ili üçün hazır olacaq. Onlarla müəssisənin yaradılması nəzərdə tutulur. Artıq Aqro və Sənaye Parkı yaradılmaqdadır, 1100-dən çox iş yeri yaradılacaq".

Mənfur düşmənin 30 il şəhər və kəndlərimizi dağıdıb, viran qoyduğunu vurğulayan İ.Əliyev bildirib ki, "Azərbaycan isə cəmi iki il yarım ərzində artıq keçmiş köçkünləri öz doğma yurdlarına qaytarıb. Cari ilin sentyabr ayına qədər Zabux kəndi də tamamilə inşa edilib zabuxluların sərəncamına veriləcək".

Laçın rayonunun işğal altına düşməsini böyük faciə adlandıran Prezident bildirdi ki, "Laçının işğal altına düşməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılmışdır. Laçın rayonu 1992-ci ilin may ayında, Şuşadan 10 gün sonra işğal olunmuşdu.

Laçının ermənilərə təhvil verilməsinin arxasında məkrli siyasi niyyətlər dayanmışdı. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı. Hakimiyyəti istənilən yollarla ələ keçirmək üçün ən çirkin əməllərə də əl atdı, Şuşanı, Laçını demək olar ki, düşmənə təhvil verdi. 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşdü, hakimiyyətə can atmış və hakimiyyəti zəbt etmiş o qüvvələrin xəyanəti nəticəsində".

Azərbaycan Prezidenti bildirib ki, "bütün dünya ictimaiyyəti yaxşı bilir ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə çıxmaq istəmirdi, işğal edilmiş torpaqlardan çıxmaq istəmirdi. Sadəcə olaraq, görüntü naminə, beynəlxalq vasitəçiləri aldatmaq üçün, beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün belə bir təklif irəli sürürdü ki, guya onlar beş rayonu qaytarmağa hazırdırlar, ancaq Laçın və Kəlbəcər onların əlində həmişəlik qalmalıdır".



"Müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Azərbaycan qalib oldu"-deyən prezident bildirib ki, "Cari ilin aprel ayında Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsini quraraq öz ərazi bütövlüyümüzü tam bərpa etdik.

Sərhəd-buraxılış məntəqəsi son məntəqə idi ki, Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə və əks istiqamətə oradan nəzarətsiz hərəkət var idi. Hərəkət indi də var, amma tam nəzarət altındadır"

Ölkə prezidenti bildirib ki, "Danışıqlar aparılan müddətdə iqtisadiyyatımızı gücləndirdik və bu gün heç kimdən asılı deyilik. Dünya miqyasında nadir ölkələrdənik ki, iqtisadi cəhətdən tam müstəqilik. Siyasi gücümüzü artırdıq, bu gün Azərbaycanla hesablaşırlar. Ən azı regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz. Bu gün dünya miqyasında bir çox məsələlərdə Azərbaycanın mövqeyi önəmli mövqe kimi sayılır.

Güclü ordu qurmuşuq. Bu ordu düşməni 44 gün ərzində darmadağın edib, onları diz çökdürüb və torpaqlarımızdan qovub.

Gözəl gənc nəsil yetişdirdik - vətənpərvər, tərbiyəli, milli ruhda tərbiyə almış gənc nəsil. Həmin bu gənclər bizim torpaqlarımızı azad ediblər. Laçını, Kəlbəcəri, o vaxt işğal altında olan digər torpaqları görməyən, bu bölgələrdən olan gənclər ölümə getməyə hazır idilər, ölümə də gedirdilər. Biz onların qəhrəmanlığını heç vaxt unutmayacağıq.

İkinci Qarabağ müharibəsindən keçən dövr gələcək üçün çox önəmli idi. Bu gün bizim yaşadığımız reallıq məhz İkinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində əldə edilmiş nəticələr əsasında formalaşıb".

Prezident sülh müqaviləsi üçün ciddi maneə qalmadığını bəyan edib. "Ermənistan bizim ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı bir ciddi maneə qalmayıb. Yaxın gələcəkdə, - əgər yenə də Ermənistan saxtakarlıq etməsə və yenə də öz mövqeyini dəyişməsə, - sülh müqaviləsi imzalana bilər".

İ.Əliyev çıxışı zamanı bildirib ki, "Şuşa işğaldan azad olunandan, bir çox kəndlər azad olunandan sonra Ermənistan faktiki olaraq kapitulyasiya aktına imza atmışdır. Əldə edilmiş razılaşmaya görə, ermənilərin yaşadıqları Qarabağ bölgəsi ilə Ermənistan arasında bir yol bağlantısı olmalı idi və Rusiya sülhməramlı qüvvələri bu yola nəzarət etməli idilər. Beləliklə, Laçın şəhəri hələ də faktiki olaraq işğal altında idi və məhz noyabrın 10-na qədər gedən danışıqlar nəticəsində mən təkidlə nail oldum ki, yeni yol çəkiləcək və yeni yol çəkiləndən sonra Laçın şəhəri bizə qaytarılacaq.

Yolun razılaşdırılması üçün üç il vaxt müəyyən edilmişdi, sadəcə olaraq, yolun marşrutunun razılaşdırılması üçün. Biz nəinki bunu razılaşdırdıq, eyni zamanda, ilyarım ərzində bu yolu inşa etdik və avqustun əvvəlində artıq Laçında yaşamış ermənilərə və Rusiya sülhməramlı qüvvələrinə bildiriş göndərdik ki, biz artıq gəlirik, xahiş edirik, buradan çıxın. Ondan sonra bizdən xahiş olundu ki, müəyyən vaxt verilsin, avqustun 25-nə qədər vaxt verilsin və ondan sonra onlar Laçını, Zabux və Sus kəndlərini boşaldacaqlar. Beləliklə, avqustun 25-də sonuncu erməni işğalçı, yaxud ki, qanunsuz yaşayan Laçını tərk etdi və avqustun 26-da biz Laçına qayıtdıq.

Torpaqdan pay ola bilməz. Danışıqlar zamanı müxtəlif mərhələlər olub, müxtəlif məqamlar olub. Təzyiqlər də olub, hədələr də olub və bəziləri bizi işğalla barışmaq üçün böyük səylər göstərirdilər. Ancaq bizim əyilməz mövqeyimiz, iradəmiz bütün bu səyləri alt-üst etmişdir.

Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq".

""Miatsum" kitabı bağlandı. Separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi" deyən Prezident bildirib ki, "Son vaxtlar beynəlxalq təşkilatlar faktiki olaraq bizim mövqeyimizlə tamamilə razılaşıblar. Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq. Ona görə bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır".

Çıxışı zamanı yolu azaraq Ermənistan ərazisinə keçən iki hərbiçimizlə bağlı da fikirlərini bölüşən Prezident bildirib ki, "Bir müddət bundan əvvəl Azərbaycanın iki hərbçisi yolu azaraq Ermənistan ərazisinə keçib və orada da işgəncələrə məruz qalıb.

İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla Azərbaycan nümayəndələri belə bir razılığa gəliblər, əgər kimsə yolu azsa, maksimum iki günə o adamlar qaytarılmalıdır. Azərbaycan tərəfi buna əməl edib. Mayın 14-də Brüsseldə keçirilən üçtərəfli görüşdə Azərbaycan tərəfi bildirdi ki, bu, dözülməzdir. Amma bunun əvəzinə onlara iş verilib, 11 il müddətinə məhkum ediliblər".

Sərhədlərin delimitasiya məsələsinə də toxunan Prezident bildirib ki, "Delimitasiya bizim şərtlərimiz əsasında, yəni, ədalətli şərtlər əsasında olmalıdır, sülh müqaviləsi beynəlxalq şərtlər əsasında olmalıdır, Naxçıvana yolumuz açılmalıdır və Qarabağda hələ də kök salmış Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır".

**Nicat Novruzoğlu**

# *Naxçıvanda Prezidentin səlahiyyətli nümayəndəliyi yaradılır*



**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi yaradılır.**

Adalet.az-ın məlumatına görə, bu, Milli Məclisin bu gün keçirilən iclasının gündəliyinə daxil edilən "Dövlət qulluğu haqqında" qanuna dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin vəzifəsi inzibati vəzifələrin birinci təsnifatına daxil edilir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavinlərinin vəzifələri inzibati vəzifələrin ikinci təsnifatında yer alacaq.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.

# *Ərdoğan yeni dövrə üç əsas hədəflə başlayacaq*



**Yeni dövrə sürətlə start verəcək Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın üç prioritet hədəfi var.**

Birincisi - iqtisadiyyatda inam və sabitlik üçün addımlar atılacaq. İkincisi - bir il ərzində bir milyon suriyalının geri qaytarılması təmin ediləcək. Üçüncüsü - zəlzələ bölgələrində 650 min yaşayış evi tikiləcək. Ərdoğanın yeni mərhələdə görəcəyi ilk işlərdən biri zəlzələdən zərər çəkənlər üçün tikilən evlərin tamamlanması olacaq. Fevralın 6-da baş verən və 11 vilayəti viran qoyan zəlzələlərin izlərinin silinməsi və dağılmış şəhərlərin bərpası istiqamətində atılan addımlar sürətləndiriləcək.

Bu yaşayış binalarından 319 mini bu ilin oktyabr-noyabr aylarında təhvil veriləcək. Zəlzələ zonasında yaşayış yerləri ilə yanaşı, məktəblər, sağlamlıq mərkəzləri, bazarlar, yaşıllıq ərazilər və kiçik sənaye sahələri də tikiləcək.

Seçki mərhələsində tez-tez gündəmdə olan suriyalıların geri qayıtması məsələsi Ərdoğanın yeni dövrdə atacağı prioritet addımlar sırasındadır. Türkiyə lideri bu günə qədər 600 min suriyalının ölkələrinə qayıtdığını açıqlayıb. Bu prosesi sürətləndirmək üçün yeni addımlar atılacaq.

# *Hərbi ekspert: "Ermənistan qara parça üzərində ağ saplarla cinayət işi toxudu, indi isə..."*

**"Yolu azaraq Ermənistan tərəfinə keçən iki azərbaycanlı hərbi qulluqçuya Ermənistan tərəfi qara parça üzərində ağ saplarla bir cinayət işi toxudu. Hərbçilərimizdən birini 11 il yarım azadlıqdan məhrum etdilər. Digər hərbçimizin isə məhkəmə prosesi davam edir və onun da daha uzun müddətə azadlıqdan məhrum ediləcəyi istisna deyil"**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Hərbi ekspert əsirlikdə olan iki hərbçimizin tezliklə azad ediləcəyini bildirib: "Azərbaycan tərəfi müharibədən sonrakı dövrdə böyük hissəsi heç bir qarşılığı olmadan 180 nəfərdən çox erməni hərbçisini Ermənistan tərəfinə təslim edib. Onların arasında cinayət məsuliyyətinə cəlb edilmiş və yüngün cinayət törədənlər də az deyildi. Lakin Ermənistan tərəfi bizim atdığımız bu addımların əksinə olaraq yolu azmış iki hərbçimizi geri qayratmaq əvəzinə, onlara cinayət işi açdırıb, uzun müddət həbsdə saxlamaq qərarı verdi.



İndi isə Zəngilan tərəfdən təxribata cəhd edərkən saxlanılan iki erməni diversantın əsirlikdə olan iki hərbçimizlə dəyişdirilməsi ehtimalı mövcuddur.

Lakin burda fərq ondan ibarətdir ki, erməni diversantları təxribat törətmək məqsədi ilə bizim tərəfə keçib, bizim əsgərlər isə yolu azaraq Ermənistan tərəfinə keçiblər. İstənilən halda Azərbaycan tərəfi öz hərbi qulluqçularını qaytarmaq üçün müəyyən addımlar atacaq.

Amma kimsə də düşünməsin ki, Ermənistan tərəfi iki Azərbaycan əsgərini qaytarmaqla, həbsdə olan daha çox sayda erməni hərbçilərini ala biləcək.

Burda maksimum biz iki əsgərimizə qarşılıq həbsdə yatan və saxlanılan iki erməni hərbçisini qaytara bilərik. Hesab edirəm ki, aidiyyatı qurumlarımız bu məsələylə məşğul olacaqlar və azərbaycanlı hərbçilərin ən qısa müddətdə geri qaytarılmasını da təmin edə biləcəklər".

# *Politoloq: "Bu tarixdə qanunsuz erməni birləşmələrinə zərbələr endiriləcək..."*



**"Sülh müqaviləsi imzalanana qədər ermənilərin təxribatı davam edəcək. Nə qədər sülhməramlılar ordadır, Rusiya Cənubi Qafqazdadır bu xalqlar bir-biriylə ədavət aparacaqlar"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Zərdüşt Əlizadə deyib. Politoloq ermənilərin hələ də məğlubiyyətlə barışmadıqlarını bildirib:

"Azərbaycan tərəfindən isə iş gedir. Qüvvələr nisbəti, ictimai rəy dəyişir. Bir ay öncə demişdim ki, iyul və avqustun əvvəli Azərbaycan qanunsuz erməni birləşmələrinə zərbə endirəcək.

Prezident də Laçına səfəri zamanı Ermənistana xəbərdarlıq etdi. Ölkə başçısı öz təklifini verib. Bildirdi ki, qanunsuz "dövlət"inizi ləğv edin, silahlarınızı təhvil verin, Ermənistana aparın, dövlət içində ikinci silahlı qüvvə, "dövlət" ola bilməz. Vaxtilə torpaqlarımız işğalda olanda bizə deyirdilər ki, barışın, daha olan olub, keçən keçib. Biz bununla razılaşmadıq, 26 il danışıqlar getdi və sonra müharibə oldu.

Müharibədə isə qələbə çaldıq, torpaqlarımızı işğaldan azad etdik və məsələ bitdi. Gərək indi ermənilər bilsin ki, qanun və güc Azərbaycanın tərəfindədir və buna tabe olmaq lazımdır. Əgər ermənilər həyatlarını, gələcəklərini müharibəyə həsr etmək istəyirlərsə, buyursunlar.

Azərbaycanın maddi, mənəvi imkanları Ermənistandan qat-qat çoxdur. Ona görə ermənilər ağıllarını başlarına yığsınlar və gerçəkliklə barışsınlar".

**Vasif Əlihüseyn**

# Parlament 2022-ci il dövlət büdcəsini müzakirə edib

## "İqtisadiyyatın real artımı gözlənilən 3.5% proqnoza qarşı 4.6% olub"

**Mayın 31-də Milli Məclisin spikeri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin 2023-cü ilin yaz sessiyasının son iclası keçirilib. 14 məsələnin təqdim edildiyi son iclasda ilk olaraq "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası qanununun layihəsi birinci oxunuşda müzakirə edilib.**

Məsələ barədə deputatlara məlumat verən **İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili** bildirib ki, 2022-ci ildə Azərbaycan Respublikasının dövlətçilik və müstəqillik tarixində Prezident İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan ərazilərin azad edilməsi və işğalçı Ermənistan üzərində qazanılan hərbi-siyasi-iqtisadi Qələbədən sonra ilk dəfə Zəngilan rayonunun Ağalı kəndinə sakinlərin köçürülməsilə Böyük Qayıdışa start verilib, Zəngilan Beynəlxalq Hava Limanı açılıb, Laçın şəhəri nəzarətimizə keçib, Laçın koridorunun marşrutu dəyişdirilib, Qarabağ və Şərqi Zəngəzurda yol, enerji, su və digər layihələrin həyata keçirilməsi davam etdirilib. Qeyd edilib ki, bu işlərin aparılması üçün hesabat ilində dövlət büdcəsindən 4.3 milyard manat vəsait xərclənib.

Tahir Mirkişili bildirib ki, Azərbaycanda 2022-ci ildə iqtisadiyyatın real artımı gözlənilən 3.5% proqnoza qarşı 4.6% olub, Ümumi Daxili Məhsulun həcmi isə ilk dəfə ən yüksək həddə - 133.8 milyard manata çatıb. Qeyri-neft-qaz sektorunda artım 9.3% olaraq 69.8 milyard manat təşkil edib. 2021-ci ilin göstəriciləri ilə müqayisədə artan 40.6 milyard manatlıq Ümumi Daxili Məhsulun 69.5%-i neft-qaz sektorunun, 30.5%-i isə qeyri-neft-qaz sektorunun hesabına formalaşıb. Belə ki, neft-qaz sektorunun ÜDM-də payı 47,8%, qeyri-neft-qaz sektorunun payı isə 52,2% təşkil edib.

Qeyd edilib ki, ötən il dünyada müşahidə olunan mürəkkəb proseslər fonunda Azərbaycanda görülən tədbirlər nəticəsində makro-iqtisadi sabitliyə nail olunsa da, 2022-ci ildə orta illik inflyasiya ölkə üzrə 13.9%, ərzaq inflyasiyası isə 19.5% olub. Hesabat ilində əhalinin nominal gəlirlərinin 20.5% artması inflyasiyanın neqativ təsirlərinin yumşaldılmasına yönəldilib.

Dövlət büdcəsinin əsas parametrləri barədə məlumat verən komitə sədri bildirib ki, 2022-ci ildə dövlət büdcəsinin gəlirləri 29 197,8 milyon manat proqno-



za qarşı 30 679,6 milyon manat təşkil edib və proqnozla müqayisədə 1 481.8 milyon manat və ya 5,1 faiz çox icra olunub.

Ötən il üzrə dövlət büdcəsinin xərcləri barədə danışan komitə sədri diqqətə çatdırıb ki, təsdiq olunmuş 32 303.8 milyon manat xərcin 32 064.6 milyon manatı, yəni 99.3%-i icra olunub və bu icra faizi son illərin ən yüksək icra faizidir. Xərclərin 55.3%-ni cari xərclər, 39.1%- ni əsaslı xərclər, 5.6%-ni isə dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər təşkil edib.

Bildirilib ki, 2022-ci ildə sosialyönümlü xərclər dövlət büdcəsinin icrasında xərclərin 36,1 faizi və ya 11 576,9 milyon manat həcmində olub. Ümumilikdə isə son 5 ildə sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 4,4 faiz-bənd, mütləq ifadədə isə 4380,4 milyon manat və ya 1,6 dəfə artıb.

Bildirilib ki, 2022-ci ildə dövlət büdcəsindən səhiyyə xərclərinə ayrılmış 1 428.5 milyon manat vəsaitin 1417.9 milyon manatı və ya 99.3%-i icra olunub. Təhsil üçün ayrılmış 3732.6 milyon manatın 99%-nin icrası təmin edilib. Elm üçün ayrılmış xərclər 167.8 milyon manat həcmində icra olunub. Hesabat ilində Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsinə 1 132.0 milyon manat vəsait yönəldilib. Müdafiə və milli təhlükəsizlik sahəsinə dövlət büdcəsi xərclərinin 17,5 faizi həcmində və ya 5622,5 milyon manat məbləğində vəsait yönəldilib. Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə 540.1 milyon manat, meliorasiya tədbirlərinin maliyyə təminatı üçün 413.9 milyon manat vəsaitin dövlət büdcəsindən icrası təmin olunub. Ötən il 42 publik şəxsə dövlət sifarişi əsasında bir sıra iş və xidmətlərin həyata keçirilməsi üçün dövlət büdcəsindən 319.6 milyon manat vəsaitin ödənişi icra edilib.

Tahir Mirkişili diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2022-ci ilin dövlət büdcəsindən ümumilikdə 4311,0 milyon manat vəsait ayrılıb. Həmin vəsaitin 4070,9 milyon manatı infrastruktur təyinatlı layihələrin tikintisinə, yenidən qurulmasına, 99,9 milyon manatı ərazilərin minalardan təmizlənməsinə, 60,9 milyon manatı müdafiə və hüquq-mühafizə təyinatlı obyektlərin tikintisi və təmirinə, 54,5 milyon manatı sosial təyinatlı layihələrin, 24,8 milyon manatı isə digər tədbirlər üzrə xərclərə yönəldilib.

Dövlət büdcəsi xərclərinin 47.8%-i və ya 15 341.6 milyon manatı dövlət proqramlarının və məqsədli tədbirlərin təminatına yönəldilib. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası üçün 2 418,7 milyon manat vəsait yönəldilib. Bildirilib ki, 2022-ci ildə dövlət büdcəsinin yerli gəlirləri 1030,2 milyon manat proqnoza qarşı 1113,9 milyon manat məbləğində və ya 8,1 faiz çox icra olunub. Dövlət büdcəsinin yerli xərcləri isə 1070,1 milyon manat proqnoza qarşı icra 1013,5 milyon manat və ya 94,7 faiz olunub. Ötən il dövlət büdcəsi kəsirinin yuxarı həddi 3106,0 milyon manat məbləğində təsdiq olunsa da, faktiki kəsir 1385,0 milyon manat təşkil edib. Dövlət büdcəsinin kəsiri 2022-ci ilin faktiki ÜDM-in 1,0 faizini təşkil etməklə, proqnozlaşdırılmış həddən 2,8 faiz-bənd az olub.

Qeyd olunub ki, 2022-ci il icmal büdcənin gəlirləri 36760,9 milyon manat proqnoza qarşı 6336,7 milyon manat və ya 17,2 faiz çox icra edilməklə, 43097,6 milyon manat təşkil edib. İcmal büdcənin xərcləri isə 35640,9 milyon manat proqnoza qarşı 98,4 faiz icra olunub.

Sonra **Hesablama Palatasının sədri Vüqar Gülməmmədov** "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyini təqdim edib.



Palata sədri bildirib ki, 2022-ci ilin sonuna büdcə qaydasının 1-ci göstəricisi - icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbəti üzrə faktiki göstərici hədəflənən maksimal kəsirdən az olub. Büdcə qaydasının digər göstəricisi - dövlət borcunun ÜDM-ə nisbəti üzrə də hədəfə əməl olunub. O, söyləyib ki, neftin qiymətinin yüksək olması nəticəsində xərclənmiş dövlət büdcəsinin neft gəlirləri əvvəlki ilə nisbətən 13,2% artaraq 15,3 milyard manata çatsa da, cəmi gəlirlərdə payı 1,3 faiz bəndi azalıb.

Sonra Palata sədri fiskal sahəyə dair bəzi məqamları diqqətə çatdırıb. O, bildirib ki, 2022-ci ildə cari xərclərin qeyri-neft-qaz gəlirləri ilə təmin olunma səviyyəsinin əvvəlki illə müqayisədə 9 faiz bəndi artdığını, qeyri-neft gəlirlərinin 15,4 milyard manat olmaqla cari xərclərin 86,5%-ni təşkil edib. Qeyd olunub ki, 2022-ci ilin dövlət büdcəsində səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər üzrə daxilolmalar 106,5 milyon manat proqnozlaşdırılıb, icra isə 130,7 milyon manat olub. Proqnozun artıq icra edilməsinə baxmayaraq, bəzi müəssisələr tərəfindən dövrün sonuna xalis mənfəətin əldə edilməsi fonunda bu mədaxil mənbəyi üzrə daxilolma nəzərdə tutulmamış və icra edilməmişdir.

Nəzərə çatdırılıb ki, 2022-ci ildə ölkə üzrə ümumilikdə 12102 sayda satınalma tətbiq edilməklə 6,8 milyard manat məbləğində satınalma müqavilələri bağlanıb və bu 2021-ci illə müqayisədə 767,5 milyon manat çoxdur.

Qeyd olunub ki, 2022-ci il üçün dövlət əsaslı vəsait qoyuluşu xərcləri 3,3 milyard manat nəzərdə tutulub, 99,8% səviyyəsində icra edilib. Hesabat ilində 95 istiqamətdə ümumilikdə 1,4 milyard manat subsidiya icra edilib ki, bu da icra edilmiş dövlət büdcəsi xərclərinin 4,4%-ni təşkil edir.

Dövlət büdcəsinin icrası barədə illik hesabatda dövlət proqramları və məqsədli tədbirlər üzrə xərclərin əhatə dairəsi əvvəlki illərə nisbətən artırılıb. Sonra məsələ ətrafında geniş müzakirələr aparılıb. Millət vəkilləri öz çıxışlarında bəzi qeyd və təkliflərini səsləndiriblər.

**Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.**

**Nicat Novruzoğlu**

---

## "İlham Əliyev tarixə düşdü, üç yüz ildir ki, qələbənin nə olduğunu..."



**"Mən siyasətçi deyiləm, amma bir vətəndaş kimi təbii ki, Rəcəb Tayyib Ərdoğanı dəstəkləyirəm. Onun prezident seçilməsinə hamı kimi mən də çox sevindim"**

Bunu Adalet.az-a açıqlamasında tanınmış ictimai xadim, Tibb Universitetinin (ATU) dosenti Rəşid Mahmudov deyib. R.Mahmudov qardaş Türkiyənin daim Azərbaycanın yanında olduğunu bildirib:

"Xarici ölkələrin hamısı Türkiyəni yıxmağa çalışır. 2012-ci ildə televiziya vasitəsilə çağırış etdim ki, türk dövlətlərinin birliyini yaradın. Çünki türk dövlətlərini Avropa Birliyinə qoymazlar, çünki ora xaçpərəslərin birliyidir.

Gədəbəydə Yaylaq festivalı keçirilən bütün türk dünyası ölkələrindən nümayəndələr gəlmişdi. Əslində bu türk dövlətlərinin festivalı idi. Türkiyə Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında çox inkişaf etdi. Bu bir barış siyasətidir. Ərdoğan imperialistlərə qarşı mübarizə aparan yeganə adamdır. Ərdoğan öz partiyasından yeni bir kadır hazırlamalıdır ki, Kamal Kılıçdaroğlu kimi adamlar ona qarşı çıxmasınlar. Bu dəfəki seçkidə kürdlər də Ərdoğana səs verdi.

İlham Əliyev Vətən müharibəsində əldə etdiyi qələbəylə tarixə düşdü. Üç yüz ildir ki, biz qələbənin nə olduğunu bilmirdik. Amma Ərdoğan olmasa, qardaş Türkiyə olmasa, biz tək qalarıq".

**Vasif Əlihüseyn**

---

## Tural İsmayılov: "Türkiyə xalqı artıq yeni türk əsrinə səs verdi"



**"Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bütün Türk dünyasında və qlobal məkanda Türkiyənin mövqelərinin daha da güclənməsini təmin edən tarixi liderlərdəndir. Onun Türkiyəyə verdiyi töhfələri Atatürk dövrü ilə də müqayisə edə bilərik. Onun hakimiyyəti dövründə iqtisadiyyat, ətraf mühit və şəhərsalma, enerji, kənd təsərrüfatı, mədəniyyət və turizm, xarici əlaqələr, müdafiə sənayesi, sənaye və texnologiya sahələrində Türkiyə dünyada önəmli güc mərkəzinə çevrilib".**

Adalet.az xəbər verir ki, bu fikirləri Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, politoloq Tural İsmayılov bildirib.

"Əminliklə demək olar ki, Türkiyə PUA, hibrid avtomobil, gələcəkdə isə qırıcı təyyarə və başqa hərbi və mülki sənaye sahəsində dünya liderliyinə iddialı olacaq. İki il əvvəl müdafiə sənayesi layihələrinin büdcəsi 5,5 milyard dollardan 75 milyard dollara çatıb. Türkiyə dünyanın aparıcı pilotsuz uçuş aparatları istehsalçıları və ixracatçılarından birinə çevrilib. Mütəşəkkil sənaye zonalarının sayı 192-dən 3330-a çatdı. Türkiyənin hazırda Milli Kosmik Proqramı mövcuddur. Türkiyə dünyanın önəmli coğrafiyalarında nüfuza və həmçinin hərbi mövcudluğa malikdir. Ərdoğanın mövqeləri qlobal sülhə böyük töhfələr verir", - deyə Tural İsmayılov qeyd edib.

Rəcəb Tayyib Ərdoğan Türkiyənin bütün sahələrdə inkişafı ilə bağlı mühüm işlərə imza atıb. Türkiyədə həyata keçirilən çoxvektorlu siyasət Ankaranın daha da güclənməsinə və geosiyasi müstəvidə söz sahibi olan ölkələrdən birinə çevrilməsinə şərait yaratdı.

Türkiyə xalqı artıq yeni türk əsrinə səs verdi. Beləliklə, Türkiyə düşmənlərinin arzusu ürəyində qaldı.

**Eminquey**

---

## Fuad Nəcəfli: "Naxçıvanda günəş elektrik stansiyası tikiləcək"



**"İki gündən sonra energetika naziri Pərviz Şahbazov və Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəfi, eyni zamanda xarici şirkət rəhbərlərini Naxçıvan Muxtar Respublikada qonaq edəcəyik".**

Adalet.az xəbər verir ki, bunu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli deyib. O bildirib ki, görüşlərdə məqsəd alternativ enerjilər üzrə Naxçıvanda günəş elektrik stansiyasının tikintisinə nail olmaqdır: "Həmçinin Naxçıvanda içməli və suvarma suyu ilə bağlı ciddi problemlər var. Çalışırıq ki, əlimizdə olan dayanıqlı su vasitələrindən istifadə edib sudan əziyyət çəkən digər ərazilərdə su təminatını yaxşılaşdıraq. İş yerlərinin açılması üçün də çalışırıq. Kənd Təsərrüfatı Nazirliyi bu sahədə iş aparır. Aqrar sahədə apardığımız işlərin yaxın günlərdə şahidi olacaqsınız".

F.Nəcəfli söyləyib ki, bu yaxınlarda Naxçıvan şəhərində yeni abad evlər tikiləcək: "Eləcə də müxtəlif infrastruktur layihələrimiz də olacaq. İnanıram ki, yaxın 5 ildə Naxçıvanda çox gözəl layihələr icra olunacaq".

---

## Azərbaycan və İsrail səhiyyə nazirlərinin görüşü keçirilib

**Azərbaycan Səhiyyə Nazirliyində İsrail Dövlətinin daxili işlər və səhiyyə naziri Moşe Arbelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb.

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev bildirib ki, Azərbaycan-İsrail əlaqələri xalqlarımız arasında tarixən mövcud olmuş dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. Münasibətlərimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi də qeyd edilib. "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İsrail Dövlətinin Prezidenti İsxaq Hersoq arasındakı dostluq əlaqələri bütün sahələrdə sıx əməkdaşlığın inkişafına və möhkəmlənməsinə əvəzsiz töhfə verir", - deyə Teymur Musayev vurğulayıb. Nazir, həmçinin bildirib ki, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında imzalanan səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı ölkələrimizin səhiyyə sektorunun yeni mərhələdə inkişafı üçün mühüm platformadır. Əməkdaşlıq Planının tezliklə icraya başlayacağı qeyd edilib. Teymur Musayev vurğulayıb ki, səhiyyədə nanotexnologiyaların tətbiqi və mütərəqqi texnoloji avadanlıqların istifadəsi Azərbaycan Səhiyyə Nazirliyinin əsas hədəflərindəndir:

"İsrailin beynəlxalq müstəvidə qabaqcıl ölkə olaraq tibbi nou-hau nailiyyətlərinin, bu sahədə İKT həllərinin təcrübələrinin Azərbaycanda da smart tətbiqi səhiyyəmizin modernləşdirilməsinə müsbət təsirlərini göstərəcək". Həmçinin Azərbaycanın səhiyyə naziri Heydər Əliyev Fondu və YAŞAT Fondunun dəstəyi ilə 44 günlük Vətən Müharibəsi zamanı yaralanan əsgərlərimizə müayinə və müalicə üçün mütəmadi olaraq Bakıya gələn israilli həkim briqadalarının yardımını yüksək qiymətləndirərək, öz təşəkkürünü ifadə edib.

Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirən İsrail Dövlətinin daxili işlər və səhiyyə naziri vurğulayıb ki, ölkələrimiz arasında dostluq əlaqələri tarixi faktdır:

"İsrail ilə Azərbaycan arasında dərin mədəni-tarixi əlaqələr, dostluq və harmoniya mövcuddur. İsrail Azərbaycanın suverenliyini tanımış ilk ölkələrdən biri olub".

Moşe Arbel ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində də əməkdaşlığın yüksək səviyyədə olduğunu diqqətə çatdırıb:

"Bundan əlavə, İsrailin Ben Qurion Universiteti və Soroka Tibb Mərkəzi Azərbaycan Tibb Universiteti ilə fəal əməkdaşlıq edir".

Sonda israilli nazir iki ölkənin səhiyyə nazirlikləri arasında əməkdaşlığın bundan sonra da yeni müstəvidə uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə tərəflər tibb kadrlarının hazırlanması prosesinin təkmilləşdirilməsi, səhiyyə sistemlərinin rəqəmsallaşdırılmasının tətbiqi üzrə əməkdaşlığın qurulması, genetika üzrə təlimlərin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

---

## DİN-dən əməliyyat: İrandan 50 kiloqram narkotik gətirən şəxs saxlanıldı

**İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə göndərilən külli mqidarda narkotik vasitənin qanunsuz dövriyyəyə buraxılmasının qarşısı polis əməkdşaları tərəfindən növbəti dəfə uğurla alınıb.**

Adalet.az xəbər verir ki, Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri tədbir nəticəsində Abşeron rayon sakini Namiq Məmmədov narkotiklərin qanunsuz dövriyyəsini təşkil etdiyi üçün saxlanılıb. Onun avtomobilinə və üzərinə baxış zamanı 50 kiloqram, o cümlədən 28 kiloqram heroin və 22 kiloqram pixotrop naddə metamfetamin aşkar edilərək götürülüb. Namiq Məmmədov narkotik vasitələri İran vətəndaşı, şəxsiyyəti istintaqla araşdırılan "Hadı" adı tanışının vasitəsilə Qaradağ rayonunda gizlədilən yerdən paytaxt ərazisində müxtəlif ünvanlara çatdırıb pul qazanmaq məqsədilə əldə etdiyini bildirib.



Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, Namiq Məmmədov barəsində həbs qətimkan tədbiri seçilib, əməliyyat tədbirləri davam etdirilir.

Sonuncu əməliyyat zamanı İranda yaşayan və milli genefondumuzun məhv edilməsi üçün narkotikləri qaçaqmalçılıq yolu ilə ölkəyə göndərməyə çalışan narkotacirlərin daxildəki dayaqlarına daha bir zərbə endirilib.

---

## İsveç NATO-ya üzv olacağına ümid edir

**Politico yazır ki, İsveçin xarici işlər naziri Tobias Billstrom bəyan edib ki, ölkəsi NATO-ya daxil olmaq üçün öhtəliklərini yerinə yetirib.**

İsveç xarici idarəsinin rəhbəri hğmçinin NATO-ya üzvlüyə qəbul olunacaqları tarixi də açıqlayıb. Stokolmda hesab edirlər ki, ölkələri NATO-nun 11 iyulda Vülnüsdə keçiriləcək Şimali Atlantika Alyansının sammitində bu birliyin üzvlüyünə qəbul ediləcəkdir.

İsveçin bu əminliyinin haradan qaynaqlandığı məlumdur. Vaşinqtonda oturanlar inanırdılar ki, İsveçin alyansa qəbul olunmasında əsas maniyə-Türkiyədə keçiriləcək prezident seçkilərində Ərdoğan hakimiyyətdən gedəcək və onların tələblərini danışıqsız yerinə yetirəcək yeni bir iqtidar hakimiyyətə gələcək.

Lakin okeanın o tayında oturanların bütün cəhdləri puça çıxdı. Türk xalqı ikinci cəhddən olsa liderinə ehtimad göstərdi və xalqın iradəsi ilə Rəcəb Tayib Ərdoğan daha beş il müddətinə Türkiyə Cumhiriyyətinin prezidenti seçildi.

Ərdoğanın İsveçin NATO-ya qəbul olunması üçün əvvəldən tələb etdiyi, bu ölkəyə sığınmış və mütamadi olaraq Türkiyəni təhdid edən terrorçuların Ankaraya təhvil verilmələri şərtləri yerinə yetirilməmiş qalmaqdadır. Ona görə də, hazırda İsveçin NATO-ya üzv olmaq arzularının yaxın zamanlarda baş tuta biləcəyi inandırıcı görünmür.

**Rüstəm Hacıyev**

---

## "Xeyli ölkə bizə qırıcı verməyə hazırdır"

**Xeyli sayda ölkə Ukraynaya qırıcı verməyə hazırdır. Bu barədə Moldovada səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski deyib.**

"Bu gün güclü dəstək eşitdim. Xeyli sayda dövlət, ən əsası xeyli qırıcı... ABŞ-ın rəhbərliyi altında biz birləşərək yaxın gələcəkdə bu koalisiyanı quracağıq", - deyə dövlət başçısı bildirib.



---

*İRADƏ TUNCAY*

# ANKARA SAVAŞI

**Ankarada dəfələrlə olmuşam, amma bu dəfə niyəsə məndən neçə əsr əvvəl buralara gəlmiş, buraları viran qoymuş Əmir Teymuru xatırladım... Yəqin siyasi durum öylə idi və hər dövrün öz Əmiri var... Və özünü xatırladır. Seçkilər də savaş kimi bir şeydi və müşahidə etdikcə çox da dəyişməyən bir tarixi izləyirsən...**

**Və mayın 29-da mən yenə yeni tarix izlədim...**

**1299 və 1922 - rəqəmlərə fikir verin, bir-birini təkrarlayır. Bu, Osmanlı imperiyasının quruluş və çöküş tarixinin rəqəmləridir. Rəqəmlərin mistik bağlantısını qoyaq bir tərəfə (amma yəqin burda da nəsə var), 623 illik dövrdə dövlətin başına 36 padşah keçdi. Bu hökmdarlar fərqli özəlliklərə sahib idilər. Çox qiymətli dövlət yönəticiləri, qüdrətli sərkərdələr də vardı, qadın, içki, ov düşkünü olanlar da. Ruhi xəstələr də, uşaqkən taxta çıxarılanlar da vardı. Bir həftə, bir ay, bəzən 46 il hakimlik eləyənlər də vardı. Yaxşı-pis, doğru-yanlış, bu, tarixdi. Qüdrətli bir dövləti bu gün asılı duruma gətirmiş tarix. Bəzən 500 il əvvəl verilmiş yanlış bir qərar bu gün topa dönüb məmləkətin tifaqını viran qoyur.**

**Ancaq hər kəs ağıllı olsaydı, hər kəsdən doğru-dürüst addımlar görsəydik, bu gün cahanda KAMALIN uğurlarını bayram edərdik, kemalın intriqalarını yox...**

**XIV əsrin başlanğıcında Səlcuq imperiyasının dağılması Anadoluda bir çox kiçik dövlətləri müstəqil hala gətirmişdi. İstəmədən, gözlənilmədən gələn müstəqillik (eynən müasir tarix) özüylə bəzi zorluqlar da gətirmişdi. 1299-cu ildə bağımsızlığını elan edən Oğuz boylarına mənsub Osman bəy döyüşkən, əzmkar və bölgədəki siyasi durumu düzgün qiymətləndirə bilən birisiydi. Və zaman göstərdi ki, Osmanlıların tarix səhnəsinə çıxışı təsadüf deyildi. Bu dövlət daha öncəki Türk-İslam dövlətlərinin mədəni-siyasi irsi üzərində qurulmuşdu.**

**Dövlətin birinci şəxsi "padşah" adlanırdı. İlk vaxtlar "bəy" və "qazi" ünvanlarından da istifadə olunub. "Xan", "xaqan", "hünkar" da deyilib.**

**"Sultan" ünvanından isə ilk dəfə I Murad istifadə edib. Yavuz Sultan Səlimin Misir səfərindən sonra isə bunların üstünə "xəlifə" adı da gəlib.**

**Bütün hakimiyyətin bir nəfərin əlində cəmləşməsi dövlətin yönətim şəklini də müəyyənləşdirmişdi. Dövlət tam bir mərkəziyyətçiliklə idarə olunurdu. Bütün bölgələr mərkəzdən yönətilir, icraedicilər mərkəzdən göndərilirdi. Ailə içindəki bütün oğlan uşaqları taxt üzərində eyni haqqa sahib idilər. Və bu səbəblə XVII əsrin başlanğıcına qədər kimin hakim olacağına dair müəyyən bir qayda yox idi. Məhz bu səbəb xanədan içində bir çox qanlı olaylara rəvac vermişdi. Kimin taxta çıxacağını dövlət adamları, üləmalar və əsgərlər tənzimləyirdilər. Burda heç şübhəsiz saray intriqaları önəmli, həlledici rol oynamaqda idi. Osmanlının qürub vaxtlarında isə kimin sultan olacağını hərəmxanada müəyyənləşdirirdilər. Qadın böyük qüvvədir və öz istədiyini yeritməyə qadirdir. Hər hansı bir kişi, hətta sultan olsa belə qadınına qulaq asır. Bunun əksini iddia edənlər gözünün içinə qədər yalan danışır.**

**Osman və Orxan qazilərdən (yəni sultan) sonra demək olar ki, bütün Osmanlı sultanlarının anası türk deyil. Deyək ki, o vaxtlar dövlətlərarası nigahlar dövrün normal mənzərəsi idi. Amma bunun acı nəticələri sonra özünü göstərməyə başlayacaqdı.**

**Xanədanın üçüncü hökmdarı "Xudavəndigar" ləqəbli I Sultan Murad (İldırım Bəyazidin atası) böyük müharibələrə başladı. Təşvişə düşən serblər, albanlar, xorvatlar sultana qarşı birləşdilər (indi yenə bir-birini qırırlar) və bu aralarda adı tez-tez hallanan məşhur Kosova ki var, sultan orda öldürüldü. Türk mənbələrində "şəhid edildi" yazırlar. Amma ruslar "millətsevər Miloş Obiliç qəhrəmanlıqla xain düşməni öldürdü" deyirlər. Ancaq dəxli yoxdur, həmin ərazilər Osmanlının torpaqlarına qatıldı. Atasının öldüyü gün taxta çıxan və savaşlarda qazandığı uğurlara görə "İldırım" ləqəbi ilə tanınan I Bəyazid səltənət, taxt davalarını önləmək üçün böyük qardaşı Yaqub bəyi öldürtdü. İldırım Bəyazid imperiyanın ərazisini bir xeyli genişləndirdi: Bolqarıstan, Bizansın böyük bir hissəsi, Anadolunun müstəqil bəylikləri, Ağqoyunlu dövləti ona tabe edildi. Ancaq Bəyazidin əsas planı Konstantinopolun fəthi idi. Sən saydığını say...**

**1402-1413-cü illəri Osmanlı tarixçiləri Fetret dövrü (dövlət avtoritarizminin qurulduğu zamana qədər keçən dövr) adlandırırlar. İldırım Bəyazid Ankara savaşına gedəndə özüylə beş oğlunu da aparmışdı. Süleyman, İsa, Mehmet, Musa və Mustafa Çələbilər ("çələbi" şahzadə mənasını verir). Məğlubiyyətdən sonra iki şahzadəni Teymur əsir aparmış, o birilər isə hərəsi bir şəhərdə öz padşahlığını elan etmişdi. Uzun sürən hakimiyyət davasında qardaşlar bir-birini öldürdülər və sonda tək qalan Mehmet Çələbi taxta çıxdı, itirilmiş torpaqları qaytarmağa çalışdı. I Mehmet adıyla hökmdarlıq edən sultana Osmanlı dövlətinin ikinci qurucusu da deyirlər. Sultan Ankara savaşının yaralarını sağaltmaq üçün bir ömür xərclədi və cəmi 42 il yaşadı. Bəzi mənbələrin yazdığına görə, yenə zəhər olayı vardı bu işdə. Onun yerinə keçən Sultan II Murad tarixdə elə bir iz qoymadı.**

**Tarix səhnəsinə II Mehmet çıxdı. Bəlkə də gələcəkdə olacaq hadisələr olmasaydı bu sultan da şeir, musiqi, memarlıq sevən, ədalətli bir padşah kimi anılacaqdı. Amma 49 il ömür sürən və iki dəfə taxta çıxan bu sultana tarix başqa ad verəcəkdi...**

**Orta Asiyada bir qüdrət baş qaldırmaqda idi və bütün xristian dünyası gözünü qırpmadan ərzin sahibi olan bu iki böyük türkün savaşını gözləyirdi. Gözlənilən oldu - 1402-ci ildə Ankara yaxınlığında iki böyük ordu üz-üzə gəldi. İldırım Bəyazid əsir alındı. Səkkiz ay Anadoluda qalan Əmir Teymur getdiyi hər yerə Bəyazidi də aparırmış. Bəzi qaynaqlara görə, son dərəcə qürurlu bir adam olan Bəyazid aşağılanmağa dözə bilməyib, üzüyünün içindəki zəhərlə intihar edib.**

**Amma dərddən də ölə bilərdi. Mühüm olan bu deyil, əsas nəticələrdi:**

**1. Balkanlarda torpaqlar itirildi. Arnavutluq (Albaniya) tərk edildi.**

**2. Çökməsi gözlənilən Bizans bu savaşdan sonra bir az da şans qazandı.**

**3. Anadolu-Türk birliyi pozuldu.**

**4. Əmir Teymurun geri çəkilməsindən sonra İldırım Bəyazidin oğulları arasında taxt-tac ixtilafları başladı.**

**Bu bizim babalarımızın tariximizdə qoyduğu izlər. Ankara savaşından sonra Avropa da, Rusiya da böyük sürətlə dirçəlməyə başladılar.**

---

## Mayk Pens prezident olmaq istəyir

**Sky News yazır ki, Donald Trampın prezidentliyi dövtündə vitse-prezident postunda əyləşən Mayk Pens, Respublikaçılar partiyasından ölkə prezidentliyi uğrunda yarışa qoşulmaq niyyətindədir.**

Gələn həftə-7 iyunda başlayacaq mübarizəyə qoşulmaq istəyən Pens, Ayova ştatında təbliğat rolikini nümayiş etdirib və çıxış edib. Eks vitse-prezident bununla da həmkarı Donald Trampın əsas rəqiblərindən biri olacağını nümayiş eydirib.

Respublikaçılar partiyasından yeni namizəd barədə xəbərlər çıxmamışdan bir gün əvvəl, Florida ştatının qubernatoru Ron Desantis da prezidentlik yarışına qoşulacağını bəyan edib. Ayova ştatında çıxışı zamanı Desantis keçmiş prezident barədə çox az danışıb. Bununla bağlı KİV nümayəndələrinin suallarını cavablandıran zaman isə Trampı coddi tənqid atəşinə tutub.

**Rüstəm Hacıyev**



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# MOLLU KƏNDİNDƏKİ ZİYARƏTGAH

## Dostumuz İlham müəllim həmin kənddən görüntüləri bizə göndərib

**Azərbaycanın bir-birindən gözəl və füsünkar təbiətləri çoxdur. Kəlbəcər işğaldan azad olunandan sonra yaxın dostumuz və qardaşımız, iş adamı olan İlham Əliyev biz oradan dağların döşündəki, yamaclardakı və düzlərdəki gül-çiçəkləri çəkib, görüntülər göndərmişdi. Onda da İlham müəllim demişdi ki, vallah, dünyanın heç bir yerində Kəlbəcərdə olan gözəlliyi görməmişəm. Bu dağların havası, suyu, Günəşi, gülü, çiçəyi və çəmənliyi sanki cənnətə bənzəyir. Cənnəti görmək üçün elə Kəlbəcərə gəlmək lazımdır, bu güllərin, çiçəklərin ətrini, qoxusunu ciyərlərə çəkmək gərəkdir!**

**Bütün bu gözəlliklərlə bağlı biz bir dəfə yazı da qələm aldıq və düşündük ki, qoy bu gözəlliyi hamı görsün. 15 gün bundan qabaq isə, yəni Türkiyədə may ayının 14-də Prezident seçkiləri keçirilərkən yenə İlham qardaşımız Zəngəzur mahalının Qubadlı qəzasının Mollu kəndindən çox unikal və qeyri-adi bir görüntüləri bizə göndərmişdi. Sözün açığı işimiz həddindən çox olduğu üçün ürəyimizdən keçən sözləri qələmə ala bilmədik. Amma bu günlərdə bir daha o görüntüyə baxıb bir anlıq Mollu kəndinə getdik, orada qeyri-adi bir ziyarətgahı ziyarət elədik.**

**Rəvayətlərdə deyilir ki, Mollu kəndindəki dağın döşündə mövcud olan və neçə əsrlərdən bəri orada insanların ibadət yerinə çevrilən üç daş parçası, daha doğrusu, qaya bir vaxtlar insan olub və onlar kafirlər tərəfindən, daha doğrusu, ermənilər tərəfindən təqib olunaraq qətlə yetirmək istəyiblər. Həmin üç adamsa canlarını düşməndən xilas etmək üçün Allaha dua ediblər və deyiblər ki, bizi xilas elə, düşmən əlinə keçməyək! Allah da onların səsini eşidib, hər üçünü daşa çevirib. Və o vaxtdan o yer Qubadlının Mollu kəndində müqəddəs ocaq kimi tanınıb və ziyarətgaha çevrilib.**

**Mayın 14-dəsə İlham müəllim və onun doğmaları olan bir neçə ağbirçək qadn həmin ziyarətgaha gedərək, Türk dünyasının ağsaqqalı və dünya siyasində oxşarı, bənzəri olmayan Rəcəb Tayyib Ərdoğana dua ediblər və Allahdan kömək istəyiblər ki, Ərdoğan qalib gəlsin! Onlar əvvəlcə bu müqəddəs ocaqda namaz qılıblar, sonra isə ürəklərindəki arzunu - yəni Ərdoğanın Prezident seçilməsi üçün bu ziyarətgahda Allaha dua ediblər.**

**Allah-Təala həmişə yaxşı duaları və xeyirxah insanlarla bağlı istək və arzuları həayta keçioib, gerçəkləşdirib. Deyirlər ki, hər ağızda bir dua var, Allaha bir yalvarış olur! Türkiyədəki seçkilər zamanı milyonlarla insan və eləcə də Azərbaycanda sayı-hesabı bilinməyən və Ərdoğanı sevən adamlar Allah dua edirdilər. Allaha dua edirdilər ki, Ərdoğan yenidən Prezident seçilsin, nəinki Türkiyəni, bütün Türk dünyasını və eləcə də dünyamızı müharibədən, qandan, ölümdən xilas eləsin!...**

**Təbii ki, dostumuz və qardaşımız, iş adamı İlham Əliyev Qubadlıda və eləcə də digər işğaldan azad olunmuş bölgələrdə gedən tikinti-quruculuq işlərində yaxından iştirak edir. Onun yaxınları ilə birlikdə Mollu kəndindəki ziyarətgaha getməsi və Türkiyənin Prezidenti Ərdoğanın yenidən prezident seçilməsinə dua etmələri özü də bir qeyri-adi və unikal hadisədir. Yəni, onlar Azərbaycan-Türkiyə qardaşlığına çox böyük önəm verib, ürəklərindən keçən aruzlarını Allah-Təalaya çatdırıb. Onların da, milyonlarla insanların dualarını Allahtəala eşitdi və qəbul etdi, Ərdoğan yenidən Türkiyə Prezidenti seçildi. Türk dünyası rahat nəfəs ala bilər!..**

## İTLƏR BLOKA GİRİR



**Bu gün Bakı şəhərində o qədər sahibsiz itlər var ki, kəndlər bunun yanında yalan olub. Elə Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin "D" massivindəki 13 nömrəli binanın qarşısındakı qarajın üstündə hər gün 20-30 it uzanıb yatır. Gündüz saatlarında bu itlər hürmür və səs çıxartmırlar, amma axşam olanda itlər quduzlaşır, hürür, adamlara hücum edir və hətta bloklara girirlər.**

Bir neçə gün bündan əvvəl itlərin 6-sı adanı çəkdiyimiz binanın ikinci blokuna girmişdi. Səhərə qədər hürdülər, hürdülər, axırda da qonşulardan biri əlinə ağac alıb, bitrəhətər itləri qovdu. Amma səhər yenə sürü ilə qarajın üstündə və həyətdə gəzməyə başladlar. Bu gün sahibsiz itlər çox adama hücum edir, onları tutur, yaralayır, hətta elə adamlar var ki, vaxtında peyvənd edilmədiklərinə görə və müalicə olunmadıqları üçün dünyalarını dəyişirlər.

Çox qəribədir, bizim ölkədə itlərni hüquqları müdafiə olunur, onlara güllə atmaq, vurmaq qadağan edilir, amma təhlukə qarşısında olan insanların həyatı haqqında düşünənlər yoxdur. Ona görə də bu gün Bakı şəhəri it sarıdan rayonları keçib və küçələrdə sahibsiz itlər kef eləyir və istədiyi adamı da tutur. Bax, bu nə vaxta qədər davam edəcək, onu deyə bilmərik?!

## HÖVSAN YOLUNDA AĞIR QƏZA



**Bir neçə gün bundan əvvəl axşam saatlarında Hövsan yolunda ağır yol- nəqliyyat hadisəsi baş verib. Belə ki, nənə, onun qızı və nəvə yolu keçərkən avtomobil tərəfindən vurularaq öldürülüb. Onu da deyirlər ki, həmin yol gecə saatlarında işıqlandırılmır və nəticədə sürücülər yaxşı görmürlər, hansı ki, o yolda hadisə baş verən yerdən 10 metr o tərəfə yerüstü keçid var. O keçiddən də heç kim istifadə etmir. Sakinlər deyirlər ki, keçidin lifti işləmir, üstəlik də orada işıq yanmır, narkomanlar yuva qurublar. Belə oluduğu halda piyadalar məcbur oulb nəqliyyat vasitələrini intensiv hərəkət etdiyi yoldan keçməyə çalışır, bəziləri keçir, bəzən də bax, piyadanın vurulması ilə nəticələnən hadisələr qaçılmaz olur.**

Hövsan yolunun kənarında işıq dirəkləri olsa da, cəmi bir-iki dəfə yandırılıb. Bunu da sakinlər deyirlər. Yol da gecə saatlarında yaxşı işıqlandırılmadığına görə, bax belə qəzalar baş verir. Aidiyyatı qurumlar isə lazımi tədəbirlər görmürlər, problemi bir-birinin üstünə atırlar. Nəticə isə bax belə acınacaqlı olur!..

**EMİL FAİQOĞLU**

# Qarabağda yeni əməliyyatlara yaşıl işıq

**Azərbaycan Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşündə Qarabağ ermənilərinə bəyanatla müraciət etdi:**

" Buradan - uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dıqnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq".

Uzun sözün qısası: Azərbaycan Prezidenti ermənilərə seçim qoyub: Ya Azərbaycan bayrağı altında yaşayacaqsınız, ya da çıxıb gedəcəksiniz!

Adalet.az xəbər verir ki, dövlət başçısının bu müraciəti ermənilər tərəfindən qəzəblə qarşılanıb.

Beləki, Qarabağ iqtisadi Rayonunda yaradılmış qondarma qurumun qondarma parlamentin media və ictimaiyyətlə əlaqələr



şöbəsi Azərbaycan prezidentinin mayın 28-də verdiyi bəyanata cavab verib: "Azərbaycan Prezidentinin mayın 28-də verdiyi bəyanatlar bir daha sArtsax xalqına və hakimiyyətlərinə açıq təhdidlərdən ibarət olub, beynəlxalq hüququn məlum normalarını və Azərbaycanın üzərinə götürdüyü beynəlxalq öhdəlikləri pozub. sArtsax xalqı öz müqəddəratını təyinetmə, suverenlik və dövlətçilik yolunu seçdi, onun sütunları Prezident və Milli Məclisdir. Buna görə də biz Artsax xalqının öz müqəddəratını təyinetmə hüququna, suverenliyinə və təhlükəsizliyinə, eləcə də regionun sülhünə və hərbi əməliyyatların bərpası təhdidlərinə qarşı bu cür hücumları qətiyyətlə pisləyirik".

Sonda qondarma qurumun qondarma parlamenti bildirib ki, sArtsax Respublikasının Milli Assambleyası xalq tərəfindən seçilmiş ali orqan kimi, Azərbaycan tərəfindən dəfələrlə təhdidlərə məruz qalmasından asılı olmayaraq, dövlət quruculuğu və azad yaşamaq hüquqlarımızın müdafiəsi kimi əsas missiyasını həyata keçirməyə davam edəcəkdir.

Dövlət başçısı sanki bu tör-töküntünün -Qarabağ separatçılarının belə cavab verəcəyini də uzaqgörənliklə təxmin etmişdi.

Həmin bəyanata bu sözləri də əlavə etmişdi: Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər", - deyə Əliyev bildirmişdi.

***P.S.* Prezident son olaraq "Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək".**

***Bildiniz də, bu nə deməkdir! Prezidentin bəyanatına, çağırışına burcutmaqla cavab verən separatçıları sizcə, nə gözləyir? Bəli düz təxmin etdiniz! Məşhur kəlamda deyildiyi kimi:Bir gecə ansızın gələ bilərik!***

**Əntiqə Rəşid**

# Mahrızlıda 50 ildir axan "başsız" bulaq: Bu bulağı necə faydalı etmək olar?

**Bakı şəhərindən 333 km məsafədə yerləşən Mahrızlı kəndi Ağdam rayonun 27 il işğalçı Ermənistan Silahlı Qüvvələri ilə təmas xəttindəki kəndlərindən biri olub. Sonuncu dəfə 2020-ci il noyabrın 8-də o kənddə oldum və ermənilərin atdığı mərmilərin dağıtdığı inzibati binalardan, yaşayış evlərindən, kəndin o vaxtkı durumundan geniş reportaj hazırlamışdım Yolum 2 il 7 aydan sonra yenə Mahrızlı kəndinə düşdü.**

Tanımayanlar üçün bildirim ki, Mahrızlı Zəngişalı kənd inzibati ərazi dairəsində ruzi - bərəkəti bol olan kənddir. Deyilənə görə, Mahrızlı sözu İran dillərində olan və Gün mənasını verən Mah, Moh və Ay mənasını Ruz sözlərindən, həmçinin türk dillərində olan lı,li, lu, lü şəkilçilərinin birləşməsindən yaranıb. Hərfi tərcümədə GünAylı və ya Günəşli Aylı mənasını verir. Digər bir versiyaya görə isə İranda olan Mafruz kəndindən gələn insanların ilk dəfə burda məskunlaşmasına görə belə adlanıb. Ancaq bir qədər araşdırsaq İranda bu adda kənd olmadığını görərik. Həmçinin kəndin ən qədim sakinləri Məmişli soyu sayılır və onların Gürcustanın Məmişli kəndindən gəldiyi ehtimal olunur. Kənd haqqında ilk tarixi məlumatlar 1830-cu ilə aiddir.

Tarixi mənbələrə görə, 1886-cı ildə hazrılanmış və 1893-cu ildə Tiflisdə çap edilmiş "Zaqafqaziya bölgəsinin Əhalisinin sayı haqqında, ailələrin siyahıya alınması" kitabında kənd haqqında məlumat var.

Mahrızlı camaatı qorxmaz, cəsur eyni zamanda zəhmətkeş camaatdı. 27 il dişinə qədər silahlanmış erməni terrorçuları ilə 500 - 1000 metr məsafədə ailəlikcə yaşamaq əlbəttəki əsl qəhrəmanlıqdır. Təmas xəttində baş verən bütün qarşıdurmalarda Mahrızlı kəndi dağıntılara məruz qalıb. Təkcə 2016- il aprel ayında baş verən qarşıdurmalarda düşmənin artilleriya atəşləri nəticəsində kəndin ərazisinə təxminən 100-ə yaxın mərmi düşüb. Kənddə 29 evə ziyan dəyib, 3 ev tamamilə dağılıb. Ayın 1-5-də isə 57 evə ziyan dəyib.

Mahrızlıdan danışıb Rahib Məmmədovun adını çəkməmək günahdır. Yəqin ki, tanıyırsınız: Rahib Məmmədov 20 yaşında ikən, 1987-ci ildə hərbi xidmət keçdiyi Gürcüstanın Xobi rayonunun Çaladidi kəndində böyük fədakarlıq və qəhrəmanlıq göstərərək, təbii fəlakət zamanı 28 gürcünü seldən xilas edib və qəhrəmanlıqla həlak olub. Kənddə qəhrəmanımız Rahib Məmmədovun adı 300 yerlik tam orta



Azərbaycanın ərazi bütövlüyü və azadlığı uğrunda şəhid olan oğulların xatirəsi həmişə qəlbimizdə yaşayacaq.

Bu kəndin oğulları da Vətən yolunda canından keçib.Bəli, milli kimliyimiz, mentalitetimiz, ləyaqətimiz məhz xalqın belə qiymətli oğullarının çiyinlərində yüksəlir.





məktəbə verilib. Vətən müharibəsi zamanı bombardman edilib dağıdılmışdı, təmir edilib. "Rahib Məmmədov adına Döyüş Şöhrəti" müzeyi də igid həmyerlimizə ehtiramın bir nümunəsidir. I Qarabağ müharibəsində də, Vətən müharibəsində də

Bayaq qeyd etdiyim kimi, camaat çox zəhmətkeşdir. Qarqarçaydan 11 km məsafədə yerləşməsi ərazidə su bolluğu deməkdir. Kənddə su bolluğu məhsulun bol olması deməkdir. Odur ki, taxıl , pambıq, tərəvəz, bostan bitkiləri sahələrinin, meyvə bağlarının ucu-bucağı görünmür.

Kəndlə tanışlığınız bura qədər. Bu gün Mahrızlı kəndində başqa bir mövzudan bəhs edəcəyik. Beləki, kənd sakini Qədir Qədirov bizimlə söhbət əsnasında bildirdi ki, Kəndin alt hissəsində, taxıl sahələrindən aşağıda bir bulaq var, gecə -gündüz özbaşına axır. Su o qədər yumşaq və yüngül sudur ki, kəndə qonaq gələnlər onun suyundan içməsə , hətta iri bir su qabı ilə oradan su aparamasa olmaz. kənd əhli iddia edir ki, canında ağrı -acı olan, bulağın suyundan 10 gün ardıcıl içərsə sağalır.

Qədirov bildirdi ki, bəzən işıqlar sönəndə , kənddə heç bir artezian işləməyəndə camaat suyu gəlib burdan aparır.

Müsahibimdən bu bulağın tarixi haqqında da soruşdum. Dedi ki, hələ 1965 -70 -ci illərdə neft axtaranlar bu ərazilərdə də qazma işləri aparıb, dərinlikdə neft olacağını düşünüb. Həmin qazıntı yerindən bu bulaq qaynayıb, çıxıb. Bulaq həmin neftçilərdən yadigardır.

Həmsöhbətim arzusunu da dilə gətirdi. Ded ki, kaş bu suyun tərkibi öyrəniləydi, doğrudan da faydalı, müalicəvi sudursa, burada bir sanatoriya üslubunda, kiçik bir tibb məntəqəsi də tikəydilər. Bu gözəllikdə nemət də havayı axıb getməyədi. Amma bulağın istifadəsinin ən mümkün variantını isə onu kəndin içərisinə qədər gətirdib, orada şəhid adına tikilmiş bir bulağa calamaq olduğunu da Qədirov bir arzusu kimi qeyd etdi.

***P.S.* UNUTMAYAQ: BIR DAMLA SU BIR HƏYATI XILAS EDIR...**

**Əntiqə Rəşid**

## «Mən baxan tərəfdən dünyanın görünən tərəfini nəzərə alanda Ərdoğanın seçilməsi...»

**"Təbii ki, mən də bütün normal azərbaycanlılar kimi prosesləri həyəcanla izləyirdim.**

Çünki hər şey gözləmək olardı. Yəni birinci turdan sonra Ərdoğana qarşı Avropanın və Amerikanın münasibətləri göz qabağındaydı. Ona görə bir balaca içimdə nigaranlıq var idi"

Bunu Adalet.az-a açıqlamasında yazıçı Seyran Səxavət deyib. Seyran Səxavət hörmətli Rəcəb Tayyib Ərdoğanın növbəti dəfə prezident seçilməsi münasibətilə dostları təbrik edib:



"Amma şükürlər olsun ki, böyük türk xalqı bu dəfə də öz seçimini düzgün elədi və bu bütün azərbaycanlıları sevindirdi. Mən baxan tərəfdən dünyanın bu günki görünən vəziyyətini nəzərə alanda Ərdoğanın növbəti dəfə prezident seçilməsi çox vacib idi. Çünki qarşıda Cənubi Azərbaycan məsələsi, bizim həll olunmamış bəzi problemlərimiz var.

Türkiyə də özləri demişkən həmişə can Azərbaycanın yanındadır. Rəcəb Tayyib Ərdoğan da ki, mənim aləmimdə ər oğlu ərdi, nə oğlu nərdi. Allah onu qorusun və Allah bu seçimi də əvvəlki seçki kimi xeyirli, uğurlu eləsin. Biz də baxaq sevinək. Artıq Türkiyə dünyada necə lazımdırsa söz sahibidir.

Bu mənada onun ətrafında birləşən türk dövlətləri də artıq söz sahibi olan bir məkana çevrilir.

Bu da son dərəcə sevindiricidir. Dədə-baba diliylə desək, Ərdoğanın seçilməsi mənə ləzzət elədi. Onu öpürəm, bağrıma basıram, bütün Azərbaycan xalqı, söz adamları, qohum-əqrabamın adından təbrik edirəm, bağrıma basıram və mən həmçinin səni də, təmsil etdiyin redaksiyanı da, sizin simanızda bütün vicdanlı adamların hamısını tərbik edirəm".

**Vasif Əlihüseyn**

## Nurəddin Mehdixanlı: «Uşaqları qorumaq milləti, vətəni, gələcəyi...»



**"Uşaqlar millətin gələcəyidir. Biz onları necə yetişdirəcəyiksə, necə tərbiyələndirəcəyiksə, onlara necə bir həyat verəcəyiksə, gələcəkdə də bu ölkə onlarla idarə olunacaq, yaşanacaq, sahiblənəcək. Ona görə əgər bir millət var olmağını, mədəniyyətinin yaşamağını istəyirsə, onun gələcəyini təmin edən ancaq o uşaqlardır"**

Bunu Adalet.az-a açıqlamasında Xalq artisti Nürəddin Mehdixanlı deyib. Xalq artisti bütün uşaqların bayramını təbrik edib: "Biz millət olaraq uşaqlarımıza böyük dəyər verimişik. Onlar bizim həmişə baş tacımız olub. Bəlkə elə yeganə millətik ki, övladlarımız doğulan gündən özümüz onlardan fiziki ayrılana, yəni dünyamızı dəyişənə qədər onların yanında oluruq, problemləriylə, qayğılarıyla maraqlanırıq. Ona görə də mənə belə gəlir övladlarımızın atacanlı, anacanlı, vətəncanlı olması üçün keçmişin elə gözəl nəsnələri var ki, onları unutmamalıyıq. Onlar bizim daimi istinad nöqtəmiz olmalıdır. Yəni uşaq evin sərvətidir, işığıdır, var-dövlətidir, xoşbəxtliyidir. Bizdə gözəl bir söz var deyirlər ki, "ocağın yansın". Ocağı yandıran kim olur, yəni davamlı olaraq o nəsil dəyişir, o ocaq yanır. Gözəl bir sözdür. Arzu edərdim ki, hər bir azərbaycanlının ocağı yansın, hər bir ailədə uşaq səsi gəlsin, hər bir uşaq böyüyüb ata, ana olmaq xoşbəxtliyini yaşasın. Uşaqları qorumaq milləti, vətəni, gələcəyi qorumaq deməkdir. Mən arzu edərdim ki, Allah bizə o imkanları versin ki, daima övladlarımızın, nəvələrimizin, nəticələrimizin yanında olmağı bacaraq. Əslində bizi yaşadan elə uşaqlarımızın xoşbəxtliyi, uğuru, təbəssümüdür. Ən çətin problemlərin içində olmuş olsaq belə övladımız üzümüzə güləndə, nəvəmizin gülən üzünü, baba deyib boynuna sarıldığını görəndə dünyanın bütün problemlərini həll olunmuş hesab edirsən. Mən Azərbaycan uşaqlarına daha işıqlı, gözəl, imkanlı bir Azərbaycan arzulayıram. O Azərbaycanda uşaqlarımızı görmək isə bizlərin əlindədir. Yəni bunu bizim üçün ediblər, biz də övladlarımıza etməliyik. Allah millətimizi, övladlarımızı, bayrağımızı, dövlətimizi qorusun".

**Vasif Əlihüseyn**

AQİL ABBAS

# ÇANAQ "ŞAMAXI"nın BAŞINDA ÇATLADI

*Təkcə Şamaxının Azərbaycan xalqına verdiyi dahilərin, görkəmli şəxsiyyətlərin sayına görə Avropanın bir çox xalqları həsəd apara bilər. Elə bir tək Nəsimi və ya Sabir bəsdi. Şamaxı həm də vaxtilə Azərbaycanın paytaxtı olub. Söhbət başqa bir şeydən gedir, daha doğrusu, futboldan.*

*Bu mövsüm ad sarıdan bəxti gətirməyən gah "Xəzər universiteti", gah "İnter", gah da "Keşlə" adlanan futbol klubu Şamaxıya köçürüldü və komandanın adı dördüncü dəfə dəyişdi.*



*Bir futbol həvəskarı kimi mən də sevindim ki, çempionatımızda region klublarının sayı artdı. Təəssüf ki, sevincimiz gözümüzdə qaldı, bu il "Şamaxı" çempionatda sonuncu yeri tutdu və Yüksək Liqanı tərk elədi. Düzdür, Şamaxıda əvvəllər də futbol olmayıb. Yuxarıda qeyd etdiyim kimi, bu torpaq mütəfəkkirlər yetişdirir, şairlər yetişdirir.*

*Şamaxılıların hər oyunda stadionu doldurmalarına Bakı klubları həsəd apara bilərdi.*

*20 ildi, bəlkə də daha çox heç bir kluba tətbiq olunmayan qanun niyə "Şamaxı"ya tətbiq olundu?! Bu kluba bir-iki il möhlət vermək olmazdımı? Özü də bilə-bilə ki komanda yalnız yerli futbolçulardan təşkil olunub. Həm də Azərbaycan çempionatına bir rəng qatırdı "Şamaxı". İndi o rənglərdən biri soldu. Çox təəssüf.*

*Amma hələ gec deyil. İdman qanununun böyründən keçib "Şamaxı"nı Yüksək Liqada saxlamaq olar.*

*Əzizimiz AFFA-nın İcraiyyə Komitəsi, şamaxılıların sevincini əlindən almayın.*

Əzizə İsmayılova

# Mənzillərin sığortası



## İndi məlum olur ki, boş söhbətdir

***Deməli, evlərin, mənzillərin icbari (yəni məcburi) sığortası ilə bağlı, "ödəməsəniz hər 20 gündən bir 30 AZN cərimə olunacaqsınız" deyə bir aydır milləti girinc ediblər. Bəzi sığorta agentləri də fürsət bu fürsətdir deyibən qapılara XƏBƏRDARLIQ filan yapışdırıblar amma cərimə mexanizmi ilə bağlı bir kəlmə izah verən olmayıb.***

***Məsələ gündəmə gələndən müşahidə edirəm. Hələ qarşıma bircə sığorta şirkəti çıxmadı ki, bu məsələ ilə bağlı hər hansı münasibət sərgiləsin. Eynən 2019-cu ildəki kimi sığorta şirkətləri susdu, dövriyyəyə sığorta agentləri girdi.***

***Bugünə kimi gözləyirdim ki, görək guya "sabahdan (iyunun 1-dən) qüvvəyə minəcək" dedikləri qanunda, millətə 30 manat cərimə mexanizmini necə izah edəcəklər.***

***İndi məlum olur ki, boş söhbətdir. Nə bu qanunun iyunun 1-i ilə bir əlaqəsi var, nə də qapılara yapışdırılan xəbərdarlıqların hansısa bir rəsmi əsası. Yoxdur heç biri***

***Deputat Vüqar Bayramov yazır ki, "daşınmaz əmlakın 80%-ə yaxını hələ də sığortasızdır.***

***Nəticədə icbari sığortadan istifadə edilmədiyi üçün əmlaka fərqli səbəblərdən ziyan dəyən zaman ödənişlər həyata keçirilmir. Halbuki, icbari sığortadan istifadə əmlaka dəymiş ziyanın şirkət tərəfindən qarşılanmasına gətirib çıxara bilər. Yəni, sığorta mexanizminin təkmilləşdirilməsinə də ehtiyac var."***

***Deməli, hələki məcburi olan heç nə yoxdur.***

***Bəzi sığorta agentləri də camaatın gözünü qorxutmaq üçün evlərin icbari sığortasını avtomobillərin icbari sığortası ilə müqayisə edib.***

***Sığortadan anlayışı olmayan fağır camaat da bilmir ki, avtomobillərdə icbari sığorta qarşı tərəfə dəyən ziyanı qarşılamaq üçündür. Öz avtomobilinə dəyən ziyanı sığortalamaq üçün isə vətəndaş könüllü sığortanı, yəni kaskonu seçməlidir.***

***Maraqlıdır, necə olur ki, avtomobillərdə icbari sığorta qarşı tərəfə dəyən ziyanı qarşıladığı halda evlərdə icbari sığorta niyə tətbiq olunmalıdır?***

***2-ci bir sual: Deyək ki, vətəndaş heç cərimənı də ödəmədi. Şəxsi mülkü olan evinə, mənzilinə buraxılmayacaq ya ordan çıxarılacaq? Mexanizm necədir?***

***Yəni görünən odur ki, gözəl insanlar, bu dəfə də 2019-dakı kimi oyuna gəldik. Bu isə sığortaya olan inamın itməsindən başqa heç nəyə xidmət etmir. Bu gün qazanılar 3-5 manatla bütün inamı itirməyə dəyməzdi, məncə.***

***P.S. Özüm sığorta tərəfdarıyam. Evim olmuş olsaydı, mütləq ki, sığorta etdirərdim, fərqi yoxdur icbari ya könüllü. Avtomobilimin hər iki sığortası həmişə var və olacaq.***

***Sadəcə insanları maarifləndirmək, inandırmaq, seçimi cərimə qorxusu ilə yox, şüurla etmələrinə dəstək olmaq əvəzinə, onların bilgisizliyindən yararlanmağı həzm edə bilmirəm. Çox təəssüf edirəm.***

## Pentaqon Ukraynaya 38 milyard dollarlıq hərbi yardım edib



**Pentaqon bəyan edib ki, ABŞ müharibə başlayandan bəri Ukraynaya 37.6 milyard dollar məbləğində hərbi yardım göstərib.**

Bildirilir ki, Baydenin hakimiyyəti dövründə ümumilikdə Ukraynaya hərbi kömək məqsədilə 38.3 milyard dollar məbləğində vəsait xərclənib. Sonuncu yardım paketinin məbləği 300 milyon dollar olub.

ABŞ prezidenti Co Bayden düşünür ki, "ABŞ əvvəl-axır Ukraynaya ATACMS ailəsinə daxil olan, operativ taktiki ballistik raketlər göndərmək məcburiyyətində qalacaq. Xatırladıtıq ki, Vaşinqton daha əvvəl Ukraynanın bu raketlərdən Rusiyanın ərazilərini vura biləcəklərindən çəkinərək, taktiki raketlərin Kiyevə verilməsindən imtina etmişdi.

Ukraynanın Almaniyadakı səfiri Aleksey Makeyev isə ümid edir ki, Kiyevə tezliklə Eurofiger qırıcı təyyarələri veriləcək.

**Rüstəm Hacıyev**

# SƏMADA PARLAYAN QOŞA İŞIQ

**2014-cü ilin son və 2015-ci ilin ilk günləri mənim üçün çox əlamətdar oldu. Həmin günlərdə unudulmaz müəllimimiz, Azərbyacan jurnalistlərinin mənəvi atası olan tədqiqatçı-alim, ensklopedik bilik sahibi, su kimi şəffaf, milli qeyrətli, ideal əxlaqlı, öz şəxsiyyəti ilə çoxlarına örnək olan professor Şirməmməd Hüseynovun 90 illik yubileyi münasibətilə Bakıya gəlmişdim.İlk görüş Beynəlxaql Mətbuat Mərkəzində oldu. Ora yaxın dostlarım,tələbə yoldaşlarım, gözəl insanlar, dəyərli ziyalılar Səxavət Mustafayev,pofessor Ramiz Əsgər və tələbəlik illərində hamımıza xüsusi diqqət, qayğı göstərən Əjdər Kazımovla birgə getdim. Şirməmməd müəllimlə görüşə ölkəmizin say-seçmə ziyalıları gəlmişdi. Onların arasında yenə tələbə yoldaşlarım millət vəkili "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovu, Millət vəkili, yazıçı-publisist Aqil Abbası, professor Qulu Məhərrəmlini, Yusif Hüseynovu və başqalarını gördüm. Tədbiri Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov aparırdı. Onu da qeyd edim ki, mən Şirməmməd müəllimi uşaq yaşlarımdan tanıyıram. Həm bir Şəkili kimi və qohumluq münasibətimiz olduğuna görə bütövlükdə bizim ailədə Şirməmməd müəllimə həmişə məxsusi hörmət və ehtiram olub. Şirməmməd müəllim konkret faktlarla danışmağı xoşladığı üçün mən də bu toplantıda çıxış edib başıma gələn bir əhvalatı danışmaq və onun təmiz, obyektiv, böyük insan olduğunu söyləmək istəyirdim. Amma bir-iki nəfər çıxış edəndən sonra tərif eşitməyi ömrü boyu xoşlamayan Şirməmməd müəllim Əflatun Amaşova dedi ki, gəl bu insanların vaxtını çox almayaq, mənə 3-5 dəqiqəlik söz ver. Yəqin ki, bura mənim görüşümə gələnlər daha çox məni dinləmək istəyirlər. Bu sözdən sonra mən çıxış etmək fikrindən daşındım. Həm də ona görə ki, bilirəm Onun ümumiyyətlə adamı üzünə tərifləməkdən xoşu gəlmir. Həmişə deyir belə şeylər, yaltaqlıq, məttahlıq əlamətidir. Bunu qəbul edənlər də elə onu deyənlərin tayıdır. Amma orda deyəcəyimi indi yazmaq istədim:**

1972-ci ilin sentyabr ayının 1-ci bazar günü idi. Axşama yaxın mən və Tibb Universitetinin tələbəsi olan qardaşım, sonralar Azərbaycanda tanınmış neyrocərrah olan Aydın Nağıyevlə birgə Şirməmməd müəllimin evinə getmişdik. Onun maraqlı söbətləri başımızı elə qatmışdı ki, 4-5 saatın necə keçdiyini bilmədik. Şirməmməd müəllimin həyat yoldaşı Ülkər xanım yaxşı bir süfrə açdı, bizi doyunca yedirtdi, meyvə şirələri, şirniyat stolu hər şey yüksək səviyyədə idi. Getməyə hazırlaşanda Şirməmməd müəllim dedi :

**- Oğul-bala 5 dəqiqə mənə qulaq asın sizə sözüm var. Biz yenidən əvvəlki yerlərimizdə oturduq. Şirməmməd müəllim Ülkər xanımı da çağırdı və bir qədər də ciddi tərzdə sözə başladı.**

Həə bala hər ikiniz ali məktəbə daxil olmusunuz. Tələbəlik illəri ağır olur. Ola bilər ki, pulunuz qurtarar, yeməyiniz olmaz. Heçnədən çəkinmədən mənim evimə gələrsiniz. Ülkər xanım, Allah verəndən, evimizdə olandan verər, ac qalmazsınız. Pul lazım olsa ondan alarsınız. Birdə ki, mənim zəngin kitabxanam var. Hansı kitab lazım olsa verərəm oxuyarsınız. ( onu da qeyd edim ki, tələbəlik illərində mühazirələrdə qeyd edilən kitabları tapıb oxumaq ən böyük problem idi). Şirməmməd müəllim bir qədər də ciddiləşib dedi:

**- Amma dərsinizi oxumayıb, imtahandan, zaçotdan kəsilib mənim yanıma gəlmiyərsiniz. Mən heç kimdən belə şeyləri xahiş edən deyiləm. Indiyə qədər etməmişəm və bundan sonra da etmərəm. Hansı dərsdən çətinliyiniz olsa, başa düşmədiyiniz nəsə olsa, həmin proqram dairəsində səninlə fərdi məşğul olaram deyib, düz mənim üzümə baxdı. Amma oxumasan sənə qiymət yazmağı heç kimdən xahiş edə bilmərəm.**

Biz salamatlaşıb evdən çıxdıq. Yol boyu heç birimiz danışmadıq. O vaxt bu sözlər mənə çox ağır təsir etmişdi. Mən sonuncu imtahanı verib universitetə qəbul olan gün atam rəhmətə getmişdi. Mənə elə gəlirdi ki, atam sağ olsaydı Şirməmməd müəllim bu sözləri mənə deməzdi. Amma illər ötdükcə məndən də çox yaxın və dəfələrələ imkanlı, atalı - analı qohumlarımızdan bir neçəsinin oxuya bilmədiyi üçün universitetdən xaric edilməsinin şahidi oldum. Onda başa düşdüm ki, mən Şirməmməd müəllim barədə düz fikirdə olmamışam. O,çoxlarından fərqli olaraq həyatda da yüksək tiribunalarda danışdığı kimidir. O, təmənnasız ideal bir insandır. Mən orta məktəbi bitirib universitetə sənədlərimi verəndə ailəmizdə də , dostlarım da mənə deyirdilər ki, hüquq fakultəsinə get. Mən isə ərizə yazanda jurnalistika ixtisasını göstərdim. Ona görə ki, Şirməmməd müəllimi özümə ideal seçmişdim. Bütün ömrüm boyu da onunla fəxr etmişəm.

Toplantıda millət vəkilləri Aqil Abbasın, Bəxtiyar Sadıqovun, Cavanşir Feyziyevin, professor Cahangir Məmmədlinin və Ülkər xanım Hüseynovanın çıxışları xüsusi alqışlarla qarşılandı. Yubiley tədbirində jurnalist Yusif Hüseynovun redaktorluğu ilə çap edilən, Şirməmməd müəllimə həsr edilmiş və onun haqqında yazılan məqalələr toplanmış "İstiqlalın işığında" adlı kitab qonaqlara paylandı. Yeni ilin ilk günlərində də Bakı Dövlət, Xəzər,Təfəkkür və bir neçə başqa universitetlərdə Şirməmməd müəlimlə görüşlər davam edirdi. Həmin tədbirlərin birində Naxçıvanlı tələbə yoldaşım Hüseyn Əsgərovla qarşılaşdım. 35 ildən çox idi Hüseyni görmürdüm. Amma mətbuatda onun satirik-yumorostik yazılarını tez-tez oxuyur və onun yazılarını hər dəfə oxuyandan sonra telefon əlaqəsi saxlayırdıq. Hüseynin saçları da, qaşları da ağarmışdı lap şaxda babaya oxşayırdı, amma yenə həminki gülərüz, mehriban siması yerində idi. Ertəsi gün görüşmək üçün telefon əlaqəsi saxladıq. Mən soruşdum ki, Hüseyn hardasan?

**- Dedi:**

**- Binəqədi rayonunda yeni istifadəyə verilmiş Heydər Əliyev məscidinin yaxınlığında.**

**- 2014-cü ilin son günlərində açılışı olan həmin məscidin dörd tərəfində ucaldılan minarələrin boyundan dəfələrlə yüksələrə zillənən işıqlar üfüqdə çox uzaqlardan görünür və Bakının rəngarənc işıqları fonunda uca dağlarda görməyə adət etdiyimiz göy qurşağına bənzəyirdi. Bakıda qaldığım bir neçə gündə axşamlar bu işıqları həvəslə və heyranlıqla seyr edirdim ona görə də məscidi ziyarət etmək arzusu ilə Hüseynə dedim sən get məscidin yaxlnlığına, mən də gəlirəm ora. Uzun illərdən sonra tələbə yoldaşım Hüseynlə görüşüb, əhatəli söhbət etmək arzusu ilə yollandım məscid tərəfə.**

Tələbəlik illərində indi şair, professor kimi tanınan Adil Cəmil, Ucarlı mərhum Ələkbər Hüseynov, Naxçıvanlı Hüseyn Əsgərov və mən bir otaqda qalırdıq. Dünyada Azərbaycanlıların nə qədər olması, itirilmiş torpaqlar, Azərbaycan hökmdarlarının tarixi səhvləri, milli mentalitet, tarixi abidələrin qorunmasının vacibliyi, özümüzü dərk etmək, millətimizi dünyaya tanıtmaq və başqa mövzularda həmişə otaq yoldaşlarımla maraqlı söhbətlərimiz olardı. Belə söhbətlərlə məndə vətənpərvərlik hisslərinin formalaşmasında Hüseyn daha böyük rol oynamışdı. Bizim bu mövzularda çox uzun və həmişə maraqlı dialoqlarımız olurdu. Hər bir Azərbaycanlıya Şimaı -Cənub həsrətini andıran Şəhriyarın "Heydər babaya salam" şerini ilk dəfə Hüseyndən eşitmişdim. Mən də Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasını ona və bütün tələbə yoldaşlarıma paylamışdım.

Biz həmin məscidin qarşısında görüşdük. Çox maraqlı söhbətimiz oldu. Hüseyn, Ulu Öndərin, Moskvadan qayıdandan sonra Naxçıvanda onunla görüşlərindən danışdı. Dedi ki, o vaxt mən Naxçıvan televiziyasında ictimai-siyasi verilişlərin və xəbərlərin aparıcı jurnalisti idim. Heydər Əliyevlə demək olar ki, hər gün görüşürdük. Biz çox səmimi söhbətlər edirdik. Hər görüşdən sonra məndə Ulu Öndərə inam və sevgi artırdı. O ictimaiyətlə tez - tez görüşür, şəhərdə,bazarda sərbəst gəzirdi. Mən də fürsətdən istifadə edib sadə insanlarla onun görüşlərini, toplantılardakı çıxışlarını televiziya vasitəsilə daha geniş aydityoriyaya çatdırırdım. Səmimi görüşlərin birində Ulu Öndərə dedim ki, 1975-ci ildən mənim və bir çox tələbə yoldaşlarımın sizə təşəkür etmək borcumuz var. İcazə verin gec olsa da yoldaşlarımın adından və özümün sizə çox böyük təşəkkürlərimizi çatdırım.

**- Soruşdu ki, nəyə görə?**

**- Mən həmin il Novruz bayramında başımıza gələnləri Ulu Öndərə danışdım. Heydər Əliyev adəti üzrə məni çox diqqətlə və axıra qədər dinlədi. Və sonra Şirməmməd müəllimin bizə dediklərini təsdiq etdi. Bu fikirin təsdiqi bizdə Azərbaycanın uğurlu və xoşbəxt gələcəyinə inamı daha da artırmışdı və biz bundan sonra Ulu öndərin tövsiyyəsi ilə belə tədbirlərə qoşulmayıb, dərslərimizə diqqəti artırdıq.**

**- Deməli indi həmin hadisə haqqında oxuculara inamla məlumat verməl olar.**

- 1973-cü ilin yazında Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakultəsində təhsil alan əsasən bizim kursun tələbələri Novruz bayramını qeyd etmək fikrinə düşdük. Müəllimlərimizdən yazıçı - professorlar Qulu Xəlilovu, Mir Cəlal Paşayevi, Əzizə xanım Cəfərzadəni və fəlsəfə müəllimimiz Qəmbər Əsgərovu da bu tədbirə dəvət etdik. Görüş yerimiz Fəxri Xiyaban oldu. Dəvət etdiyimiz qonaqların hamısı tədbirdə iştirak etdi. Əlimizdə gül - çiçək dəstələri var idi. Yataqxanada qızlar səməni yetişdirib gərtirmişdilər. Fəxri Xiyabanda Şıxəli Qurbanovun, Həsən Bəy Zərdabinin, Cəlil Məmmədquluzadənin,Üzeyir



bəy Hacıbəyovun və başqa milli dəyərləri yüksək tutan şəxsiyyətlərin məzarlarını ziyarət etdik. Hər məzar başında 10-15 dəqiqəlik çıxışlar oldu. Müəllimlərimiz də burada çıxışlar etdilər. Tədbir başa çatdıqdan sonra heç bir insident baş vermədi.1974-cü ilin Novruz bayramı da maraqlı oldu. Amma bu əvvəlki ildəkindən daha geniş və əhatəli idi. 1975-ci ildə hazırlıq işlərinə daha erkən başlamışdıq. Son anda bunun xəbəri yuxarılara gedib çatmışdı. Universitetin rektoru Faiq Bağırzadə özü qızlar yataqxanasına gedib otaqları bir-bir gəzib nə qədər səməni var idisə hamısını pəncərədən çölə atdırmışdı. O gedəndən sonra axşam qaranlıq düşəndə biz həyətə atılmış səmənləri yığıb təmir - bərpa işləri aparıb sabaha hazırladıq. Sabahı gün müəyyən edilmiş görüş yerlərini və vaxtı dəyişdik. Bir neçə dəstələrlə yenə fəxri xiyabanda görüşdük. Bu dəfə tələbə və müəllimlərin sayı ötən ildəkindən 10-15 dəfə çox idi. Təxminən 350-400 nəfər olardı. Həm də bu dəfə jurnalistika fakultəsinin tələbələrindən başqa filologiya, tarix fakultələrindən və başqa ali məktəblərdən də gələn qonaqlar var idi. Tədbirdə Naxçıvanlı Hüseyn Əsgərov və bizdən aşağı kursda oxuyan bir qız ( adını unutmuşam) aparıcılıq edirdi. Müəllimlərimizdən ötən illərdə iştirak edənlərdən bir neçəsi gəlməmişdi. Sonralar bizə məlum oldu ki, müəllimlərimizi öz evlərində saxlayıblar, onlara küçəyə çıxmağa icazə verməyiblər. Ətrafımızda mülki geyimli tanımadığımız adamlar gəzişirdi. Biz yenə Şixəli Qurbanovun məzarından başladıq. Ziyarət etdiyimiz məzarların və çıxış edənlərin sayı artmışdı. Bizə fəlsəfədən dərs deyən Qənbər Əsgərovun, tələbə yoldaşlarımızdan mərhum Qəzənfər Rüstəmovun, Ağamalı Sadiq Əfəndinin Üzeyir bəy Hacıbəyovun məzarı yanında saz çalıb türk ləhcəsində oxuması, Mehman Cavadoğlunun, Aqil Abbasın, Adil Cəmilin, Şəmsəddin Şəbiyevin, Adil İrşadoğlunun, Şərif Kərimovun, Yaşar Vəliyevin, Flora Xəlilzadənin, Ramiz Əsgərin, Amalya Məhərrəmovanın və başqalarının milli ruhlu, məntiqli, məzmunlu çıxışları uzun müddət yaddaşlarda qaldı.Sovet hakimiyyəti devrildikdən sonra, müstəqillik illərində Azərbaycanın bir çox mətbuat orqanlarında o cümlədən tələbə yoldaşımız Ağamalı Sadiq Əfəndinin redaktoru olduğu "Müxalifət" qəzetində1996-cı ildə bu mövzuda yazılar dərc edilib.

Fəxri Xiyabanda Novruz bayramı adı ilə keçirilən tədbirdən sonra təkcə bizim fakultədən 40 nəfərə qədər tələbəni ayrı - ayrı yerlərdə saxlayıb Dövlət Təhlükəsizliyi Komitəsinin qarşısındakı Djerzhiniski adına kuluba gətirmişdilər. Burada da hərəni bir otaqda saxlayıb sorğu - sual etmişdilər. Iş elə təşkil edilmişdi ki, tələbələrin biri - birindən xəbəri yox idi. Bizə müxtəlif suallar verilir və izahatlar yazdırırdılar. Təxminən gecə saat 1-dən sonra birdən - birə vəziyyət dəyişdi. Tələblərin hamısının alınmış sənədlərini geri qaytardılar və əvvəlkindən fərqli olaraq mülayim rəftarla bizi buraxdılar. Dedilər ki, burada saxlanılmağınızı heç yerdə heç kimə deməyin.

Təbii ki, jurnalistika fakultəsi tələbələrinin saxlanılması barədə bizim dekanımız Şirməmməd Hüseynovun məlumatı olmuşdu. Bir neçə gün sonra Şirməmməd müəllim tədbirin təşkilatçıları olan Əjdər Kazımovu, Hüseyn Əsgərovu, Ağamalı Əfəndiyevi, Qəzənfər Rüstəmovu və məni yanına çağırdı. O, söhbəti həmin hadisə üzərinə gətirdi. Və dedi ki, həmin məsələ ilə əlaqədar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevə gecə saat 1 radələrində bu barədə məruzə edilib və o ciddi tapşırıq verib ki, təcili olaraq tələbələri buraxın. Onlara mənim tövsiyyəmi çatdırın ki, onlar tələbədirlər. Onların indi ən vacib işi dərsləri ilə məşğul olmaqdır və bilsinlər ki, Azərbaycanın gələcəyi, sürətli inkişafı, milli mentaliteti, mənəvi dəyərləri haqqında düşünən insanlar var və mən buradayam. Hər işin öz vaxtı var. Eşitdiniz bala,gedin dərsinizi oxuyun. Bir daha belə işlər olmasın. Biz Şirməmməd müəlimin kabinetindən çıxıb küçədə söhbət edəndə Hüseyn gülə-gülə demişdi:

**- Mən indi Azərbaycanın səmasında parlayan qeyri-adi işıq görürəm !**

Bundan sonra bizə heç bir təziq və təsir olmadı.Sonrakı illərdə belə tədbirləri bir daha keçirmədik.

* * *

Biz məscidin ətrafında bir neçə dəfə gəzişib, tələbəlik illərini şirin xatirə kimi yada saldıq. İkimiz də söhbət edə-edə heyranlıqla və iftixar hissi ilə məscidə baxırdıq. Mən İranda, Türkiyədə, Orta Asiya dövlətlərinin bir neçəsində məscidlərdə olmuşam. Heydər Əliyevin adına və şərəfinə ucaldılmış Bakıdakı bu məscid mənə görə daha böyük və daha əzəmətli görünür. Çox təəssüf ki, bizi məscidin içərisinə buraxmadılar. Dedilər içəri hələ tam hazır deyil. Havanın xoş olmasından istifadə edib, məscidin qarşısındakı sıralardan birində oturduq. Gözümüz məscidə baxsa da söhbətimiz çox uzaqlara gedirdi .Hüseyn dedi:

**- Mən inanırdım ki, Heydər Əliyev Azəbaycanın tarixində uzun müddət qalacaq. Amma onun Azərbaycana göstərdiyi əvəzsiz xidmətlərlə yanaşı adına ucaldılan bu məscid Ulu Öndəri dana da əbədiləşdirdi. Əhsən, bunu yaradanlara, alqışlar, İkimiz də məscidə baxa-baxa əl çaldıq.**

Biz ucadan danışırdıq, şübhəsiz ki, ətrafda olan insanlar bizim məscid haqqıbdakı söhbətimizi eşidirdilər və bizim əl çalmağımıza ətrafdakı insanlar da qoşuldy. Onlar ilk dəfə gördüyümüz insanlar olsa da bizimlə həmrəy olduqlarını başa düşdük və yaxınlaşıb həmsöhbət olduq.Təxminən 55-60 nəfər bir yerə yığılıb məscid barədə danışmağa başladıq. Hərə öz ürək sözlərini bir neçə cümlə ilə dedi.

Hüseyn daha uca və qətiyyətli səslə:

**- Görürəm bu əzəmətli abidəni siz də bəyənir, yüksək qiymətləndirirsiniz. Bu, ölkəmizin ardıcıl siyasi və iqtisadi uğurlarının nəticəsində mümkün olub. İndi Azərbaycan dünyada ən sakit və sabit dövlətdir. Ulu öndərin bizə miras qoyduğu ölkəmizdə tolerantlıq sayəsində dinindən, irqindən, milliyətindən asılı olmadan hamı bərabər hüquqlu vətəndaş statusuna malikdir.Təsadüfi deyil ki,son bir neçə ildə Azərbaycan bir çox beynəlxalq təşkilatların toplantısına ev sahibliyi edir. Bu toplantılarda iştirak etmək üçün ölkəmizə gələn minlərlə ali dərəcəli qonaqlar Azərbaycan haqqında real məlumatlar toplayır və öz ölkələrinə qayıtdıqdan sonra bizə qarşı səmimi münasibətdə olurlar, dünyanın bir çox mötəbər tribunalarında bizi müdafiə edirlər.Ölkəmizdəki tolerantlıq indi bütün dünya üçün bir nümunədir. Cənab prezident İlham Əliyevin şəxsi ideyası və tapşırıqları əsasında ölkəmizdə yaradılan Asan xidmət indi bütün dünyanı maraqlandırır, bu bürokratizmə, rüşvətxorluğa və korrubsiyaya qarşı sivil qaydada mübarizə formasıdır.**

Məscidin qarşısına toplaşan insanlar yenidən əl çalaraq İlham Əliyevin bu yeniliklərini alqışladılar. Hüseyn daha uca səslə :

**-Mərhəba Ulu Öndərə, eşq olsun İlham Əliyevə!**

Biz ətrafımızdakı insanlarla vidalaşıb ayrıldıq. Bir neçə addım gedib dayandım. Mən xoş əhval-ruhiyyə ilə Hüsyndən soruşdum.

**-Hüseyn indi Azərbaycanın səmasında nə görürsən?**

O,diqqətlə üzümə baxıb, nə cavab gözlədiyimi anladı və qətiyyətli səslə dedi:

**-İndi mən,Azərbaycanın səmasında parlayan qoşa qeyri-adi işıq görürəm!**

Mən Hüseyndən elə belə cavab gözləyirdim. Onun fikirlərini tamamlamaq üçün dedim: Gələcək yolumuzu aydınlaşdıran həmin işığın biri Ulu öndər və onun ideyaları, biri də onun layiqli davamçısı İlham Heydər oğlu Əliyevdir.

* * *

Əziz dostum, qardaşım, Naxçıvanlı Hüseyn Əsgərovla mənim sonuncu görüşüm daha səmimi və daha maraqlı oldu. Biz bu dəfə ancaq möhtərəm cənab Prezidentimiz İlham Əliyevin uğurlu işlərindən, qələbələrindən danışdıq. 44 günlük müharibədən sonra Azərbaycanın qələbəsi, həmin günlərdə Ali Baş Komandanın bütün dünyanın aparıcı mətbuat orqanlarına verdiyi müsahibələrdə nümayiş edilən böyük diplomatlığı, hazırda 120-dən çox dövlətin üzv olduğu "Qoşulmama hərəkatı"ndakı sədrliyi, milyonlarla azərbaycanlılar kimi bizim də ən çox həsrətini çəkdiyimiz Cənubi Azərbaycan, Qərbi Azərbaycan, yenicə qurulan Laçın-Xankəndi yolundakı sərhəd nəzarət buraxılış məntəqəsi, Türk Dövlətləri Təşkilatının ildən-ildən genişlənən əlaqələri bizim söhbətimizin əsa mövzuları oldu. Şübhəsiz ki, Heydər Əliyevin 100 illiyi də söhbətimizin əsas leytmotivi idi. Axı biz ömrümüzün 50 ilini Əliyevçi olmuşuq və buna görə bu gün daha çox qürurlanırıq. Bir neçə gün qabaq ADA Universitetinin Şuşada təşkil etdiyi Heydər Əliyevin 100 illiyinə həsr edilmiş elmi konfransda möhtərəm cənab Prezidentimiz İlham Əliyevin və dünyanın bir çox nüfuzlu dövlətlərindən gəlmiş tanınmış nümayəndələrin çıxışları bizi daha çox təsirləndirmişdi. Biz söhbətimizdə Ulu öndərin bu qədər dəyərləndirilməsindən iftixar hissi keçirdiyimizi izhar edirdik. Deməli, zaman özü haqqı, ədaləti yerbəyer edir. Şair demişkən: Dünya çalxalandıqca yağı yağ üstə çıxır, ayranı ayranlıq olur. Dünya nizamının sürətlə dəyişdiyi, yeniləndiyi bir zamanda möhtərəm cənab Prezidentimiz İlham Əliyev öz uzaqgörənliyi ilə Azərbaycanın layiqli yer alması üçün hər saat, hər gün, hər dəqiqə fədakarlıq edir.

**- Əgər dünyada haqq-ədalət varsa, əgər dünya siyasətçiləri bu dəyərləri qiymətləndirə bilsələr mən inanıram ki, BMT-nin Təhlükəszlik Şurasının qəbul etdiyi 4 qətnaməni 44 günlük müharibədə öz qüdrəti ilə icra edən İlham Heydər oğlu Əliyev Birləşmiş Millətlər Təşkilatının yeni formatda, daha nüfuzlu, daha səlahiyyətli Baş katibi olar. Son illərdə qan içində boğulan dünyanın ədalətli, qayğıkeş, insanlara insan kimi münasibət göstərməyi bacaran səmimi, və həmişə öz sözünə sahib olan qətiyyətli bir rəhbərə böyük ehtiyacı vardır.**

**ÇİNGİZ ƏNVƏROĞLU**
**"Qızıl qələm mükafatı laureatı"**

## Qarabağ və Şərqi Zəngəzur üçün əlavə vəsait ayrılır



**İşğaldan azad edilmiş ərazilərdə bərpa və quruculu işləri üçün dövlət büdcəsindən əlavə vəsai ayrılır.**

Adalet.az-ın məlumatına görə, Azərbaycan Respublikasının işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi ilə bağlı xərclərinin artımı üçün 2 milyard 260,0 milyon manat əlavə vəsait ayrılır.

Artımdan sonra bu xərc 5 milyard 260,0 milyon manat məbləğində olacaqdır.

## *Günay Əfəndiyeva Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyinin dövlət katibi ilə görüşüb*

**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Macarıstana səfəri çərçivəsində Xarici İşlər və Ticarət Nazirliyinin dövlət katibi, millət vəkili Tamaş Menszer ilə görüşüb.**

Günay Əfəndiyeva Fond tərəfindən qədim Türk mədəniyyətinin təşviqi istiqamətində təşkil edilən tədbirlərdən, təşkilatın üzv və müşahidəçi dövlətlərini əhatə edən Türk irsinin qorunmasına yönəlmiş beynəlxalq layihələrdən bəhs edib. Fondun prezidenti Türk dövlətləri və təşkilatları arasında davam edən inteqrasiya proseslərinin vacibliyini xüsusi vurğulayıb. Günay Əfəndiyeva cari ilin yanvar ayında Avropanın Mədəniyyət Paytaxtı Vezsprem şəhərinə səfərini xatırlayaraq, bu il Türk Dünyasının Mədəniyyət Paytaxtı Şuşa şəhəri və Vezsprem arasında imzalanmış Anlaşma Memorandumu ilə əlaqələrin gücləndirildiyinə toxunub.



Fondun rəhbəri həmçinin, təşkilatın müşahidəçi üzv dövləti olan Macarıstan ilə əməkdaşlıq çərçivəsində ”Macar yazıçılarının antologiyası”nın hazırlanması, Bela Bartok, Mikloş Radnoti və digər görkəmli şəxsiyyətlərinin yaradıcılıqlarının təbliği sahəsində Fond tərəfindən həyata keçirilən layihələrdən danışıb.

Macarıstan Xarici İşlər və Ticarət Nazirliyinin dövlət katibi Tamaş Menszer Fondun fəaliyyətini yüksək qiymətləndirərək, Macarıstan musiqisinin və ədəbiyyatının dünya səviyyəsində təbliğ edilməsinə görə təşkilata minnətdarlığını bildirib və bu istiqamətdə daim dəstək göstərməyə hazır olduqlarını qeyd edib. Macarıstanı Türk Dünyasının Avropaya qapısı adlandıran Tamaş Menszer, Türk dövlətləri ilə əməkdaşlığın önəmindən, Avropanın Mədəniyyət Paytaxtı Vezprem və Türk Dünyasının Mədəniyyət Paytaxtı Şuşa arasında iş birliyindən söz açıb.

Görüşdə Fond və Macarıstan arasında əməkdaşlığın genişləndirilməsi, eləcə də digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

## *Psixoloq: “Əgər bir uşağın ruhunun rahat böyüməsini istəyirsinizsə...”*

**”Əvvəla 1 iyun uşaqların beynəlxalq müdafiəsi günü münasibətilə bütün uşaqları təbrik edirəm. Nə xoş uşaqlığını yaşaya bilən uşaqlara. Bu gün qəmli notlardan deyil, yaxşıları sizinlə danışmaq istəyirəm”**

Bunu Adalet.az-a açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib. Psixoloq uşaqlarımızla bağlı valideynlərə bir çox tövsiyələrini verib:



”Tövsiyəm budur ki, uşaqlarınıza miras buraxacağınız ən gözəl şey gözəl xatirələrdir. Onların nə bahalı hədiyyələr, nə geyimlər, nə məktəblər yadında qalacaq. Yaddaşlarında onlarla keçirdiyiniz zaman yadında qalacaq. Məsələn, ata və anasıyla top-top oynaması, tullanması, parkda gəzməsi, suda üzməsi və sair. Əgər bir uşağın ruhunun rahat böyüməsini istəyirsinizsə, ona sevginizi dilinizlə deyin. Zatən sevirəm də, ata, ana övladını sevməzmi ifadələri ilə deyil. Sözlərinizlə sevginizi izah edin. İnsanların sevgini eşitməyə ehtiyacı var. Nə qədər çox desəniz, o qədər sevgiyə tox böyüyəcəklər və gələcəkdə sevgi aclığı keçirməyəcəklər. Bu gün üçün uşaqlarınızı gəzməyə aparın, onlarla gözəl vaxt keçirin və ən asası onlara nə xoş ki, bu ailədəyəm aurası yaradın”.

**Vasif Əlihüseyn**

# ""Kotayk"laşmış Qırxbulaq obası, "Getar"laşmış Gedər çayı"

***Ötən gün erməni mediasında bir sel fəlakəti haqqında yazı oxudumş Deməli, 1946-ci ilin mayın 25-dən 26 tarixlərində Getar çayında daşqın olub. Çayın şəhərə sürüyüb gətirdiyi daşların diametri 1-1,5 metrə çatıb. Şəhər böyük ziyan görüb, dağıntılar olub, ermənilər ölüb. Yazını oxuyanda ilk ağlıma gələn o oldu ki, görəsən bu hansı sa Azərbaycan çayıdır ki, sovet hökuməti onu ermənilərə peşkəş edib. Odur ki, həmin çayın Azərbaycan versiyası olan adını axtarmağa başladım. Amma sonda qərara gəldim ki, ən yaxşı məlumatı siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev Adalet.az-ın oxucularına çatdıracaq.***

**-Zaur müəllim, əvvəlcə ”Getar çayı”nın açmasını bildirməyinizi xahiş edirik...**

- Ermənilər İrəvan ərazisinə 1813-1828-ci illərdə köçürüldüyünə görə, əlbəttə ki, yaşadıqları ərazilərin əsl sahiblərinin qoyduğu adları silməli idilər və sildilər. O, çay da Azərbaycanlıların sıx yaşadığı indi Ermənistan deyilən Qərbi Azərbaycandadır. Ermənilərə qədər o çayın öz adı olub. Bunu tək biz demirik, azərbaycanlı olmayan tarixçilər də dəfələrlə qeyd ediblər.

Məsələn Azərbaycanın İrəvan xanlığı ərazisində yaşamış məşhur fransız səyyahı Jan Batist yazır: ”...Bir çox şəhər və qəsəbələrdən keçib, şər qovuşanda İrəvana çatdıq... Tiflisdən İrəvana məsafə 48 lyödür. İrəvan böyük şəhərdir, lakin yöndəmsiz və çirklidir. Şəhərin böyük hissəsi bağlardan və üzümlüklərdən ibarətdir. Bircə dənə də olsun, gözəl binası yoxdur. Şəhər hər tərəfdən dağlarla əhatə edilmiş düzənlikdə yerləşir. Şimal-qərb tərəfdən Zəngi, cənub-qərb tərəfdən isə Qırxbulaq çayları axır. Bu çaya bulaqlarının sayına görə həm də ”Qırxbulaq çay” deyirlər”.

Qeyd edim ki, bəzi mənbələrdə Qırxıbulaq çayının adı Gedərçay kimi yazılır. Bu gün də işğalçı ermənilər onu ”Getar” kimi tələffüz edirlər.

1911-ci ildə İrəvandan təqribən 19 km məsafədən Gedər çayının mənbəyindən (Qırxbulaqdan) şəhərə su kəməri çəkilmişdi. Bu kəmərin çəkilməsində Abbasqulu xan İrəvanskinin müstəsna rolu olmuşdu.

**- Bəzi tarixçilər deyir ki, Qırxıbulaq çayının (Gedər çayı) adı ora tək 40 bulaqdan su gəldiyi üçün deyil o ərazilər eyni adda olması ilə bağlıdır. Sizin versiyanız nədir?**

-Qırxbulaq Göyçə mahalında qədim bir yaşayış yeridir. Osmanlı dönəmində Qırxbulaq nahiyəsinin davamı olan Qırxbulaq mahalı İrəvan xanlığının tərkibinə daxil olmuşdur.

Toponim Azərbaycan dilində ”çoxlu” mənasında işlənən qırx və bulaq sözləri əsasında yaranmışdır.

Ərazidə çoxlu bulaq olduğu üçün kənd Qırxbulaq adlandırılmışdır. Qeyd etmək lazımdır ki, XVI-XIX əsr erməni mənbələrində bu toponim bir çox hallarda Kotak şəklində əksini tapmışdır. Araşdırmalar göstərir ki, Kotak, Katak və ya Kotayk toponimi eramızın əvvəllərində Cənubi Qafqazda məskunlaşmış peçeneqlərin katayk tayfasının adından yaranmışdır. Sonra mahal ərazisində Ellər rayonu təşkil olmuşdu. Toponim türk dilində ”xalq, tayfa”, ”tayfa birləşməsi, tayfa ittifaqı” mənasında işlənir.







Qırxbulaq İrəvan şəhərinin yaxınlığında yerləşən, çayları, bulaqları ilə məşhur olan bir mahaldır. Tiflis yolunun üzərində olan bu mahal da qədim körpüləri, məscidləri və türk xristianlığının izi olan məbədləri ilə məşhur idi.

**- Görün, torpaqlar necə zəngin sərvətə malik olbdur ki, qədim insanlar, ulularımız buranı ta qədimdən yurd yeri ediblər.**

-Ən kədərləndirici hal odur ki, hazırda Ermənistan adlanan Qərbi Azərbaycanın hər qarışı varidatdır, sərvətdir.

Burada yaşayan əhali hələ qədim dövrlərdən dəvə təsərrüfatı ilə məşhur olmuşdur. Mineral ehtiyatlarının zənginliyi və boyaq bitkilərinin çeşidliliyi burada tarixi çox qədimə gedib çıxan boyaqçılıq sənətinin inkişafı üçün də əlverişli şərait yaratmışdır.

Qırxbulaq mahalında Ellər bölgəsinin Avdallar, Göykilsə, Cadqıran, Civriş, Ellər qəsəbəsi, Ərzni qəsəbəsi, Kənəkir, Nurnus və digər kəndlər xalçaçılıq məntəqələri olmuşdur.

**- Zaur müəllim, heç bu kəndlərdən indiyənə qalanı var? Yoxsa, ermənilər hamısını erməniləşdirib...**

- XIX əsrin birinci rübünə aid mənbədə Qırxbulaq mahalı artıq iki adla təqdim olunur: Qırxbulaq mahalı və Zəngibasar mahalı. İ.Şopen Qırxbulaq mahalına məxsus 48 kənd qeydə almışdır və bu kəndlərdən 26-sının artıq dağıldığını qeyd edir. Məhz bu məlumata əsaslanan C.Bornoutyan mərkəzi Kənəkir olmaqla bu mahala 22 kəndin daxil olduğunu qeyd edir. İrəvan xanı Məhəmməd Hüseyn xan Qacara məxsus olan mülklərin siyahısından da məlum olur ki, Zəngibasar kəndlərinin çoxu Qırxbulaq mahalının içərisində verilmişdir.

Dərəçiçəklə Zəngibasar mahalları arasında yerləşirdi. Mahal şərq tərəfdən onu Göycə gölündən ayıran dağlarla, şimaldan Dərəçiçək mahalı ilə, cənubdan İrəvan şəhəri, Zəngi çayı, cənub-qərbdən Gərnibasar, qərbdən isə Körpübasar mahalı ilə həmsərhəd idi.

Qırxbulaq yaylasının bulaqları İrəvan şəhərini içməli su ilə təmin edirdi. Şəhərin cənubundakı bağlar isə Gedər (Qırxbulaq) çayından çəkilən kanal və arxlarla suvarılırdı. İrəvan torpaqlarından ildə 2-3 dəfə məhsul götürülürdü. XX əsrin əvvəllərinədək İrəvan şəhəri 4 mənbədən - Zəngi çayı, Söyüdlük adlanan ərazidəki çoxsaylı bulaqlar, Gedər (Qırxbulaq) çayının şəhər bağlarından keçən hissəsində tikilən su anbarı və müxtəlif yerlərdə qazılan kəhrizlər vasitəsilə içməli su ilə təmin edilirdi.

**- Adamın ürəyi az qalır partlasın...Bu ərazilərdə ermənilərin məskunlaşması konkret olaraq hansı illərdə həyata keçirilib. Hansı ölkədən gəliblər: Livan, İran, Türkiyə...**

- 1831-ci ildən sonra bura Türkiyənin Bayazid bölgəsindən köçürülən ermənilər yerləşdirilib. 1905-1906-cı illərdə azərbaycanlılar sıxışdırılmağa başlayıb. 1906-cı ildən sonra burda ermənilər yaşayıb.

**- Erməni olan yer də erməni olar...**

- Bəli, Qırxbulaq sovetlərin işğalından sonra, 1930-cu ildə Kotayk rayonu adı aldı. 1961-ci ildə Kotayk bölgəsinin adı Abovyan olaraq dəyişdirildi. 1990-cı ildə Abovyan bölgəsi yenidən Kotayk adlandırıldı.

**- Bu tip məlumatları, xüsusən erməniləşdirilmiş qədim yur yerlərimizin: dağlarımızın , dərələrimizin, düzənlərimizin, şəhər -kənd və qəsəbələrimizin, çaylarımızın, şəlalələrimizin keçmişini və indisini araşdırmaq, yazmaq, yaymaq , o yurd yerlərinin bizə aid olduğunu təbliğ etmək elə özü də bir vətənə xidmətdir! Zaur müəllim, vaxt sərf edib Adalet.az-ın oxucularına zəngin məlumat və bilgilər verdiyiniz üçün sizə təşəkkür edirik!**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**



Əbülfət MƏDƏTOĞLU

# SÖZLƏ SİRDAŞ OLAN SONA ÇƏRKƏZ

*Həyatda mənim üçün əl ilə toxunulmayan, gözlə görünməyən, ruhdan və ürəkdən süzülən, eyni zamanda ruhu və ürəyi ifadə edən və nəhayət, canının canı olanlara münasibətini sərgiləyən SÖZ-dü! Mənə görə SÖZ canlı varlıqdı... Ən kamil həmsöhbətdi... Ən anlayışlı sirdaşdı... Ən həzin xatirədi... Ən etibarlı güvəncdi...*

*Söz həm də adamı nəfəs alanda da tək buraxmayan dostdu! Bütün bunların işığında söz həm də adamın iç dünyasıdı... ona him etməsən bütün günü susacaq -başqalarını rahatsız etməyəcək... yalnız sən və söz duracaq üz-üzə... qalacaq baş-başa... Bax elə həmin anda da qələm vərəqə tərəf boylanacaq... dil dodaqları tərpədəcək...*

*Hər kəsin həyatında özünə məxsus olan özəllik var... Bu özəllik bir sirr ömrü yaşayır... O zaman ki, sirr sözə hopur, sözə çevrilir və söz yazıda və yaxud səsdə doğulur, işıqlı dünyaya gəlir! Deməli, oxucunun, dinləyicinin önünə çıxır... Və görünür, duyulur... Eyni zamanda auditoriya qazanır... Bir az obrazlı desəm həyata vəsiqə əldə edir...*

*Tələbəlik illərim uzaq bir xatirədi... Bu uzaq, həm də məni haldan hala salan xatirələrin hər yarpağı da öz novbəsində bir tumurcuqdu - söz tumurcuğu! Açıldıqca ətri xəyallandırır adamı. Xüsusən də duyğusal ruh adamını. Axı bu adamlar özlərini ifadə etdikləri həmin o Tumurcuq Sözdə tapıblar... Ona tapınıblar... Mən də tapındığım Sözün dünyasında aydınları, dəyərliləri, doğma olanları, anlayışlıları və dəyər verənləri daha çox yada salıram... Təzələyirəm və təzələnirəm...*

*Qələmin vərəqlə anlaşdığı bu ana bir xatirə qonaq edib məni... O xatirənin şah damarı, indi də həsəd apardığım SEVGİ idi! İnanın ki, Dövlət Universitetinin filologiya fakültəsində oxuyan tanış tələbə yoldaşlarımla hər söhbətimdə bir-biri üçün doğulmuş bu iki insanın İlahi tamlığına heyranlığımı mütləq söyləyirdim...Və mən birmənalı olaraq inanmışdım ki, Allah onları bir -biriləri üçün yaradıb. Yanaşı addımlayanda da, bir-biriləri ilə asta söhbət edəndə də, hətta baxışları ilə nəyisə öz aralarında çözəndə də mən bu tamlığa sadəcə Allahın qələminin qüdrətinin işi kimi yanaşırdım. Digər tərəfdən onların öz tələbələri ilə münasibətlərində də görüb izlədiyim, şahidi olduğum nüansların özündə də bir özəllik var idi. Bu gün də mən o sirrin ip ucunu tapa bilmirəm. Ola bilsin ki, bu da elə onların halal tamlığının bir işartısı, bir çaları idi. Çünki yazımın bu nöqtəsində adlarını çəkəcəyim həmin müəllimlər universitet həyatında özlərini tələbəyə sevdirə bilmişdilər. Onların adı da, davranışı da, dərsə münasibəti də həm fərqli, həm də sevgi dolu idi.*



*Yəqin ki, 80-ci illərin tələbələri, daha çox da filologiya fakültəsində oxuyanlar Çərkəz müəllimi, Sona xanımı yaxşı xatırlayırlar. Şəxsən mən o illərin tələbələri ilə görüşlərimdə öz müəllimlərimizdən söhbət açır və mütləq Çərkəz müəllimi xatırlayırıq. Onun tələbəyə diqqətini, yanaşmasını, xeyirxahlığını xüsusi vurğulayırıq. Burda bir məqamı da qeyd etməyi özümə borc bilirəm. Tələbəlik illərimizdə bizim müəllimlərimizə, müəllimlərin də biz tələbələrə münasibəti tamam fərqli idi. Görünür elə bu fərqin yaranmasında məhz Çərkəz müəllim kimi pedaqoqların, ziyalıların xidmətləri var imiş. Mən bunu övladlarımın, nəvələrimin təhsil aldığı illərdə daha yaxşı gördüm, hiss etdim. Və...*

*Bu gün həyatın rəngi də, mənası da, yaratdığı aura da tamam fərqlidir. Nə qədər də qaynayıb qarışmaq və yaxud çəkilib bir kənarda dayanmaq istəyirsən alınmır. Sanki həyatın özünün mayası çirklənib. Ona görə də halallıq da, sevgi də, sayqı da adama yapışmır, adamı özünə çəkmir. Amma yazının əvvəlində vurğuladığım kimi, güvənəcəyimiz, həmsöhbət ola biləcəyimiz, sirdaşımız yalnız sözdü. Söz qalıb bizə. Mən də həmin o sözün işığında qayıtdığım xatirələr dünyasında bir paralel gördüm. Bu paralel sözlə bağlıdı. Dəyərli oxucu yəqin ki, məlumatlıdır. Azərbaycan ədəbiyyatında Mikayıl Müşfiqin Dilbəri, Cəfər Cabbarlının Sonası... Çərkəzin Sonası öz həyat yoldaşları, öz könül sirdaşları, öz sevgiləri ilə ikinci dəfə qarşılaşıb bir-birlərini yenidən seviblər. Çünki onlar sözə söykəniblər. Dilbər Müşfiqdən yazıb, Sona Cəfərdən yazıb, Sona Çərkəzdən yazıb. Həmin yazılar işıq üzü gördükcə o sevgi yenidən başlayıb. O xatirələr ilk görüşdən üzü son ana qədər yol gəlib. Deməli, sevginin ikinci ömrü həyata vəsiqə alıb. Bu mənim nəyisə kəşf etməyim deyil. Bu sadəcə olaraq həmin xanımların öz çevrələrinə, öz oxucularına sevgilərini və sevdiklərini gördükləri kimi, duyduqları kimi, yaşadıqları kimi təqdim etməkdir. Burda mənə görə Çərkəz müəllimi təqdim edən Sona xanım daha şanslıdı. Çünki o, Sona Çərkəz olub. Çərkəzdə yaşayan Sona, Sonada yaşayan Çərkəz yenidən bütövləşib. Bu bütövlüyü də Sona Çərkəzə ərmağan edən Allah və İlahi sözdür. Çünki Çərkəz müəllimin sağlığında Sona xanım sözə könül verməmişdi. Onun vaxtsız vəfatından sirrini sözə verdi, onun sirdaşı söz oldu.*

*Mən Sona Çərkəzin qələmindən çıxan yazıların, demək olar ki, hamısını oxumuşam. Şeirlərini də, məqalələrini də, xatirələrini də. Üstəlik özüm də həmsöhbət olmuşam Sona xanımla. Bu söhbətlərdə, oxuduğum kitablarında Sona xanımla Çərkəz müəllimi bir yerdə görmüşəm. Hətta inanmışam ki, üz-üzə oturub söhbət etdiyim Sona xanımın sol tərəfində Çərkəz müəllim dayanıb bizi dinləyir, xanımının nə dediyini, necə dediyini, bir növü o duruşla təsdiqləyir. Bunu bir sevgi anatomiyasının görüntüsü də hesab etmişəm. Çünki Sona xanım nədən, kimdən danışır, söhbət edir-etsin, mövzunun hər iki sözündən biri Çərkəz müəllimlə bağlı olur. Gəzdikləri, gördükləri, etdikləri, əl tutduqları, yaşadıqları hər an bu gün də onun üçün dipdiridi. Ona görə də Sona Çərkəz imzası onların cütlüyünü hər mənada təsdiq edir. Ayrılmadıqlarını bir sübut kimi göstərir. Sevənlərinə, xatırlayanlarına.*

*Bəli, həyat insan üçün gəlimli-gedimlidi. Heç kim bu həyatın bir varlıq olaraq əbədi yaşam haqqını qazanmayıb. Təbii ki, söhbət cismən yaşamaqdan gedir. Amma elə şəxslər var ki, onlar yaşadıqları həyatda özlərinin sözü ilə, izi ilə, işi ilə, sevgisi ilə bitməz bir ömür qazanırlar. Bu bitməyən ömür ailənin, nəslin, doğmaların, el-obanın, dostların, itirdiklərinin, bir sözlə, təmasda olduğun hər kəsin yaddaşında bir işartı deməkdir. O işartı da həmişə közərir. Çünki onun mayasında sevgi var. Mənim inancıma görə həyatda ölümsüzlük yalnız sevgiyə məxsusdur. Əgər sevgi yaşayırsa, deməli, sevən də yaşayır. Bu mənada Çərkəz müəllimlə Sona xanımın birgə həyatlarının davamı həm övladlarının, nəvələrinin, həm də Sona Çərkəz imzasının halal sözündə ifadə olunur, yəni yaşayır. Düşünürəm ki, 1980-ci ildən tanıdığım və bu günə qədər də yaddaşımda xoş xatirəsi qalan Çərkəz müəllimin ruhu şaddır. Çünki o, yaşayır. Öz sevgisində, öz Sona Çərkəzində, sözə sığınan, sözlə sirdaş olan şair, publisist Sona Çərkəz sözündə.*

*P.S. İyunun 3-ü Çərkəz müəllimin dünyadan vaxtsız köç etdiyi gündür. Mən də xatirələrin işığında və bir də Sona Çərkəzin stolumun üstündəki son kitablarından olan "Sözdür mənim sirdaşım..."ın səhifələrində onların sevgisinin əbədiliyinə bir daha inandım. Həmin inanc da məni bu kiçik yazını qələmə almağa sövq etdi.*

*P.P.S. Söhbətlərimizin birində Sona xanım vurğuladı ki, mən evimdəki Çərkəzlə nəfəs alıram, onun üçün yaşayıram. Dövlət televiziyasında çalışan Çərkəz Quliyevi ekranda görəndə hansı hallar yaşadığımı bir Allah, bir də Çərkəzin ruhu bilir. Babasının adını yaşadan Çərkəzimə Allah ömür versin! Amin.*

*MÜƏLLİFDƏN:*

*Mən yazıma nöqtə qoyanda hiss etdim ki, nə vaxtdan bəri ürəyimdə gəzdirdiyim və SONA ÇƏRKƏZ SEVGİsinə ünvanladığım şeiri bu düşüncələrimə EPİLOQ etməyin məqamıdı:*

*Bir SEVGİnin söz şəkili önümdə ,*
*Dolu ürək, göz şəkili önümdə!..*
*Allah, mələk öz şəkili önündə -*
*Səcdə elə Məhəbbətə- söyləyir!*

*Bütöv tutub paralanmış tam ömrü,*
*Zaman - zaman şölə saçan şam ömrü!..*
*Bəxt qoymadı kam almağa, kam, ömrü -*
*Səcdə elə Məhəbbətə - söyləyir!..*

*Hər kəlmədə vurğu düşür bir ada,*
*Sevgi dərya, o, dəryada bir ada!*
*Sevgisində yer qoymadı irada-*
*Səcdə elə Məhəbbətə - söyləyir!..*

# TƏHSİL FƏDAİSİ

**Ömrünün 75 illik zirvəsinə qədəm qoyan tanınmış təhsil fədaisi Əməkdar müəllim Asif Cahangirov mənalı həyatını bütövlükdə təhsil işinə həsr edərək, xalqımızın zəngin mənəviyyatını, əxlaqi dəyərlərini, ləyaqət və şərəf hissini yetərli qədər qoruyub saxlayan milli məfkurəli simalarımızdan biridir.**

Asif Cahangirov 1948-ci ildə Qarabağda - Azərbaycanın dilbər guşələrindən olan Xankəndində Cahangirovlar ailəsində anadan olub. Uzun illər Azərbaycan dili və ədəbiyyat müəllimi işləmiş, təhsil sistemində müxtəlif rəhbər vəzifələrdə çalışmış, Dağlıq Qarabağ Muxtar Vilayətinin Maarif Şöbəsi müdirinin müavini olmuş atası Baxış müəllimin başçılıq etdiyi ailədə böyüməsi Asif müəllimin işıqlı gələcəyinə yol açıb.

Ailənin böyük övladı olan Asif 1955-ci ildə Xankəndində 5 saylı orta məktəbdə birinci sinifə qədəm qoyub. Cahangirovlar ailəsi 1965-ci ildə Xankəndindən gənclik şəhəri Sumqayıta köçdüyündən Asif təhsilini Sumqayıtdakı 13 №-li orta məktəbdə davam etdirib. 1966-cı ildə həmin məktəbi qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinin - indiki Bakı Dövlət Universitetinin kimya fakültəsinə daxil olub. 1971-ci ildə kimyaçı, kimya müəllimi ixtisaslarına yiyələnib. Xaçmaz rayonunun Yergüc kənd orta məktəbində müəllim kimi pedaqoji fəaliyyətə başlayıb. Əmək fəaliyyətini 1972-1975-ci illərdə Sumqayıt şəhərinin 18 və 22 №-li məktəblərində müəllim kimi davam etdirib. 1975-1976-cı illərdə isə Sumqayıtdakı 17 №-li məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsini tutub. O, 1972-ci ildə respublikamızda ilk dəfə olaraq Gənc Müəllimlər Şurası yaradaraq, bu quruma rəhbərlik edib.

Asif Cahangirovun yüksək müəllim nüfuzu, ictimai fəaliyyəti, mütəxəssis keyfiyyətləri, pedaqoji ustalığı, təşkilatçılıq qabilyyəti şəhər rəhbərliyi tərəfindən qiymətləndirilərək, o, 1976-ci ildə - 28 yaşında Sumqayıt Şəhər Maarif Şöbəsinin müdiri vəzifəsinə təyin olunub. Keçmiş Sovetlər İttifaqının təhsil sahəsində ən gənc rəhbər işçilərdən biri olaraq Asif Cahangirov 1976-1980-ci illərdə Sumqayıt Şəhər Maarif Şöbəsinə uğurla rəhbərlik edib.

Peşəsinin vurğunu, nəfsinin ağası olan fədakar müəllim və nüfuzlu şəxsiyyət kimi tanınan, hər şeydən əvvəl, yüksək ixtisas biliyi, pedaqoji səriştəsi, işlədiyi və rəhbərlik etdiyi sahədə təcrübəsi olan Asif Cahangirov 1980-ci ildə Maarif Nazirliyində məsul vəzifələrə irəli çəkilib. O, nazirliyin Əmək təlimi və peşəyönümü şöbəsinə, sonra isə Baş Məktəblər İdarəsinə rəhbərlik edib.

1985-ci ildə Asif Cahangirova Bakı Şəhər Baş Təhsil İdarəsinə rəhbərlik etmək həvalə olunub. 1985-2005-ci illərdə Bakı Şəhər Baş Təhsil İdarəsin rəisi vəzifəsində Asif Cahangirov güclü təhsil strateqi kimi pedaqoji fəaliyyətin bütün sahələrində öz dəsti-xətti, səyi və təşəbbüskarlığı böyük nüfuz qazanıb.

Asif Cahangirovun Bakı Şəhər Baş Təhsil İdarəsinə rəhbərlik etdiyi 1985-2005-ci illər müxtəlif ictimai siyasi quruluşlara təsadüf etsə də, bu illərdə Azərbaycana, həmçinin Təhsil Nazirliyinə, Bakı şəhərinə müxtəlif şəxslər rəhbərlik etsələr də, Asif müəəlim özünün prinsipial və şəffaf idarəçilik xəttindən bir an belə dönməyib.

Həyatının bütün dönəmlərində öyrənməyə zaman ayıran, ingilis dilini sərbəst öyrənən Asif müəllim ABŞ-ın və dünyanın ən məşhur universitetlərindən biri olan Harvard Universitetində 2 ay təhsil alıb. O, sadə həyat tərzi sürməyi ilə də həmişə cəmiyyətə və insanlara nümunə olub. 23 ölkədə keçirilmiş məqsədli treninq və təlim səfərləri zamanı Asif müəllim təhsilin bütün sahələri üzrə beynəlxalq təcrübəni yerində mənimsəyib, 50-dən çox inkişaf etmiş ölkənin təhsil sistemini ətraflı öyrənib.

Asif Cahangirov 2005-2010-cu illərdə Azərbaycan Beynəlxalq Bankının İnsan resursları departamenti direktorunun müavini, 2010-2015-ci illərdə isə Azərbaycan Respublikası Mərkəzi Bankının İnkişaf departamentinin direktoru vəzifələrini də icra edib.

Yüksək ixtisaslı azərbaycanlı və əcnəbi müəllimlərin fəaliyyət göstərdiyi, beynəlxlaq proqramların tədris olunduğu Avropa Azərbayan Məktəbinin yaradılmasında da Asif Cahangirov yaxından iştirak edib.

2021-ci ildə Əməkdar müəllim Asif Cahangirovun "Təhsilimiz: dünəndən sabaha. Optimistin baxışları" adlı kitabı nəfis şəkildə Azərbaycan və rus dillərində nəşr olunub. Bir sıra elm və təhsil müəssisələrində təqdimatı keçirilən, Azərbaycan təh-



silinin retrospektiv mənzərəsi əks olunan bu kitabda müəllif müqayisələrin fonunda qlobal ölçülərə, zəngin beynəlxalq təcrübə nümunələrinə əsaslanaraq, təhsil siyasətinə aid bir sıra aktual məsələləri, bu günün ehtiyaclarını ümumiləşdirib. Sadə, anlaşıqlı dildə, dialoji formada yazılmış "Təhsilimiz: dünəndən sabaha" kitabı bütün sosial kateqoriyalardan olan və təhsil problemlərinə maraq göstərən oxuculara ünvanlanıb.

Asif Cahangirovun xidmətləri yüksək qiymətləndirilib. O, Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə ümummilli liderimiz Heydər Əliyevin imzaladığı 18 mart 2000-ci il tarixli sərəncamla "Əməkdar müəllim" fəxri adına layiq görülüb. Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak etdiyinə görə isə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 18 noyabr 2017 -ci il tarixli fərmanı ilə "Tərəqqi" medalı ilə ilə təltif olunub.

Asif müəllim "Bakı Dövlət Universitetinin 100 illiyi" yübiley medalı, "Azərbaycan Respublikasının maarif əlaçısı", "SSRİ maarif əlaçısı" və digər döş nişanları ilə də mükafatlandırılıb.

Milli-mənəvi dəyərlərimizin qorunmasına, tarixi həqiqiələrin, xüsusən də Qarabağla bağlı gerçəkliklərin təbliğ olunmasına töhfələr verən milli ruhlu vətəndaş Asif Cahangirovun də qəlbi uzun İllər yağmalanmış yurdların, işğal olunmuş torpaqların ağrısı ilə döyünüb.

Ulularının vətəni Xocavənd rayonunun Tuğ kəndinin, Füzuli rayonunun düşmən tapdağında qalması, məcburi köçkünə çevrilmiş soydaşlarının taleyi 30 ilə yaxın bir zaman kəsiyində Asif Cahangirovun da bütün varlığını sarsıdıb. Hər bir Azərbaycan vətəndaşı kimi, Asif müəllim də daim əmin olub ki, ulularımızın əmanəti olan torpaqlarımız tezliklə azad ediləcək, Qarabağın üzərindən qara buludlar çəkiləcək. Bəli, Asif Cahangirov yanılmayıb. 27 sentyabr 2020-ci il tarixdən başlayaraq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Qarabağ işğaldan azad edildikdən sonra Asif müəllimin də qəlbindən vətən nisgili çəkilib. Onilliklərdən sonra ulularının doğma yurdunu ziyarət etmək xöşbəxtliyi, Tuğ kəndini qarış-qarış gəzmək səadəti Asif Cahangirova nəsib olub. Beləcə, Asif Cahangirov ömrünün ən xöşbəxt, qürurlu, duyğusal və kövrək anlarını yaşayıb.

Asif müəllim təhsilimizin gələcəyinə böyük ümidlər bəsləyir. Azərbaycan təhsilinin daim inkişaf, tərəqqi yolunda olması onun ən ali arzularındandır:

"Doğma təhsilimizin əldə etdiyi uğurları yüksək qiymətləndirir, yenilikləri məmnuniyyətlə qəbul edirəm, Bununla belə, təhsilimizi iri addımlarla irəliləyən, yenilənən, innovativ inkişaf yolunu əsas istiqamətverici amil götürərək, qısa müddətdə dünya təhsilinin ən yaxşı nümunələri sırasında görmək istəyirəm. Bunun üçün kifayət qədər geniş imkanlarımız var. Əminəm ki, tez bir zamanda öyrənmək mərhələsini başa vurub, qlobal məkanda bizdən öyrənmək strategiyasını reallaşdıracağıq. Doğma təhsilimizin əldə etdiyi uğurları yüksək qiymətləndirir, yenilikləri məmnuniyyətlə qəbul edirəm, Bununla belə, təhsilimizi iri addımlarla irəliləyən, yenilənən, innovativ inkişaf yolunu əsas istiqamətverici amil götürərək, qısa müddətdə dünya təhsilinin ən yaxşı nümunələri sırasında görmək istəyirəm. Bunun üçün kifayət qədər geniş imkanlarımız var. Əminəm ki, tez bir zamanda öyrənmək mərhələsini başa vurub, qlobal məkanda bizdən öyrənmək strategiyasını reallaşdıracağıq..."

Zəngin təcrübəyə, böyük istedada, yüksək mənəvi keyfiyyətlərə və idarəçilik qabiliyyətinə, tükənməz enerjiyə malik Asif Cahangirovun təhsil təşkilatçılığı ictimaiyyət nümayəndələri tərəfindən dəfələrlə dəyərləndirilib. AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevin fikrini qeyd edərək Asif müəllim haqqında dəyərli fikirləri ümumiləşdirmək olar:

**"Asif Cahangirov bütün şərəfli ömrünü ölkəmizdə təhsilin təşkilinə və inkişafına həsr etmişdir. O, qabaqcıl dünya təhsilini dərindən bilən, təhsilimizin modern dünya məktəbləri təhsilinə inteqrasiya olması sahəsində misilsiz tövhə vermiş əsl ekspertdir. Bu sahədə onun ərsəyə gətirdiyi kitabları təhsil sferasında çalışan insanlar üçün masaüstü kitablar saymaq olar. Bütövlükdə Asif Cahangirov ölkəmizdə elm, təhsil və mədəniyyətin inkişafına müstəsna töhfələr vermis və silinməz izlər qoymuş əsl ziyalıdır".**

**Hikmət Xudiyev (Cəmilzadə),**
**Əməkdar jurnalist, tarix üzrə fəlsəfə doktoru, istefada olan polkovnik**

# Zakir Fəxri: "Xaricə gedəndə xəcalət çəkirdik, qələbə qazandıqdan..."

**"Bu böyük vətəndir. Gərək ki, tarixi izləyəsən. Ərdoğan türk dünyasına yüz ildə bir gələn doğrudan da ləyaqətli liderdir. Onun bu qələbəsi Türkiyəylə bərabər, bizə də çox vacib lazım idi"**

Bunu Adalet.az-a açıqlamasında şair Zakir Fəxri deyib. Zakir Fəxri Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyənin çox inkişaf etdiyini bildirib:

"Sinə gərmək, qarşıda durmaq, düzgün siyasət aparmaq, əyilməzlik, qürur, hamısı burda var. Mən 1989-cu ildən Türkiyəyə gedib-gəlirəm. Ərdoğan prezident seçiləndən sonra birinci beş il ötdü, ikinci beş ildə yadıma gəlir ki, Türkiyədə çox gözəl layihələr başladı.

Yəni hər il böyüyə-böyüyə gedən bir Türkiyə gördüm. Bu seçkini də beş gün çox həyəcanla izlədim. Təsəvvür edin ki, bu adam dünyayla təkbətək döyüşə çıxdı və çox şəffaf seçki keçirdi. Sizi inandırım ki, kənarda, Avropada, bir çox dövlətlərdə



bu cür seçkinin keçirilməsinə şübhə edirəm.

İndi artıq çox böyük bir türk gəncliyi yetişir və inanıram ki, bu, hardasa yetmiş faiz Turanın köklərini quracaq. Mən türk ədaləti qədər yer üzündə ədalət tanımıram. İndi bir daha xatırlayaq ki, Azərbaycanın otuz il torpağı işğal altında qaldı. Hamı üzün tutub Avropadan, Amerikadan pənah umdu. Sual verirəm ki, bu işə barmaq qoyub, onlara deyən oldumu ki, sən özgə torpağını işğal etmisən? Xeyr. Öz maraqlarını güddülər. Ərdoğanın seçilməsi bizim dövlət başçımıza çox vacib lazım idi. Ona arxadır. İlham Əliyev tək vuruşur, bunu qəbul etməliyik. Hər şeyin başı vətəndir.

Bu vətənə görə hamı cənab prezident İlham Əliyevi dəstəkləməlidir. Bütün dünyanın diqqəti Türkiyədəki seçkilərdə idi. Ərdoğanı təbrik edənlər bunu içdən təbrik etmirdilər. Sadəcə yolları qalmadı, onunla işləməli olacaqlar. Bizim qürurumuz qalxdı. Otuz il idi ki, biz xaricə gedəndə xəcalət çəkirdik. Vətən müharibəsindəki qələbəmizdən sonra qədim kökümüz oyandı".

**Vasif Əlihüseyn**



Fidan Abdurəhmanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

# UŞAQLIĞI ŞEİRLƏRDƏ YAŞAYAN ŞAİR

**XX yüz ilin modern şairləri "Kimse duymadan ölmeliyim \\ "İntihar" yazan, erkən ölümü ilə ömrünə və yaradıcılığına son qoyan 36 yaşlı Orhan Vəli, "Kapımı çalıp durma ölüm,\\ Açmam; \\Ben ölecek adam değilim" - ölümdən uzaqlaşa bilməyən 46 yaşlı Cahit Sıtkı, "Sevişen yaramaz çocuklar gibi" bir gün ağlayan, bir gün gülən 41 yaşında gözlərini yuman Sabahattin Ali artıq əsrin əvvəllərindən varlıqları ilə öz axınını başlamışdırlar.**

Şeirlərinin metafazik başlanğıcını Əbdülhak Hamiddən (1852), daha sonra Necip Fazıl Kısakürek (1904) və Ahmet Kutsinin (1901) poeziyasında özünü göstərən bu üslubu - Erdem Bayazıt (1939), Cemal Süreya (1931), Bahattin Karakoç (1930), Abdurrahim Karakoç (1932), Sezai Karakoç (1933) və Cahid Zarifoğlu (1940) davam etdirdi. Xüsusilə ötən əsrin ortalarında dünya müharibələrinin bitdiyi dönəmlərdə uşaqların böyüməsində, onların duyğu və düşüncələrinin toparlanmağında ədəbiyyatın - şeirin böyük rolu vardır. Bu şairlər arxa cəbhədə, çətinliklərlə üz-üzə böyüyən uşaqlardır. Bəlkə də bu səbəbdən coxunun "Çocuqluğum" adlı şeiri vardır:

*Peygamberin günümüzde küçük sahabileri biz çocuklardık,*
*Bediri, Hayberi, Mekkeyi özlerdik, sabaha kadar uyumazdık.*

**(Sezai Karakoç)**

**Caddeler komada, ağaçlar sarhoş**
**Kaybettim, gören yok çocukluğumu.**

**(Abdurrahim Karakoç)**

**Aşığın avuç açıp doldurduğu sularla**
**Ki ölenler vardı sularla küçüklüğümün oralarda**
**Elim yarım ve bilgisiz uzanarak**
**Her şeyim çocukluğum.**

**(Cahid Zarifoğlu)**

Modern Türk şeirində müstəsna ifadə tərzi ilə seçilən şair Cahit Zarifoğlu uşaqların sevinc və kədərlərinin üfüqündəki qayğıları həssaslıqla poeziyaya gətirir.

Soyadı kimi zərif dünyası olan ("bir incelik gösterin \\ incinmesin yüregim") Cahid Zarifoğlunun həyatının uşaqlıq dönəmləri onun qaranlıq kabusu idi. Atasının onları atıb getməsini, yenidən ailə qurmasını öz günahı kimi yaşayan şair , iyul ayının ilk günü 1940-cı ildə Ankarada doğulmuşdur.

Özündən bir yaş böyük qardaşı Saitə "Baba Sait" deməsi bir ataya ehtiyac duyaraq yaşamasından xəbər verirdi. "Ağacsız, gölgeliksiz bir yer var, benimle birlikde büyüyen..." (Kemal Özer, "Bir yer var", Harika dergisi, 25 ağustos, 1951). Uşaqlıqda dərin yalnızlıqlara qapılması insanlarla bərabər kitablardan da özünü uzaq tutması səbəbindən məktəb yoldaşlarından 3 il sonra məzun ola bilmişdi. Ən qəribəsi isə gələcəyin böyük şairi Cahid Zarifoğlunun məhz ədəbiyyat dərslərindən sinifdə qalması idi. Sonralar özü şeir, ədəbiyyat yaratdı: əvvəl təkliyi, sonra isə yaşamağı öyrətdi misralarında...

Hər gecə yatmazdan əvvəl uşaqlar üçün nağıllar yazardı. Yazacağı nağılları hər gün uşaqlarına da danışardı. Bir gün qızından danışdığı nağılın sonunun necə bitməsini soruşdu. Uşaqlar heyrətə gələrək: "bizim istəyimizləmi bitəcək? Biz də elə bilirdik həqiqi nağıllardı, atamız özündən uydururmuş" - deyə təəccüblənirlər.

Gənc atanın uydurmaları hər gecə mayalı xəmir kimi aşıb daşırdı. Bəlkə də bu onun uşaqlıqda eşitmək istədiyi nağıllar idi... Uşaqlığını keçirməyən böyüklər gecələri uşaq olurmuş. Hamı yatandan sonra gecənin yalnızlığında öz şirin nağıllarına qovuşa bilirlərmiş... Valideynlərinin səhvi, xüsusilə atasının uşaqlığına vurduğu yaranı sağaltmaq üçün hər gecə bir hekayə yazıb bitirmək istəsə də əksinə bu yaranı daha da dərinləşdirirdi: "Ne korkunç bir iklimdi çocukluğum \\ Uyku yansın Yürek mecburlansın" (İşaret Çocukları).

Uşaqlıqdan ən böyük arzusu pilot olan şair uçuş dərslərinə getsə də, uça bilmədi. Səhhətindəki problemlər təyyarəçi olmağa mane oldu. Göyün sonsuz asimanının möcüzəli qatlarında itmək arzusu şairdə pilot olmaq, uçmaq həvəsini yaratmışdı. Lakin, dövrünün böyük şairi Nəcib Fazil "yeddi gözəl adam"dan biri Cahidi tanıdıqdan sonra "uçmak için illa pilot olması şart değil" demişdi və gənc şairə yaşayaraq uçmağı öyrətdi. Çünki Cahid Zarifoğlunun əbədi məkanı idi sonsuzluq... Ürkək və məsum uşaqların üzlərində minlərcə iqlim görən şair "Haziran gibiydi çocuklar \\ yakmayan sıcaklıklarıyla" bu təmiz həyatda nə böyük günah etdik, böyüdük, deyir "Kalsam" şeirində:

***Kalsam,***
***Sığdıramam***
***Bu deli maviyi ihanet kokan soluğuna***
***Metropollerin.***

Yaxud, bütün həyatı boyu mavilik axtarışında olacaq, "Mavi gök orda mı" şeirindəki kimi:

***Çok geçmeyecek aradan***
***Şöyle diyeceğim:***
***Bulutlar açmadı***
***Mavi gök orda mı...***

Camal Sürəyanın "Şarkısı beyaz" (Mülkiyyə, ocak, 1953) şeirindəki mavilik isə dənizdən göylərə ucalan dalğaların ağuşunda idi:

***Sonra dalgalar geldi dile***
***Sonra bir mavilik aldı her yerimizi;***
***Nasıl hatırlıyorsan dünyayı***
***Öyle.***

Uçmağı öyrənmədən bu dünyadan köçən və insanlıq adına narahat olan şair: "O sabah ezan sesi gelmedi camimizden. Korktum bütün insanlar için..." yazmışdı dünyanın nəzərində olan bir şəhərə həsr olunmuş "Bugün Kudüste ezanlar susturulmuştur" şeirində. Tələbəlik illərindən şeir yazan Cahid, dünyanın süjet xəttini sevgi ilə çizən və bütün haqsızlıqlara eşqlə cavab verən Cemal Süreyyanın oxucusu və heyranı idi. Bu heyranlıqdan doğan bir cəsarətlə o dövrünün böyük şairi Cemal Süreyyaya: "İstanbul'a döndüğünüzde sizinle ev tutup birlikte oturabilir miyiz?" deyə Fransaya məktub yazmışdı. O zaman Cəmal Süreyya gənc şairin bu istəyini həddini bir qədər aşmış ərk kimi qəbul etsə də, Cahid Zarifoğlunun dəfnində öz gündəliyinə yazmışdı: "Cahit Zarifoğlu ölmüş. Bugünün adı bu olacakmış İyi şairdi. İlk şiirleri de iyiydi. Daha yüz yüze gelmeden, 1962'de bana, Paris'e bir mektup yollamıştı. Saklamamışım o mektubu".

Dünyanın hisslərini ruhunun zərif boşluqlarında yaşadan şair nə uşaqlığını nə də qocalığını yaşadı... 1987-ci ilin iyun ayının yeddinci günündə İstanbulda əbədi sonsuzluğa qovuşdu. Dünyaya sevgisi isə uşaqlardan başlayan şair, uşaqlığını uşaqlar üçün yazdığı şeirlərdə ən əziz körpəsi kimi qoruyaraq, yaşatdı... İllər sonra bütün pullarını toplayaraq uşaqlar üçün yazdığı "İşarət çocuqları" kitabını nəşr etdirir. Təəssüf ki bu kitabı uşaqlara paylamaq ona nəsib olmur. Evində yer olmadığı üçün dostunun dayısının emalatxanasına yığan şair, bir müddət sonra kitablarının isinmək üçün yandırıldığını duyur və çox sarsılır.

***Anam kanları kuruyan***
***Kavga ayıran bir kargı elinde***
***Kara ocağın taşlarına***
***İşaret koydu çocuklarını***
***Belinde gezdiren babamın***
***Beyaz yazılarla kazandığı adları***

"İşaret Çocukları"ndan sonra - "Serçekuş", "Ağaçkakanlar", "Katıraslan", "Yürekdede ile Padişah", "Motorlu Kuş", "Küçük Şehzade", "Kuşların Dili", "Gülücük" ve "Ağaçokul" adlı şeir və kitablarını yazdı şair.

Müasir nağıldan ibarət "Serçekuş" şeirində (1983) dünyaya uşaq gözü ilə baxan bir sərçənin yer üzündə insanlardan qorunmaq üçün Günəşi tanrı bilib göylərə uçmaq istəyindən və bu səbəbdən hər səhər dünyanı seyr edərək şükr etməsindən söhbət açılır:

***İşte doğa işte ben***
***Karşılıklı bir sabah sohbetindeyiz***
***İnce ağızlı kelebek sancağımda***
***Çekirge dikkatli***
***Serçekuş***
***Gagası avucumda***
***Tablomuz hazır.***

"Cahit Zarifoğlu'nun şiiri ve edebiyatı, çocuk gövdeli şiirin ve edebiyatın uzağında değil. Zarifoğlu şiiri, acı, baba-oğul çatışması, aşk, metafizik ve çocuk gövdeli bir şiirdir" (Mustafa Ruhi Şirin)

Həyatının ən vacib məqamı şeir, ən sevincli anı şeirlərini yayımlamaq olan Cahid Zarifoğlu - yaşları bilinməyən uşaqların yaddaşlarında yaşayacaq...

**Türkiyədə nəşr olunan "İzdiham Dergi"nin maraqlı bir kredosu var: "Hepimiz ölecek yaştayız". Bəli, ölümün yaşı yoxdu, insanların bu dünyadakı müsafirliyini yadıcılıqları və yaratdıqları təyin edəcək.**

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

№ 21 (2345) 2 iyun 2023-cü il

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# AZAD SÖZÜN İŞIĞI

**Deyirlər ki, sözdən güclü silah yoxdur və söz istənilən hədəfə dəyəndə istər-istəməz öz bəhrəsini və nəticəsini verir. Sadəcə olaraq, hər sözü vaxtında və zamanında demək lazımdır. Təsadüfi deyil ki, sözün qüdrətiylə bağlı böyük şairimiz Məhəmməd Füzuli də öz kəlamlarını deyib. Yəni, sözün gücü və sirri özü də bir dünyadı və bu dünyanı biz insanlar zaman-zaman görürük, şahidi oluruq, başqa sözlə demiş olsaq, elə o sözlərdən və kəlamlardan özümüz də istifadə eləyirik!**

Heç də ölkəmizdə həmişə fikir, söz, məlumat azadlığı, plürealizm olmayıb. Vaxtilə zamanında deyilən haqq sözə, ədalətli fikrə və düşüncəyə görə Hüseyn Cavidi, Mikayıl Müşfiqi, Əhməd Cavadı və digər böyük ziyalılarımızı güllələyiblər. Çünki Sovet hökuməti qurulanda onun mayası saxtakarlıqdan, ədalətsizlikdən və haqsızlıqdan yoğrulmuşdu. Kommunistlər kimi düşünməyən, onlar kimi yaşamayan və onlar kimi də mövqe tutmayan ziyalılar həmişə təqib olunnrdu, izlənilirdi və "KQB"nin nəzarətində idi. Bəzən də danosbazlar haqq və ədalətli mövqe tutan şairlər, yazıçılar haqqında yuxarılara elə məlumat verirdilər ki, guya bunlar Vətən xainləridir. Hansı ki, bu adamlar Vətəni hamıdan çox istəyirdilər. Sadəcə olaraq, azad düşüncələrinə və milli mövqelərinə görə ağır işgəncələrə düçar olurdular. 1937-ci ildə bax neçə-neçə belə söz aşiqi, düşüncə aşiqi və xalqını, millətini sevən vətənpərvər ziyalılar məhv edildilər!

Biz bu gün həmin illəri xatırlayanda dəhşətə gəlirik. Necə yəni, başqa cür düşünən, azad fikir və söz söyləyən insanlar niyə güllələnməliydi?! Amma nə yaxşı ki, Azərbaycan müstəqillik qazanandan sonra ölkəmizdə mətbuat, söz, fikir azadlığına "yaşıl işıq" yandırıldı. İndiyə kimi yaxşı yadımdadır. Biz 1974-79-cu illərdə Azərbaycan Dövlət Universitetində oxuyanda ali məktəbin yataqxanasında securities səməni göyərtmişdik və Novruz bayramını qeyd eləmək istəyirdik. Ancaq bunu bilən yuxarılar yataqxanaya gəldi, biz tələbələri millətçilikdə ittiham elədilər. Dedilər ki, səməni göyərtməklə antisovet təbliğatı aparırsınız, elə eləməyin ki, universitetdən sizi qovaq! Əgər Mir Cəlal Paşayev kimi, Şirməmməd Hüseynov kimi, Bəxtiyar Vahabzadə kimi, Şamil Qurbanov kimi, Firudin Hüseynov kimi böyük ziyalılar olmasaydı, o vaxt bizim bir neçəmiz ya həbs olunmuşduq, ya da universitetdən qovulmuşduq. Nə varnə var Novruz bayramı səməni göyrətməklə keçirtmək istəyirdik!

Şükürlər olsun ki, ölkəmizdə bayaq dediyimiz kimi, söz, mətbuat və fikir azadlığına geniş meydan verilib. Hələ Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələn kimi mətbuatla bağlı bir çox qadağalar qısa zaman kəsiyində aradan qaldırıldı. Hər hansı qəzetin fəaliyyət göstərməsi üçün onun açılması sahəsində heç bir çətinlik qalmadı. Hər bir jurnalist və hər hansı başqa bir adam qəzet təsis edə bilər və onu çap etdirirdi. Mətbuat sahəsindəki sıxıntılar, çətinliklər və eləcə də digər problemlər Ulu Öndərin hakimiyyəti dövründə öz müsbət həlliin tapdı. Hətta çoxlu sayda qəzetin və o cümlədən müxalifət yönümlü mətbuat orqanlarının "Azərbaycan" Nəşriyyatına olan borcları ləğv edildi. Bu siyasi xətt Prezident İlham Əliyev tərəfindən də uğurla həyata keçirilməyə başlandı.




Bu gün Azərbaycanda 5 mindən çox çap mətbuatı qeydiyyatdan keçib, son dövrlərdə isə sayı-hesabı bilinməyən sayıtlar açılıb. Və bu sayıtlara və qəzetlərə dövlət tərəfindən maliyyə dəstəyi də göstərilir. Başqa sözlə demiş olsaq, azad sözün təbliğində çox böyük rol oynayan çap mətbuatına, sayıtlara, televiziyalara, o cümlədən qeyri-hökumət təşkilatlarına münbit şərait yaradılıb. Eyni zamanda hər bir Azərbaycan vətəndaşı, hər bir insan çox sərbəst, azad şəkildə öz fikirlərini söyləmək hüququna malikdir. İndi hansı sayıta baxırsan və görürsən ki, orada heç bir senzuradan, sözə qoyulan məhdudiyyətdən söhbət gedə bilməz.

Ölkənin ən yüksək vəzifəli şəxsləri mətbuatda, eləcə də elektoron-kütləvi informasiya vasitələrində tənqid olunur. Hətta bu tənqid bir çox halda ədalətsiz, qərəzli olsa belə dövlət və hökumət buna görə həmin mətbuat orqanları məhkəməyə vermir və onlara şərait yaradır ki, səhvlərini düzəltsinlər, qərəzli mövşqe tutmasınlar. Amma çox təəssüf ki, bəzi sayıtlar və eləcə də qəzetlər demokratiyadan, söz azadlığından və fikir plürealizmindən sui-istifadə edərək "qırmızı xətti" keçirlər. Demokratiya o demək deyil ki, kimisə söyəsən, təhqir edəsən, alçaldasan. Demokratiya odur ki, öz fikrini və düşüncəni mədəni və sivil formada cəmiyyətə çatıdrasan və cəmiyyət də ondan nümunə götürə!

Fikir və söz azadlığının ən bariz nümuənsindən biri də sosial şəbəkələrdir. Bu gün sosial şəbəkələri izləyənlər mətbuatı və sayıtları izləyənlərdən qat-qat çoxdur. Mən bir ziyalı olaraq sosial şəbəkədə yoxam, ancaq



sosial şəbəkədə dəyərli ziyalılar da var və onların işıqlı fikirləri cəmiyyət tərəfindən hörmətlə qarşılanır. Təəssüf ki, bir çox sosial şəbəkə istifadəçiləri nəinki ayrı-ayrı şəxsləri hörmətdən salır, nüfuzlarına xələl gətirir, hətta dövlətə və dövlətçiliyimizə böhtan atır, şər deyir və söyüş söyürlər. Bu, bir daha onların mənən çox kasıb olduğunu, zəlil və bədbəxt günə qaldıqlarını təsdiq edir. Allah bir adama cəza verəndə çox vaxt onun ağlını başından alır. Söz və mətbuat azadlığından istifadə edib, sosial şəbəkələrldə dövlətimizən əleyhinə təbliğat aparanların da Allah ağlını alıb.

**Bugünkü Azərbaycan çox güclü, çox qüdərtli və çox möhtəşəm bir dövlətdir. Çünki bu müstəqil dövlətin əsas qurucusu olan Ulu Öndər Heydər Əliyev və onun siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev demokratik, hüquqi, dünyəvi bir dövlət yaradıb. Eyni zamanda dünyanın ən inkişaf etmiş ölkələri Azərbaycanla siyasi, iqtisadi və hərbi əlaqələr qurmaq istəyir. Çünki bayaq dediyimiz kimi, dövlətimiz dünyaya inteqrasiya olunub, özünün tutduğu demokratik yolla addımlayır. Bu yolda təbii ki, söz, mətbuat, fikir azadlığı və plürealizm daima inkişaf edir, insanların dövlətə və hökumətə məhəbbəti daha da artır. O yerdəki insna özünü azad hiss edir, düşüncəsini və fikrini cəmiyyətə bildirir, təbii ki, həmin məkanda vətəndaşlar özlərini daha rahat, daha sərbəst və daha xoşbəxt hiss eləyirlər.**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN
MALİYYƏ YARDIMI İLƏ

# "Ümid çırağı" və "Ömrün illəri" Əli Yusifin tale pasportudur



*Hüseyn İsaoğlu,*
*(Məmmədov)*
*Yazıçı-publisist*

**Allah bir çox insana şairlik verdi. Şairlik uca məqamdır. Çoxları üçün əlçatmaz görünən uca məqam. Xoş o adamın halına ki, şairdir...**

Şeir də ruhun qidasıdır. Şeirlə çox vaxt ürəklərdə həzin hislər yaratmaq mümkün olur. Bəzən cəmiyyətlər şeirin gücü ilə çətinliklərdən çıxış yolu tapırlar. Biz də şeirin hənirtisi ilə çox vaxt özümüzü sıxıntıdan qurtarmışıq...

Bir müddətdir tanıdığım Əli Yusif də şeirin istisi ilə könüllərə sığal çəkir. Qarşımda Əli Yusifin 2023-cü ildə "İmza" nəşrlər evi tərəfindən buraxılmış iki kitabı var: "Ümid çırağı" və "Ömrün illəri". Hər iki kitab nəfis tərtibatla oxucuların ixtiyarına verilib. Hər iki kitabın redaktoru tanınmış şair Balayar Sadiqdir.

Əli Yusifin "Ümid çırağı" kitabında ictimai-siyasi səciyyəsi və mövzu əlvanlığı ilə seçilən şeirləri toplanıb. Annotasiyadan da göründüyü kimi, "səmimi ovqat, poetik özünəməxsusluq və bədii-fəlsəfi düşüncə bu şeirlərin əsas qayəsidir".

Əslində, adıçəkilən kitabda Əli Yusif daha çox taleyi əxz edir. Elə kitaba ön söz yazan Balayar Sadiq də buna işarə vuraraq deyir: "Şairlik təkcə şeir yazmaqla tamamlanmır, bu, bir tale işidir...".

Əli Yusifin "Ümid çırağı" kitabında müxtəlif mövzulu şeirləri toplanıb. Lakin hər şeirdə bir tale səciyyəsi var. Bunu numünələrlə isbatlayaq:

*Niyə belə coşub-daşırsan, dəniz?*
*Mən səni beləcə heç görməmişəm.*
*Xətrinə kim dəyib, söylə sən mənə,*
*Səni dərdlərimə dərman bilmişəm.*
***
*Neynim, xatirəyə bələnib ömrüm,*
*Şirin xatirədi hər ötən günüm.*
*Könül zirvəsində kövrəlib sözüm,*
*Özümü axtardım, görən oldumu?!*
***
*Boşalıbdı solum-sağım,*
*Quruyubdu bağça-bağım.*
*Məzarına necə baxım,*
*Dostum, canım, de, hardasan?*
***
*Ürəyim xəlvətcə yuxudan ayıldır məni,*
*Körpə anasını səsləyən kimi.*

*Ayılıb görürəm ki, gecə keçib yarıdan,*
*Göydə ulduzlar sayrışan kimi*
*Ürəyim çırpınır...*

*Gəncliyimiz bəyaz qartək*
*Yağdı bizim ömrümüzə.*
*Heç bilməzdik əriyəcək,*
*Qalmayacaq bir nişanə...*

Bu və bu kimi şeirlərdə mövzu fərqli, lakin hiss, həyəcan, çırpıntı eynidir. Yəni, hadisələrə yanaşma tərzindən asılı olmayaraq müəllif hər şeirdə bir tale sızıltısı göstərib. Nümünə kimi verdiyimiz şeirlərdə dənizin də, insanın da, hətta zülmət gecənin də tale çırpıntısını hiss edirik. O səbəbdən, əmin oluruq ki, şairlik həm də bir tale işidir...

Əli Yusifin "Ömrün illəri" kitabında da başqa təsir vasitələri ilə yanaşı tale işi əsas komronentdir. Burada da müəllif taleyi insanın, əşyanın və s. əsas həyat səciyyəsi kimi qabardıb. Nümunələrə diqqət çəkək:

*Mənim dərdlərimə sən çarə idin,*
*Dərdinə mən indi olmuşam məlhəm.*



*Salıb əldən məni ağrıyan canım,*
*Ağrısız keçməyir ötən hər anım.*
*Bu canla oduna mən necə yanım,*
*Hər şey düşüb gözdən, can hayındayam...*

Bu nümunələrdə də hissin, duyğunun, poetik sızıltının əsas qatında tale göynərtiləri durur. Şair taleyi insanın əsas amalı kimi səciyyələndirir, onu dünyadakı hər şeyin mühüm aspekti hesab edir.




*Payıza yetişmiş vaxtıma gəldin,*
*Qəm etmə gözəlim, yenə səninəm.*
***
*İnanma yenidən görüşərik biz,*
*Artıq getdi əldən o illərimiz.*
*Solğun çiçəklərə döndü qəlbimiz,*
*Görən kim günaha batdı bu eşqdə?!*
***
*Ürəyim darıxır bu payız günü,*
*Tənhayam, kövrəyəm yarpaqlar təki.*
*Ağacdan yarpaqlar tökülür bir-bir,*
*Gözümdən tökülən damcılar təki...*

Açığını deyim ki, Əli Yusifin hər iki kitabında taleyə nüfuz eyni çalarda, eyni rəngdədir; şair bu vacib nüansı həyat üçün səmt, yol və dönüş kimi xarakterizə edir, oxucusunu sıxıntıdan qurtarır.

Həm "Ümid çırağı", həm də "Ömrün illəri" Əli Yusifin tale pasportudur. Burada konkret məqam elə konkret düşüncə ilə də poetik rəng alıb. Buna görə oxucu hər iki kitabın səmimiyyətinə inanır.

Mən Əli Yusifin adıçəkilən kitablarında əslində, daha çox poetik çalara rast gəlirəm. Lakin bu yazıda mən əsasən tale işinə daha çox toxunmaq, taleyin insan həyatında hansı təsirlərə səbəb olduğuna diqqət çəkmək istəyirəm. Demək istəyirəm ki, müəllifin ara-sıra taleyi rəngli-rəngsiz formada təqdim etməsi həyatın insana vurduğu təsirlərlə bağlıdır.

Həm "Ümid çırağı", həm də "Ömrün illəri" kitabında bu nüansları da oxuculara göstərək:

***Gözlərin elə bil öz gözlərimdi,***
***Onunla dünyanı seyr edirəm mən.***
***Gözlərin könlümün qurur nəğməsi,***
***Onunla, əzizim, fəxr edirəm mən.***
***
***Keçib illər, bu sən, bu mən,***
***Neçə ildir görünmürsən.***
***Dərd-sərimdən xəbərsizsən,***
***Sən cavansan, axtar məni.***

Bu nümunələr "Ümid çırağı"nın rəngli-rəngsiz tale çalarlarıdır. "Ömrün illəri"ndəki çalarlar da buna bənzərdir. Nümunələrə baxaq:

***Göydən enmiş ay parası,***
***Sənsən qəlbimin aynası.***
***Neyləyim sənsiz, qadası?***
***Ömrüm, günüm, ayım sənsiz.***
***
***Tələsmişəm ömrüm boyu,***
***Səbirsizəm, tələsirəm.***
***Bu ilimi mən bir gündə***
***Başa vurmaq istəyirəm...***
***
***Oğrun-oğrun süzüb məni,***
***- darıxıram, gəl, deyirsən.***
***Sevə bilməz qəlbim səni,***
***Gecikmisən, -gəl, - deyirsən...***

Burada da taleyin rəngli-rəngsiz çaları aydın görünür. Müəllif istər xoş halında, istərsə də qayğılı anlarında taleyi eyni ovqatda tutur və bu, çox yaxşı haldır. Yəni oxucusunu düşünür, onun qayğısını artırmaq istəmir. Əgər şair yazdığı şeirdə həm də oxucusuna diqqət ayırırsa, o, alqışa layiqdir.

İnanıram ki, Əli Yusifin həm "Ümid çırağı", həm də "Ömrün illəri" kitabı oxucular tərəfindən maraqla qarşılanacaq, sevilə-sevilə oxunacaq. Çünki bu kitablardakı şeirlərdə əslində, bir tale fonunda hər kəsin taleyi, həyatı və yaşantılar əks olunub. Bu da Əli Yusifin anadan şair doğulmasından irəli gəlir.

**Əli Yusifi təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram.**

# SƏN OLMASAYDIN



*Fərəc Fərəcov*

## *GÖZƏLLİK ZİRVƏSİ*

**Gözəlliyə ünvanlanıb yurdumuz,**
**Keşiyində keşik çəkir ordumuz.**
**Yorulmayır çalışmaqdan qolumuz**
**Tuş eyləyir ucalığa həvəsi,**
**Yaradılıb gözəlliyin zirvəsi.**

**Yüksəlişdən vücudum gəlir coşa,**
**Bu yerlərdə ağılla zəhmət qoşa**
**Düşünən baş, quran əllər, min yaşa,**
**Düşməninə od püskürür nəfəsi,**
**Yaradılıb gözəlliyin zirvəsi.**

**Vəsf etməyə qələm aciz, sözüm çox,**
**Ayrı düşsəm, ayrılığa dözüm yox.**
**Hələ səndə gözə dəyən izim yox**
**Hər addımda gəl-gəl deyən guşəsi,**
**Yaradılıb gözəlliyin zirvəsi.**

**Öz-özünə yaranmayıb bu büsat,**
**Ulu rəhbər arzusudur qur, yarat.**
**İndi yurdum bütün yurdlardan abad**
**Heyran edir Naxçıvanım hər kəsi,**
**Yaradılıb gözəlliyin zirvəsi.**

## *SƏN OLMASAYDIN*

**Mehvərindən qopurdu düşüncəmiz, ağlımız**
**Tük üstə əsim-əsim əsirdi varlığımız.**
**Hara gedir bu diyar, hara gedir bu ölkə?**
**Gizlində gəzinirdi cəllad tək qara kölgə**
**Sən olmasaydın.**

**Xəyanət toxumları səpilirdi ölkəyə.**
**Yatmış qeyrətimizi yoxdu kimsə silkəyə**
**Əlifbadan bixəbər nadan keçirdi başa,**
**Ümidlər əriyirdi, Inam dönürdü daşa**
**Sən olmasaydın.**

**Qulaqlara dəyirdi hər gün qorxunc sədalar,**
**Adiləşirdi artiq nahaq qanlar, qadalar.**
**Açılırdı səhərlər qara tabut səsinə**
**Bürünürdü asiman analar naləsinə**
**Sən olmasaydın.**

**Zərrələrə bölünmək sualı çıxdı üzə**
**"Ölüm" "Qalım" Nidası-dayandılar diz-dizə**
**Aman! Nələr gəlirdi millətimin başına**
**Min oyun açılırdı torpağına, daşına**
**Sən olmasaydın.**

**Sahib çıxa bilmirdi haqlı olan haqqına,**
**Kürsülər verilirdi qeyrətsizə, satqına.**
**Məkrli düşmənimiz hay salırdı dünyaya,**
**"Ahları" "Nalələri" çatırdı yerdan Aya**
**Sən olmasaydın.**

**Alimlər, istedadlar basılırdı qınına.**
**Kələkbazlar, oğrular girmiş mələk donuna**
**Yox idi soraq verən düzlükdən, ədalətdən,**
**Görən nə istəyirlər, bəs bu yazıq millətdən**
**Sən olmasaydın.**

**Xainlərin niyyəti son məqama çatırdı,**
**Qardaş silah çevirib qardaşına atırdı**
**Tanrı səni yetirdi, bəxş etdi bu diyara.**
**Yetişdin, məlhəm oldun ah-naləyə, haraya.**

**Qayıtdın, qayıdışın sipər çəkdi ölümə,**
**Yenidən gülüş səsi qonaq oldu elim?**
**Ümidlər çözələndi, nəğmə dedi dodaqlar,**
**Dalğalandı hər yerdə ay-ulduzlu bayraqlar.**

**Yaranmazdı bu dövran, olmazdı bu günümüz.**
**Olmazdı əbədilik toyumuz, düyünümüz**
**Sən olmasaydın!**
**Sən olmasaydın!**

## *HAYDI, İRƏLİ !*

**Qaldın yollar ayrıcında**
**Yandın xəyanət saçında.**
**Kəsilmişdi əlacın da...**
**Yola saldın sərt illəri,**
**Vətənim, haydı, irəli!**

**Sənət nədir? Yalan olmuş.**
**Mənəviyyat talan olmuş.**
**Keçən keçmiş, olan olmuş,**
**Unutmayaq o günləri,**
**Vətənim, haydı, irəli!**

**Yetər bəsdi, qurbanların,**
**Töküldü nahaq qanların.**
**Getdi saysız cavanların,**
**Səslə bütün igidləri.**
**Vətənim, haydı, irəli!**

**Bu gün ordun, qüdrətin var.**
**Sərvətin var, hörmətin var.**
**Tanrı sənə olacaq yar.**
**Sınacaq düşmənin beli,**
**Vətənim, haydı, irəli!**

**Qoca, cavan-bir əsgərik**
**Cəsur, qorxmaz, nər əsgərik.**
**Uğrunda candan keçərik**
**Üstümüzdə Heydər əli.**
**Vətənim, haydı, irəli!**
**Vətənim, haydı, irəli!**



*İbrahim Yusifoğlu*

### Çərpələng

**-Babacan, uçurduğun**
**Quşlar niyə uçur ləng**
**-Onlar quş deyil, Asəf,**
**Çərpələngdi, çərpələng.**

### Çağlayır

**-Baba, nədən göy üzü,**
**Hönkür, hönkür ağlayır.**
**-Səni görüb sevincdən,**
**Göylər coşub, çağlayır.**

### Dağdağan

**Bizim eldə-obada,**
**Belə müdrik söz gəzər:**
**-Dağdağan taxanlardan**
**Uzaq olar bəd nəzər.**

### Ulduzlar yerə yağır

**-Babacan, ay babacan,**
**Nənəmi də tez çağır.**
**Göydə olan ulduzlar,**
**Qar olub yerə yağır.**

### Günəş

**Günəş düşdü dənizə,**
**Çöhrəsi ağ bənizdə**
**Günəş çıxdı dənizdən,**
**Al qırmızı bənizdə**

### Çöngələr

**Çəmənliyə gedən yol,**
**Torpaqlı döngələrdi.**
**Otlaqda hörüklənən,**
**Dəlisov cöngələrdi**
**Dovşana bax, dovşana**

**Dovşana bax, dovşana,**
**Sığınıbdı yovşana.**
**Gözləyir ki, biz gedək,**
**Gəlib girsin bostana.**

**Dovşan girdi bostana,**
**Boylandı dörd bir yana.**
**Gördü baxan yox ona**
**Kələm yedi dostyana.**

### Pişiyin hiylələri

**Acgöz pişik gizlicə,**
**Çıxdı cücə ovuna.**
**Ana toyuq səslədi,**
**Cücələri qoynuna.**

***

**"Ovçu" pişik xəlvəti**
**Sərçəni izləyirdi.**
**Ağacın yarpaqları**
**Sərçəni gizləyirdi.**

### İydə

**Yaz günləri obadan**
**Ətirli dad, iy gələr.**
**Nənəm sevincək deyər:**
**-Çiçəkləyib iydələr!**

### Ərimir

**Qar yağanda bağçadan**
**Qaçırıq evə sarı.**
**Saçımıza yağan qar,**
**İsti duycaq əriyir.**

***

**Deyirəm ki, görəsən,**
**Bu nə sirdir, bu nə sirr,**
**Babamın saçlarına**
**Yağan qarlar ərimir?**

### Ayanın cavabları

**-Ayan, nə vaxt**
**Açır lalə**
**Yanağına**
**Qonur jalə?**
**-Yazda**

**-Aşıq əmi**
**hey saz çalır.**
**Mahnıları**
**nədə çalır?**
**-Sazda**

**-Zümzüməni**
**Güllür çaydan.**
**Harda edir,**
**Söylə, Aydan?**
**-Qazda.**

### Pöhrələr

**Yamancana sozalmışdı,**
**Xan çinarın pöhrələri**
**Su içəntək açıldılar,**
**Pöhrələrin çöhrələri.**

### Ağladı

**Xəzri yaman sərt əsdi,**
**Sular coşdu-çağladı.**
**Dəniz buna dözmədi,**
**Hönkür-hönkür ağladı.**

## Rejissor yeni işlərindən danışdı: "Sarı Aşığın dastan"ını səhnələşdiririk



**"Araşdırdıq, məlum oldu ki, azı son üç əsrdə Azərbaycan bütün ixtiralara, yeni kəşflərə açıq olub".**

Bu fikirləri Adalet.az-a açıqlamasında rejissor Elvin Mirzəyev səsləndirib. Rejissor yeni işləri barədə danışıb.

"Həm yeni ekran işi, həm tamaşa, həm də sənədli film üzərində işləyirəm. Teatrda "Sarı aşığın dastanı"nı pyesləşdirib səhnəyə çıxarmaq üçün həm dramaturqlarla, həm də aktyorlarla çalışıram. Səhnə işi bilavasitə səhnədə yaranır. Bu əsər dastan halındadır, dramaturji kontenti və konstruktu yoxdur deyə biz konstruksiyanı yaratmaq üzərində işləyirik. Yaxın vaxtlarda tamaşaçıya təqdim edə biləcəyik. "Geriyə döndükdə" adlı sənədli filmi Azərbaycanın müxtəlif dövrlərinə aiddir. Biz araşdırmalar apardıq və məlum oldu ki Azərbaycan həmişə bütün yeniliklərə açıq olub. Son üç əsrdə çıxan yeni ixtiraların hər biri Azərbaycana çox qısa müddətdə gəlib və istifadə olunub.

Vətənpərvər mövzuda da bir bədii film üzərində çalışıram. Qısa zamanda bu film barədə də açıqlama verəcəm".

**Eminquey**


## Rejissor yeni işlərindən danışdı: "Sarı Aşığın dastan"ını səhnələşdiririk

**"Araşdırdıq, məlum oldu ki, azı son üç əsrdə Azərbaycan bütün ixtiralara, yeni kəşflərə açıq olub".**

Bu fikirləri Adalet.az-a açıqlamasında rejissor Elvin Mirzəyev səsləndirib. Rejissor yeni işləri barədə danışıb.

"Həm yeni ekran işi, həm tamaşa, həm də sənədli film üzərində işləyirəm. Teatrda "Sarı aşığın dastanı"nı pyesləşdirib səhnəyə çıxarmaq üçün həm dramaturqlarla, həm də aktyorlarla çalışıram. Səhnə işi bilavasitə səhnədə yaranır. Bu əsər dastan halındadır, dramaturji kontenti və konstruktu yoxdur deyə biz konstruksiyanı yaratmaq üzərində işləyirik. Yaxın vaxtlarda tamaşaçıya təqdim edə biləcəyik.

"Geriyə döndükdə" adlı sənədli filmi Azərbaycanın müxtəlif dövrlərinə aiddir. Biz araşdırmalar apardıq və məlum oldu ki Azərbaycan həmişə bütün yeniliklərə açıq olub. Son üç əsrdə çıxan yeni ixtiraların hər biri Azərbaycana çox qısa müddətdə gəlib və istifadə olunub.

Vətənpərvər mövzuda da bir bədii film üzərində çalışıram. Qısa zamanda bu film barədə də açıqlama verəcəm".

**Eminquey**




## Messi bu həftə PSJ-dən gedir

**Bu mövsüm başa çatdıqdan sonra Lionel Messi PSJ-ni tərk edəcək.**

Qol.az xəbər verir, bu barədə məlumatı klubun baş məşqçisi Kristof Qaltye jurnalistlərə bildirib. O deyib ki, Liqa-1-ci 38-ci turunun "Klermon"a qarşı matçı argentinalı futbolçunun Paris təmsilçisində sonuncu oyunu olacaq.

"Mənim üçün dünya futbol tarixinin ən yaxşı oyunçusunu çalışdırmaq fəxr idi. "Klermon"a qarşı görüş Leonun "Park de Prens"dəki sonuncu oyunu olacaq" - deyə o bildirib. PSJ - "Klermon" matçı iyunun 3-ü, Bakı vaxtı ilə saat 23:00-da başlanacaq. Bu, PSJ-nin cari mövsümdə sonuncu oyunu olacaq.



Qeyd edək ki, 35 yaşlı Messinin PSJ ilə müqaviləsi bu mövsümün sonu başa çatır. O, klubla 2021-ci ilin avqustunda 2 mövsümlük müqavilə imzalamışdı. Messi bu mövsüm PSJ ilə bütün turnirlərdə 40 oyunda meydana çıxıb, 21 qol vurub, 20 qolun ötürməsini edib.

## Laçın məktəbi uğura imza atdı



**ADA University-nin və ADA Universitetinin Qazax Mərkəzi-nin Qarabağ Dirçəliş Fondu ilə birlikdə təşkil etdiyi "Azərbaycanın gənc qurucuları" adlı ilk layihəəsaslı olimpiadada Laçın Rayon Taxtakörpü qəsəbə tam orta məktəbi finala qalan 5 ümumtəhsil müəssisəsindən biri olub.**

Taxtakörpü qəsəbə tam orta məktəbiLaçında Hollandiya, Almaniya və s. kənd təsərrüfatı sahəsində inkişaf etmiş ölkələrdəki müasir üsulları özündə ehtiva edən "Ağıllı Südçülük və Damazlıq Kooperativi" pilot layihəsi ilə yarışa qatılıb.

Adalet.az xəbər verir ki, məktəbin müəllimi Şəbnəm Uğurlu bu barədə təbrik paylaşımı edib.

"Hər zaman inanmışam ki, çəkilən əziyyətlər yerdə qalmır. Şagirdlərimi də buna inandırmağı özümə borc bilirəm, ölkə üzrə yüzlərlə məktəbin qatıldığı ADA University-nin və ADA Universitetinin Qazax Mərkəzi-nin Qarabağ Dirçəliş Fondu ilə birlikdə təşkil etdiyi "Azərbaycanın gənc qurucuları" adlı ilk layihəəsaslı olimpiadada Laçın Rayon Taxtakörpü qəsəbə tam orta məktəbi olaraq, ölkə üzrə Finala qalan 5 ümumtəhsil müəssisəsindən biriyik! Qoşularkən bir an belə tərəddüd etmədik, əksini düşünmədik, seçiləcəyimizi xəyal edərək hazırladıq öz layihəmizi. Və budur Finaldayıq!Təbriklər əziz şagirdlər, hər gün iki saat dərsdən əlavə vaxtda uşaqları layihə üzərində çalışmağa gətirib-aparan dəyərli valideynlərimiz, biz birlikdə güclüyük!Şəffaf seçim üçün layihə yetkililərinə təşəkkür edirəm, etimadlarını doğruldacağımıza inanıram".

## Kənan MM: "Canınızı qurtarın bu sənətdən, Tiktok-a girin"



**"Bir şeyi dəqiq bilirəm, mən heç vaxt yaltaq olmayacam". Adalet.az xəbər verir ki, bu fikirləri tanınmış rejissor Kənan MM səsləndirib.**

"Mən o vaxt çox böyük qələt elədim, "Savaşçı" filmindən ayrıldım. Elə bildim burada lazımam. Elə bildim öz Vətənimin mədəniyyətinə xidmət etməyə imkan yaradacaqlar. Daha bilməzdim mən gələnə kimi büdcəni yeyəcəklər, bilməzdim TV-lər məndən serialın bir bölümünü iki min manata çəkməyimi istəyəcək, bilməzdim kanallar yalnız öz və istedadsız adamlarına dəstək olacaqlar, ögey rejissor kimi davranacaqlar və hələ də çox şeyi bilmirəm. Amma bir şeyi dəqiq bilirəm, mən heç vaxt yaltaq olmayacam. Hə, bir də, bütün mədəniyyət işçilərinə səslənirəm, vallah-billah, nə qədər gec deyil, canınınız qurtarın bu sənətdən, Tiktoka girin".

## Ulvira Qarayeva: "Geylərin qadınlara namus dərsi keçməyi də başqa, izaholunmaz hadisədir"



**Tanınmış model Razi Əliyevanın sevgilisi Ziya Hüseynzadə tərəfindən döyülməsi dünən xəbər saytlarının və sosial şəbəkələrin gündəm mövzusu olub.**

"Ən çox da qadınlar bu sözləri deyəndə adam dəhşətə gəlir". Adalet.az xəbər verir ki, bu fikirləri tanınmış aparıcı Ulvira Qarayeva səsləndirib.

"Təkcə qanun yox, cəmiyyətimiz də qurbanın əxlaqına, həyat tərzinə baxmayaraq, əzab verəni, işgəncə yaşadanı cəzalandırmalıdır. Hələ ki "demək bir günahı olub ki, döyülüb", "o yolun yolçusuna o da azdır", "bu səhvə görə döymək yox, başını kəsmək lazımdır" deyənlər var, biz daha çox əzilən, döyülən, öldürülən qadın görəcəyik. Ən çox da qadınlar bu sözləri deyəndə adam dəhşətə gəlir. Hələ geylərin qadınlara namus dərsi keçməyi də başqa, izaholunmaz hadisədir".

**Eminquey**

## "Misra-misra şeirə dönən sözəm mən"...



*Zemfira Məhərrəmli*
*yazıçı-publisist*

**Tanınmış şair-publisist, dəyərli qələm dostumuz Dayandur Sevginin ədəbiyyata gəlişi ötən əsrin 80-ci illərinin əvvəllərinə təsadüf edir. Uzun illər millətlərin azadlığının qənimi olan, artıq boyunduruğa çevrilmiş sovet rejiminin çöküş dövrü yaxınlaşırdı və bu, qaçılmaz idi. Az sonra Qarabağ hadisələri həyatımızı çulğalayacaq, öz məngənəsinə salacaqdı. Dayandur müəllim ədəbiyyata belə bir vaxtda qədəm qoymuşdu.**

Oxucular, yəqin ki, onun iyirmi ildən artıq müddətdə "Kaspi" qəzetinin ədəbiyyat əlavəsində dərc edilən yazılarını yaxşı xatırlayırlar. Bəs, "Üçrəngli göy qurşağı", "İkinci addım" və digər şeir kitablarının müəllifinin yaradıcılığında fərdilik, özəllik nədədir?

Dayandur Sevgin illər ötsə də, onu ahənrübatək çəkən ədəbiyyata rəğbətini, məhəbbətini qoruyub saxlamış, poeziyamızı mövzu rəngarəngliyi, forma müxtəlifliyi ilə seçilən canlı, diri şeirləri ilə rövnəqləndirmişdir. Ərsəyə gətirdiyi sevgi şeirləri, yurdun təbiətini tərənnüm edən, yaxud ayrı-ayrı şəxslərə yönəlik adlı-ünvanlı misraları, habelə ictimai-siyasi hadisələrə həsr olunmuş bədii nümunələri Sevgin poeziyasının canını təşkil edir. Söz adamının şeirlərini oxunaqlı edən onun həm də folklorumuza bağlılığı, aşıq yaradıcılığında geniş yayılmış lirik şeir şəkli olan gözəlləmələrə, habelə qoşma və gəraylılara müraciət etməsi, milli poeziya ənənələrimizi yaşatmasıdır.

Müstəqillik dövrü poeziyamızda öz yeri, mövqeyi var Dayandur Sevginin. İlhamına sığınıb, haqqa söykənən şairin yaradıcılığında Vətən sevgisindən barınan şeirlər də mühüm yer tutur. Dayandur müəllimin Vətən sevgisi, onun ailəsinə, övladlarına, nəvələrinə olan sevgisi qədər saf və səmimidir. Özü deyir ki, bu sevgi hər şeyin fövqündə durur:

*Yoxdu bu dünyada sənə tay, Vətən.*
*Borcunu ödəyəm əməllərimlə.*
*Sən mənim gözümsən, gözümsən, Vətən,*
*Səni qoruyaram kirpiklərimlə.*

Müəllifin əvvəlki illərdə yazdığı, poetik ovqatının əks-sədası olan neçə-neçə şeiri qəm-kədər içindən boy verir, uzun illər yanıb qovrulduğumuz Qarabağ dərdimizdən, xəyanətkar, xəbis qonşunun əliylə köksümüzə sancılmış xəncər yarasından, urcah olduğumuz qanlı savaşda əzizlərini itirən, hətta məsum körpəsi yağı gülləsinə tuş gələn analarımızın bala dərdindən söz açılır.

Şairin "Zəhraya ağı" şeiri bu qəbildəndir. Hələ 2017-ci ilin iyulunda Füzuli rayonunun Alxanlı kəndi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə məruz qalmışdı. Tikililərə, əkin sahələrinə xeyli ziyan dəymiş, dinc sakinlər güllələbaran edilmişdi. Kəndin sakini Sahibə Quliyeva və nəvəsi, azyaşlı Zəhra qətlə yetirilmişdi. Hər birimizin insanlığa sığmayan bu qətliamdan sarsıldığımız günlərdə şair "Zəhraya ağı" şeirini yazmışdı:

***Ağı deyim sənə necə,***
***Ağı dilimdən, Zəhra.***
***Nənəmi yanındaydı?***
***Qorxmadın ölümdən, Zəhra.***

***Nağıldan çıxdı düşmən,***
***Yaz ömrünə qış gəldi.***
***Zəhra alma gözləyirdi,***
***Qəfil gülləyə tuş gəldi.***

"Bütün savaşları kişilər başlasa da, ən çox əziyyət çəkən qadınlar və uşaqlar olur" fikri sözün bu məqamında yerinə düşür. Qarabağ müharibəsinin məsum qurbanlarından olan, oyuncağı ilə birgə qana bələnmiş qızcığaza uşaq diliylə müraciət edən şair düşmənin iç üzünü, yaramaz xislətini açıb göstərir:

***Nağılın şirin yerində,***
***Gör bəxtinə nələr düşdü.***
***Göydən üç alma düşmədi,***
***Göydən güllələr düşdü.***

Təsəllimiz isə o idi ki, heç bir suçu olmayan körpə Zəhra Tanrı dərgahındadır:

***Tanrı dərgahındadı,***
***Bu dünyaya baxmaz Zəhra.***
***Nənəsi yanındadı,***
***Yəqin darıxmaz Zəhra.***

Düşmən əsarətində qalan yurd yerlərimizin xiffətini, acı nisgilini ürəyindən



çıxara bilməyən şair Qarabağ düyününün açılacağı günün intizarındaydı. "Ağrılar, acılar minbir biçimdə, üzümdə təbəssüm, ancaq içimdə ağlayan gözləri görən olmadı" deyən şair digər şeirində bədbin fikirlərdən, dərd-ələmdən silkinib çıxır:

***Zalım fələk, elə bilmə hər dərddən,***
***Bu dünyadan küskün olam, bezəm mən...***
***Karvan-karvan dərd gəldikcə üstümə,***
***Misra-misra şeirə dönən sözəm mən.***

Şair "Vətəni qorumaq, əzəli torpaqlarımızı əsarətdən qurtarmaq üçün yetkin, mübariz olmaq lazımdır" qənaətinə gəlir:

***Haqsızlığa qılınc çalan yağıyam,***
***Haqq yolunda körpülərin tağıyam,***

- deyir şair.

Yaxud:

***Ürəklərdə nalədi, qulaqlarda top səsi,***
***Qaramat zindan idi azad olan ruhumuz.***
***İndi-indi düzəlir belimizin əyrisi,***
***İçimizdə boy verir, dikəlir qürurumuz.***

Dayandur Sevginin bədii nümunələri acılı-şirinli gerçəkliyə fərqli yanaşması, bədii idrakı həyatın qatlarına enməklə əks etdirməsi ilə seçilir. Şairin Aprel şəhidlərinə həsr etdiyi şeirləri onun işğal olunmuş torpaqlarımızın düşməndən tezliklə təmizlənəcəyinə inamının ifadəsi idi. Söz adamının fikrincə, Aprel döyüşçüləri öz hünərləri, yağını geri oturdan həmlələri, Lələtəpəyə üçrəngli bayrağımızı sancaraq, sonralar qazanacağımız böyük qalibiyyətin təməlini qoyanlardır. Bu qanlı döyüşlərdə şəhid olmuş palkovnik Sənan Axundovun xatirəsinə həsr etdiyi şeir həmin mətləbləri yada salır:

***Salam, şəhidliyə ucalan igid,***
***Mübarək adına-sanına alqış.***
***Beş arşın kəfənə deyil, müqəddəs***
***Bayrağa rəng verən qanına alqış.***

***Demərəm arzular qaldı yarımçıq,***
***Demərəm ulduztək söndü o gecə.***
***Bir evin yeganə oğluydun, indi***
***Bir xalqın oğluna döndün o gecə.***

Həmişə gənc qalacaq, şəhid adının ucalığıyla yurduna göz aydınlığı gətirən oğullar ölümsüzdür, əbədiyaşardır:

***Gözü üstə olar hər əsən mehin,***
***çəkər keşiyini adi daşın da.***
***Yazan düz yazıb ki, "ana kimidi,***
***elə oğullar da sərhəd başında".***

***Rahatlıq gətirər yuxusuzluğu,***
***Dan yeri sökülər gözündən onun.***
***Sübhəcən tətikdə qalan barmağı,***
***Qoymaz çıxan olsun sözündən onun.***

Şair elin-obanın keşiyində ayıq-sayıq dayanan əsgərlərimizi toxtaqlıq yerimiz, arxa-dayağımız, "yurdun yenilməzlik bayrağı kimi ərk yerimiz" hesab edir. Dayandur Sevginə görə, "yurdun yuxusunu şirin gətirənlər" başdan-binədən sayıq olan, sükutun səsini belə gözdən qaçırmayan, əli tətikdə "oyaq qalan" Vətən müdafiəçilərdir. Qışın sazağında, yayın qaynar istisində səngərdə gözüaçıq, sərvaxt olan əsgər barədə belə deyir vətənpərvər şair:

***Vətən sevgisiylə, yurd sevgisiylə,***
***İlahi, nə qədər yaxındı mənə.***

Dörd günlük Aprel döyüşləri 44 günlük Vətən müharibəsinin başlanğıcı idi. Düşmənlə savaş labüd, qaçılmaz idi. Harayımızı sərt maneələr batırırdı. İşğal edilmiş yurd yerlərimizin başı üstündən ağlar buludlar hələki çəkilməmişdi. Qara duman, çən bağrımızı çatladırdı. Azğın düşmənin təxribatları isə ara vermirdi.

Müdrik Sərkərdəmizin qətiyyəti, Azərbaycan Ordusunun əzmi, əsgər və zabitlərimizin rəşadəti ilə 44 günlük Vətən savaşımız qalibiyyətlə nəticələndi. İndi şair və yazıçılarımız möhtəşəm Qələbəmizə köklənmiş əsərlər yaradırdı. Ədəbiyyat da, sənət də Zəfərimizi əks etdirməliydi.

Torpaq naminə döyüşmüş, canından keçmiş real qəhrəmanları bədii qəhrəmanlara çevirmək zamanıydı. Qələm dostları kimi, Dayandur Sevgin də zəfər şeirləri yazır, Azərbaycan bayrağını vəsf edirdi:

***Millətimin fəxridi, haqqa gedən yoludu,***
***Koroğlumun qılıncı, Babəkimin qoludu,***
***Müstəqillik günəşi, azadlıq simvoludu,***
***Seyr elə, igid əsgər, dalğalanan bayrağı.***
***Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!***

Biz həm döyüşdə, həm də siyasətdə qalib gəldik. 44 gün çox böyük müddət olmasa da, müzəffər ordumuz tarix yazdı. Bütün dünya Azərbaycan oğullarının hünərinin şahidi oldu. Şairin fikrincə, indi dünyanın gözünə dik baxa bilərdik:

***İndi qaçan görürük meydan sulayanları,***
***Yağış kimi süzülür Qarabağda qanları,***
***"Qovduq iti qovan tək, daban yalayanları,"***
***Azərbaycan xalqına Ali Komandan deyir.***

## Qısa müddətdə tamaşaçıların sevgisini qazanan "Səhnə" teatrı

**"Səhnə" teatrının bədii rəhbəri Xaqani Əliyev Adalet.az-la teatrın geridə qalan mövsümü və yeni mövsümdə hansı işlərin olacağını bölüşüb.**

O, teatrın yaranması haqqında danışarkən deyib ki, Səhnə teatrı 2021- ci ilin mart ayında "1 SƏHNƏ" MMC-nin direktoru Elçin Hacının təşəbbüsü ilə yaradılıb. İlk olaraq M.F. Axundzadənin " Müsyö Jordan və dərviş Məstəli şah" komediyası əsasında etno-müzikl janrında " Bir dəfə Qarabağda" adlı tamaşa hazırladıq. Tamaşanın quruluşçu rejissoru Elvin Mirzəyev, bəstəkarı Azər Hacıəsgərli və mahnıların sözləri şair Eminquey Akifə məxsusdur.

Mənim yazdığım "Molla Nəsrəddin 2022" (Rejissor əməkdar incəsənət xadimi Oruc Qurbanov) və A.P. Çexovun " Elçilik" (Rejissor Anar Babalı) əsərləri əsasında hazırlanan tamaşalarla tamaşaçılrın görüşünə gəldik və hər iki tamaşamız uğurlu oldu.

Teatrın qazandığı mükafatlardan danışarkən Xaqani Əliyev qeyd edib ki, Mədəniyyət Nazirliyinin və "Teatro.az" portalının birgə təşkil etdiyi ikinci " 4.4 qısa tamaşalar festivalında" müəllifi Xaqani Əliyev, rejissoru Namiq Ağayev olan " Qurd əfsanəsi" mono tamaşa ilə iştirak etdik. "Qurd əfsanəsi" mono tamaşası festivalda 3 yerə layiq görüldü və mükafatlandırıldı.

Müəllifi Pakizə Hüseynova, quruluşçu rejissoru Mirzə Ağa Mirzəyev olan, narkomaniya əlehinə hazırlanmış " Qaranlıqdan işığa" tamaşamız əksər Bakı kəndlərində nümayiş olundu və böyük uğur qazandı. Dünyada geniş yayılmasına baxmayaraq Azərbaycanda ilk dəfə olaraq Səhnə teatrı R. İbrahimbəyovun "Şirəbənzər" və E. Olbinin "Zooparkda nə baş verdi?" tamaşalarını "ev teatrı" üslubunda hazırladı.



"Ev teatrı" - adından da göründüyü kimi bir evin az sayda "qonaqları" üçün otaq şəraitinə uyğun olan tamaşalar hazırlayan teatrdır. Bu, müasir formadır və bu üslubda hazırlanan tamaşalarda müxtəlif teatr məktəblərinin qazandığı nailiyyətlərin sintezindən geniş istifadə edilir. Bu mövsüm uğurla nümayiş edilən hər iki tamaşanın quruluşçu rejissoru Elvin Mirzəyevdir.

"Hal-hazırda hansı tamaşalar üzərində işləyirsiniz?" sualına cavab verən Xaqani Əliyev bildirib ki, hal hazırda folklorumuzun ən maraqlı qollarından biri olan məhəbbət dastanlarımıza müraciət etmişik və onlardan birinin əsasında hazırlayacağımız tamaşanın məşqləri davam edir. Növbəti mövsümdə klassiklərimizə, çağdaş dramaturgiyamıza və dünya dramaturgiyasının incilərinə müraciət etməyi, komediya və uşaq tamaşaları janrında tamaşalar hazırlamaq üçün rejissorlar dəvət etməyi planlaşdırırıq.

Teatrın tam gücü ilə fəaliyyət göstərməsində ən əsas problemi teatr səhnəsinin olmamasıdır. Dövlət teatrlarının səhnələrinin icarə haqqının çox yüksək olması da özəl teatrlar üçün böyük problemlər yaradır.

**Qeyd edək ki, həftənin hər şənbə və bazar günləri "Ev teatrı" üslubunda hazırladığımız tamaşalara Heydər Əliyev pr, Sport Plaza Hotel, 4-cü bina, BMS Plaza, 15 -ci mərtəbə. SƏHNƏ TEATRI. ünvanında baxa bilərsiz.**

**Eminquey**


Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 132**
Çapa imzalanmışdır: 01.06.2023